**UOT 81-116**

# MÜASİR DİLÇİLİKDƏ KOQNİTİV PARADİQMAYA DAİR

**MƏHƏRRƏMOVA MƏTANƏT HİDAYƏT qızı**
*Sumqayıt Dövlət Universiteti, dissertant*
*e-mail: meherremova79@inbox.ru*

***Açar sözlər:*** *strukturalizm, antroposentrik paradiqma, daş, koqnitiv, milli şüur*

Müasir dilçilik insan amili ətrafında formalaşır. Nəzər alsaq ki, bu günə qədər linqvistik diskurs üç məlum paradiqma yaradıb, müasir paradiqma özündən əvvəlkilərin bir növ inkarı kimi yaranır. Müqayisəli-tarixi dilçilik təbii dilləri fenomenal baxımdan öyrənmirdi. Qohum dillərin faktları müqayisə olunaraq ulu dil axtarışları təşəkkül tapırdı. Sistem-struktur paradiqma komparativistikanın inkarı olaraq əsas diqqətini təbii dillərin quruluşuna yönəldir. Dilçilər milli xüsusiyyətlərdən uzaqlaşaraq dünya dillərinin əsasını təşkil edən universal semiotik sxemi müəyyən etməyə çalışıblar. Bunun nəticəsi kimi məna və onun milli-mədəni özəlliyi ya arxa plana çıkilib ya da heç hesaba alınmayıb. Nəhayət, strukturalizmə mənəvi və elmi reaksiya olaraq koqnitiv dilçilik keçən əsrin ikinci yarısında təşəkkül tapır. Koqnitiv dilçilik isə struktur təlimlərdən fərqli olaraq, əsas diqqəti məhz milli "baxışlara" yönəldir. Təbii dillərdə "koqnisiya" anlayışına uyğun şəkildə danışan xalqların təfəkkürlərinin izlərini axtarmaq və tapmaq dil haqqındakı elmin əsas vəzifəsinə çevrilir.

Dilçilikdə koqnitivizm yaxud antroposentrik paradiqma V. fon Humboldtun elmi baxışları ilə bağlıdır. Sonralar müvafiq ideyalar E.Sepirin, B.Uorfun, A.Vejbitskayanın, L.Vissonun və başqa alimlərin əsərlərində öz inkişafını tapmışdı. Alimlərin fikrinə görə, XX əsrin sonuna doğru dilçilikdə tamamilə yeni elmi paradiqma formalaşmağa başlayır. Bu paradiqma müqayisəli-tarixi və sistem struktur paradiqmalardan sonra formalaşır və *antroposentrik paradiqma* adı alır. V.A.Maslova qeyd edir ki, "Dilin antroposentrikliyini hal-hazırda hamı tərəfindən qəbul olunmuş fikir hesab etmək olar" [2, 5]. Azərbaycan dilində *antroposentrizm* terminini *başərmərkəzliyi* kimi dərk etmək lazımdır. Bəlkə də, bu cür tərcümə çox formal səslənir, lakin *antroposentrizm* termininin kalkasıdır, onun daxili formasını əks erdirir.

Belə düşünmək olar ki, dilçilikdə *antroposentrizm* məhz strukturalizmin əksi kimi formalaşır, strukturalizmə reaksiya səciyyəsi daşıyır. Bildiyimiz kimi, strukturalizm dildə mənaya ikinci dərəcəli amil yeri ayırırdı. Əsas amil dil sxemini təşkil edən münasibətlər idi. Məna diqqət mərkəzindən qaçırdısa, deməli, insan amili də dilçilikdə ikinci plana çəkilirdi.

Antroposentrik paradiqma tədqiqat maraqlarının obyektdən subyektə keçməsini göstərir. Tədqiqatçılar L.Vitqenşteynin "Dünya əşyaların yox, faktların çoxluğudur" [1, 5] tezisini əsas götürərək diqqəti hadisələrə və onların mərkəzində dayanan insana yönəldirlər.

Antroposentrik paradiqma çərçivəsində dil mədəniyyətin bir qolu kimi qəbul olunur. Digər tərəfdən, mədəniyyət özü yalnız mətndə və, deməli, dildə əks olunan fenomen kimi dəyərləndirilir. Bu istiqamətdə aparılan tədqiqatlar leksik-semantik materialı müxtəlif adətlər və mərasimlər ətrafında sistemləşdirir. Əslində, bu cür sistemləşmə semantik sahələr üzrə aparılan təhlilləri də xatırladır. Ona görə ki, semantik sahələr bütövlükdə müəyyən mədəni sahələri əhatə edir. Semantik sahəni öyrənmək elə mədəniyyətin müəyyən fraqmentini öyrənmək deməkdir. Dilin semantik sistemini semantik sahələr və mədəniyyətin müxtəlif sahələri üzrə öyrənməklə bütövlükdə dil sistemini milli mentalitetə uyğun gələn sinxron varlıq kimi dəyərləndirmək olar.

Antroposentrik paradiqma koqnitiv dilçiliklə eyniləşdirilə də bilər. Bu iki anlayışı qarşılaşdırsaq, görərik ki, birincisi (antroposentrik paradiqma) genişdir və daha çox yanaşmanı

xatırladır, ikincisi isə (koqnitiv dilçilik) nisbətən dardır. Ümumiyyətlə, *koqnisiya* termini informasiyanın qəbul olunması, nümayiş olunması və istehsal olunması proseslərinin qarşılıqlı əlaqə qəlibini bildirir. Müxtəlif insanlar xarici informasiyanı eyni cür qəbul etmir, onların şüurlarında həmin informasiya eyni formada reprezentasiya olunmur, və, nəhayət, nitqlərində eyni formada istehsal olunmur. Koqnisiya qəlibləri müxtəlif insanları fərqləndirirsə, kütləvi şüurları daha kəskin şəkildə ayırır. Milli şüur, milli mentalitet, milli təfəkkür real varlıqdırsa, deməli, xalqlar bu səviyyədə fərqlənirlər. Lakin informasiyanın qəbulu və nümayiş olunması (reprezentasiya) səviyyəsində baş verənləri duymaq mümkün deyil. Yalnız bir səviyyədə - informasiyanın istehsal sistemində koqnitiv fərqlər özünü büruzə verir.

Informasiyanın istehsal sistemi dildir. Deməli, milli mentalitetlərin fərqləri özünü yalnız dildə göstərə bilər. Deyə bilərlər ki, davranış qaydaları da xalqları fərqləndirir. Davranış normaları, ictimai hadisə olaraq, etnik təfəkkür tarixindən çox ictimai şüur tarixini əks edir. İctimai şüur tarixində isə mənşə etibarilə hadisələri fərqləndirmək həmişə mümkün olmur. Dilin əsas fondu daxili forma səviyyəsində xalqın dünyagörüşünü əks edir. Digər tərəfdən, ictimai normalar da dildə öz izahatını tapanda, kütləvi refleksiya halında sabitləşir. Əslində, ictimai fikir, xalqın düşüncəsini əks edirsə, folklordan tutmuş yazılı ədəbiyyata qədər geniş sahədə öz ifadəsini tapır.

Beləliklə, koqnitiv dilçilik məqsədyönlü şəkildə dildə milli mentalitetin izlərini axtarır. Məsələn: azərbaycanlılar "mən işləyirəm, mən işə gedirəm" deyirlər, türklər "mən çalışıram" ifadəsini işlədirlər. Azərbaycan dilində də *çalışmaq* feili işlənir, lakin bu feil *işləmək* sözündən fərqlənir, yüksək üslubi çalar kəsb edir və "səy" semantik əlamətini əlavə olaraq aktuallaşdırır. Deməli, bu iki feil iki qohum dildə əməyə olan müxtəlif münasibətləri bildirir. Hər halda çalışmaq türk şüuru üçün adi haldırsa, azərbaycanlıların şüuru bu hadisəni xüsusi ekspressiyaya malik olan hadisə kimi qəbul edir. Digər tərəfdən, işləmək (hadisə) azərbaycanlılar üçün adi haldırsa, türklər üçün – aşağı səviyyədə dəyərləndirilən hərəkətdir.

Bir sözlə, koqnitiv dilçilik dili informasiyanı təşkil, emal və istehsal edən bir varlıq kimi dərk edir. Strukturalizmin əksi olaraq, koqnitiv dilçilikdə semantika əsas ter tutur. Koqnitiv qəlib, qeyd olunduğu kimi, informasiyanın təşkili (alınması), emalı və istehsalını nəzərdə tutduğu üçün, koqnitiv dilçiliyin fundamental problemlərindən birini semantikanın həqiqətlə mövcud olan münasibətləri təşkil edir. Aydın məsələdir ki, söhbət dil semantikasının həqiqətlə olan münasibətlərindən gedirsə, ilk növbədə, leksik və frazeoloji vahidlər yada düşür. Məhz leksika milli şüurun konseptləşməsindən xəbər verir. Frazeoloji vahidlər isə dilin ikinci dərəcəli nominasiya vahidləri olaraq, işarələnənə ekspressiv münasibət bildirən vasitədir. Beləliklə də, frazeoloji vahidlər müasir dilçiliyin maraq mərkəzində yerləşir [3, 456].

Frazeoloji vahidlər ikinci dərəcəli nominasiya vahidləri olaraq mədəniyyəti konsept şəklində təqdim edir. Yəni mədəniyyət leksika və frazeologiyada konseptləşir, lakin frazeologiyada mədəni faktlara ekspressiv münasibət bildirilir, və buna görə də frazeoloji vahid kommunikativ effekt baxımından dilin daha güclü vasitəsidir. Beləliklə, müasir dil tədqiqatları məcazlara, frazeoloji vahidlərə, atalar sözləri və zərbi-məsəllərə xüsusi diqqət yetirir. Ilk növbədə? bu diqqət dil vahidlərinin əsasını təşkil edən obrazların konseptləşməsilə bağlıdır. Məsələn: Azərbaycan dilində və Azərbaycan xalqının milli təfəkküründə daşın konseptləşməsi iki koqnitiv əlamət üzərində qurulur: "bərk" və "hissetməzlik". Çox maraqlıdır ki, Rusca-Azərbaycanca Lüğətdə rus dilində işlənən *черствый, черстветь, черствость* sözlərini və anlayışlarını Azərbaycan dilində izah etmək üçün tərtibçilər *daşa dönmək, ürəyini daşa döndərmək, daşürəklik, daşürəkli* sözlərinə müraciət edirlər. Deməli, artıq Azərbaycan təfəkküründə "daş" konseptləşmişdir.

Frazeologiyada da bu konsept öz ifadəsini tapır. Məsələn, *bağrı daşa dönmək* frazeologizmində həmin konsept öz ifadəsini tapır. Konsept milli təfəkkürdə hərtərəfli əhatə olunur. Məsələn: "daş" konsepti Azərbaycan frazeologiyasında yalnız göstərilən koqnitiv əlamətləri nümayiş etmir. Azərbaycanca-rusca frazeologiya lüğətində *daş* komponenti ilə yaranan aşağıdakı frazeoloji vahidlər qeydə alınır: *daş atıb başını tutmaq, daş atmaq, daş qayaya rast gəlib, daş(ı) daş*

*üstə qalmamaq, daş-divarı gərmək, daş düşsün, daş kimi düşmək (düşüb qalmaq), daş kimi yatmaq, daş olub quyuya düşmək, daş üstə daş qoymamaq, daşa vursan (daşa dəysə), daşdan keçər, daşa dönmək, daşqalaq etmək (eləmək), daşdan yağ çıxarmaq, daşdan yumşaq, daşdan keçmək, daşdan pul çıxarmaq, daşdan çörək çıxarmaq, daşı dalında gizlətmək, daşı daş üstə qoymamaq, daşı ətəyindən tökmək (atmaq), daşı sıxsa suyunu çıxarar, daşın böyüyündən yapışmaq (böyüyünü götürmək), daşını (bir dəfəlik) atmaq, daşlar dilə gəlir* [4, 114].

Göründüyü kimi, bu frazeoloji vahidlərdə "daş" konsepti müxtəlif koqnitiv əlamətləri büruzə verir. Məsələn: daşın zərbə endirmək və müəyyən silah (maddi ya mənəvi) olmaq qabiliyyəti *daş atmaq, daşqalaq etmək, daşı dalında gizlətmək* frazeologizmlərində reallaşır. Digər tərəfdən, *daşqalaq etmək* frazeologizmi müəyyən tarixi-mədəni situasiyanı əks edir və, beləliklə də, daha mürəkkəb semantik quruluşa malikdir.

Daşın "ölülüyü", "bərkliyi", "hərəkətsizliyi", "keyliyi", "durğunluğu" və, bəlkə də, digər koqnitiv əlamətləri "insan və durğunluq", "insan və həyatsızlıq" semantik qəliblərinə uyğun olaraq *daşdan çörək çıxarmaq, daşdan pul çıxarmaq, daşdan yağ çıxarmaq, daşdan keçmək* frazeoloji vahidlərinin məzmununda reallaşır. Azərbaycan xalqının şüurunda daş küt bir qüvvənin rəmzinə çevrilir.

Eyni zamanda daş müqavimət rəmzinə çevrilir, və bu əlamət *daşı sıxsa suyunu çıxarar, daş-divarı gərmək, daşın böyüyündən yapışmaq* kimi frazeoloji vahidlərdə əks olunur.

Əslində, "keylilik", "bərklik" və buna oxşar koqnitiv əlamətlər *daş kimi yatmaq* ifadəsində də əks olunur.

Daşın universal koqnitiv əlamətini "tikili", "bina" anlayışı təşkil edir. Bu əlamət *daş üstə daş qoymamaq* frazeologizmində ifadəsini tapır.

Beləliklə də, "daş" konsepti Azərbaycan şüurunda çox mürəkkəb bir hadisə kimi çıxış edir. Kütləvi şüurda konseptləşmə bilavasitə leksik mənanın denotatı ilə bağlıdır. Təsadüfi deyil ki, denotat əşya haqqında tipik fikirdir. Yəni söhbət milli təfəkkürdən gedir, ayrı-ayrı insanların psixologiyasından yox.

Koqnitiv dilçilik dili və mədəniyyəti aktual bir korrelasiya kimi nəzərdən keçirir. Ilkin tezisə görə mədəniyyət parallel olaraq dildə işarələnir. Mədəniyyəti, adətən, mənəvi və maddi mədəniyyətə bölürlər. Mənəvi mədəniyyət mətnlər formasında mövcuddur. Maddi mədəniyyətə gəldikdə, qeyd etmək lazımdır ki, kütləvi təfəkkür maddi mədəniyyət haqqında refleksiya formasında mövcud olan təsəvvürlərlə eyniləşdirir. Məsələn: Azərbaycan xalqının maddi mədəniyyət sərvətlərindən birini Qız qalası təşkil edir. Bu qala haqqında müxtəlif insanların müxtəlif təsəvvürləri var. Real Qalanın obyektiv görünüşü və obyektiv tarixi var. Bunula bağlı emosiyalar mövcuddur və s. Lakin həm Qalanın görünüşü yanlış ola bilər, həm də tarixi. Kütləvi şüurda isə tipik təsəvvür var ki, bu da Azərbaycan xalqına mənsubdur. Əlbəttə, bu tipik təsəvvür Qalanın xarici və daxili görünüşü ilə, *Qız qalası* ifadəsinin lüğəvi təyini ilə, hamıya bəlli olan ümumi tarixi məlumatlarla müəyyənləşir. Bu informasiya bütövlükdə Azərbaycan xalqının şüurunda və dilində konseptləşir, yəni lüğəvi təyin, ümumi anlayış, siqnifikat mədəni-tarixi informasiya ilə tamamlanır və konsept şəklində dil vahidlərinin emosional (obrazlı) əsasını təşkil edir. Nəticə etibarilə konseptual informasiya kütləvi şüurda təhtəlşüur formasında və səviyyəsində reallaşır. Həmin bu informasiya danışıq situasiyasında aktuallaşa da bilər, aktuallaşmaya da. Əlbəttə, daxili formanın və etimoloji mənanın aktuallaşması ifadənin ekspressiv gücünü artırır. Nəticə etibarilə deyimin kommunikativ effekti artır. Lakin etimoloji məna aktuallaşmaya da bilər. Bu zaman frazeoloji vahid adi işarə kimi çıxış edir və formal qəbul olunur.

Koqnitiv dilçilik frazeoloji materialı təsəvvürlərin konseptuallaşması baxımından öyrənir. Və bu baxımdan Azərbaycan dilinin frazeologiyası tədqiqat üçün geniş imkanlar açır.

Hər bir yeni elm sahəsinin öz terminoloji aparatı olmalıdır və koqnitiv dilçilik də bu baxımdan müstəsna təşkil etmir. Elmi aparat və terminologiya elmin obyekti və predmeti ilə müəyyənləşir. Aydın məsələdir ki, dilçiliyin hər bir yeni sahəsinin də obyekti dil olaraq qalır.

Müasir dilçiliyin predmetini dildə əks olunan, öz ifadəsini tapan milli təfəkkür və psixologiyadır. Yeni baxışlar dilin və mədəniyyətin paralel yaranması və inkişafından çıxış edir.

Koqnitiv dilçiliyin və, deməli, koqnitiv frazeologiyanın predmetini dildə müxtəlif mərasimlərin izlərini axtarmaq da təşkil edir. Mərasimlərin əsasını məqsədyönlü hərəkətlər sistemində axtarmaq lazımdır. Hərəkətlər öz etimoloji məqsədyönlüyünü itirəndə, formal işarəyə, semiotik hadisəyə çevrilir. Belədirsə, deməli, mərasimlər bilavasitə miflərlə bağlıdır.

Mərasim digər tərəfdən ritualla da bağlıdır. Azərbaycan dilində bu iki hadisə çox zəif fərqləndirilir, yaxud heç fərqləndirilmir. Lüğətlərdə ritual da "mərasim, ayin" kimi verilir [5, 3, 94]. Ritual hərəkətlər sistemidir. Ritual çərçivəsində bu hərəkətlər ciddi qaydada və təyin olunmuş ardıcıllıqla yerinə yetirilir. Adətən, ritualın zamanı dəqiq müəyyən olunur. Yəni söhbət ritualdan gedirsə, onun dəqiq vaxtı var. Alimlərin fikrinə görə, ritual kütləvi yaddaşın əsas mexanizmidir ki, bu mexanizm bu gün də insanın həyatını müəyyənləşdirir.

Koqnitiv dilçilik mifləri, adət-ənənələri, mərasim və ritualları öz materialı hesab etdiyinə görə dilin müəyyən sahələrini, ilk növbədə, təhlil edir. Aydın məsələdir ki, bu baxımdan atalar sözləri və frazeoloji vahidlər ön plana çəkilir.

Atalar sözləri həm frazeoloji vahidlərdən, həm də deyimlərdən fərqlənir. Frazeoloji vahidlər dil vahidləri olaraq, müəyyən adlar sistemini təşkil edir. Bunlar əşya, hərəkət, əlamət bildirirlər və bu baxımdan leksik vahidlərlə sinonimlik münasibətləri yaradırlar.Frazeoloji vahidlər bilavasitə mədəniyyətin izlərini özündə saxlayır. Bu izlər müxtəlif sahələrə aiddir və çox geniş fon informasiyasını mühafizə edir. Həmin informasiya etnik təfəkkürə tanış olan dünyanı əhatə edir.

Azərbaycan dilçilində koqnitivizm ümumiyyətlə hələ formalaşmayıb. Lakin Azərbaycan dilçiliyi dünya dilçilik elminin bir qoludur və, deməli, dünya elminin müasir dövrdə predmetini nə təşkil edirsə, Azərbaycan elmini də həmin predmet maraqlandırmalıdır. Əslində elm qlobaldır, material müxtəlifdir. Yəni Azərbaycan dili müasir metodlarla və qlobal məqsədlərə uyğun şəkildə öyrənilməlidir.

***Elmi yeniliyi:*** Koqnitiv dilçiliyin dili frazeologiyalar və mifologemalar əsasında araşdırılması məqalənin əsas tədqiqat hədəfidir.

***Tətbiqi əhəmiyyəti:*** Ali məktəblərdə dilçilik elmindı koqnitiv paradiqma ilə bağlı tədqiqat işlərində istifadə edilə bilər.

## ƏDƏBİYYAT

1. Витгенштейн Л. Философские работы (часть 1). М.: Гнозис, 1994, 612 с.
2. Маслова В.А. Лингвокультурология. М.: ACADEMIA, 2001, 206 с.
3. Общее языкознание. Внутренняя структура языка. М.: Наука, 1972, 564 с.
4. Orucov Ə.Ə. Azərbaycanca-rusca frazeologiya lüğəti. Bakı: Elm, 1976, 248 s.
5. Rusca-Azərbaycanca lüğət. 1 cild. Bakı: Maarif, 1982, 608 s. 3 cild. Bakı: Gənclik, 1983, 556 s.

## РЕЗЮМЕ
## О КОГНИТИВНОЙ ПАРАДИГМЕ В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ

***Магеррамова М.Г.***

***Ключевые слова:*** *структурализм, антропо-центрический, парадигма, камень, когнитивный, национальное сознание*

В статье говорится о когнитивных парадигмах в языкознании. Делаются выводы о том, что одной из основных задач когнитивной парадигмы является определение национальной особенности основных понятий, формирующих национальный менталитет, и наблюдение за их вербализацией в языке. Потому что, если обратить внимание на естественный язык, то можно заметить что его семантическая система может подвергаться бинарному расколу. В языке существуют определённые концепты, которые в достаточной мере абстрактны и конкретизируются в различных аспектах. Наблюдение за ними –одна из главных задач современного языкознания. Основной целью данной работы является изучение когнитивного языкознания на основе фразеологии и мифологии языка.

**SUMMARY**
**ON COGNITIVE PARADIGM OF MODERN LINGUISTICS**
***Maharramova M.H.***

***Keywords**: structuralism, anthropo-centric paradigm, stone, cognitive, national consciousness*

The article dedicated to the comment of cognitive paradigms in linguistic science.One of the essential duties of modem cognitive paradigms is defining national priority of main conception which formed national mentality and following their verbalizing process in the language. Because,if we look through natural language we can see that their semantic system may undergo to binary part. Some conseptions are existing in the language, and the same conseptions are abstract and be concrete in different aspects. Following them is the main duties of modern linguistic. The language of cognitive linguistic, studying in the base of phraseologies and myth logemas is the main target of the article.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 19.01.2017 |
| | Son variant | 16.03.2017 |

**УДК 81’28**

# ВЫБОР НЕВЕСТЫ В АСПЕКТЕ СИСТЕМНОСТИ ЛЕКСИКИ СВАДЕБНОЙ ОБРЯДНОСТИ АЗЕРБАЙДЖАНСКОГО И ЧЕШСКОГО ЯЗЫКОВ

**ГУРБАНОВА СВЕТЛАНА МИКАИЛ гызы**
*Бакинский славянский университет, преподаватель*
*e-mail: svetlanagurbanova@mail.ru*

***Ключевые слова***: *обряд, ритуал, свадебная обрядность, выбор невесты, парадигматические связи, синтагматические связи, системно организованная лексика, чешский язык, азербайджанский язык.*

Изучать лексику высокоорганизованных языков, коими являются современные азербайджанский и чешский языки, следует с анализа присущих ей связей. Речь о системно организованных парадигматических и синтагматических связях, которые наблюдаются не только в литературном языке, но и в его диалектах. Для этого объектом исследования лингвиста становится та или иная тематическая группа, или группы лексики литературного языка и его диалектов в ракурсе типов семантических отношений.

Анализ исследуемого нами практического материала позволил увидеть, что предметная лексика свадебной обрядности чешского и азербайджанского языков представлена в аспекте денотативной соотнесенности. В процессе работы мы отчетливо наблюдали как обладающая смысловой структурой лексема с присущими ей планом содержания и планом выражения, находится в контакте со словами, которые близки ей как по смыслу, так и по наличию внутрисистемных связей. Все это делает выделенную единицу единицей того или иного лексико-семантического поля и включает ее в парадигмы, которым присущ принцип иерархии элементов. Именно так следует рассматривать слова одной тематической составляющей, чтобы в процессе работы с обрядовой лексикой прослеживался весь спектр связей.

Нет сомнений, что вследствие различия культур и вероисповеданий наполнение одинаковых лексико-семантических групп свадебной обрядности, так или иначе, будет отличаться. Большинство же их компонентов будет совпадать, ибо конечная цель обряда (создание семьи) и его участники (невеста, жених, сват, свекровь и т.п.) составляют компонентную общность как азербайджанского, так и чешского обрядов. А имеющаяся разница в парадигматике, несомненно, приведет и к различию в синтагматических отношениях. Иными словами, это связанные друг с другом системы с общими и разнящимися чертами, изучение которых должно проводиться в социолингвистическом аспекте.

Поскольку наша статья посвящена одному из неразработанных вопросов современной азербайджанской славистики – сопоставительной характеристике свадебной лексики одного из этапов семейной обрядности азербайджанского и чешского языков, – то в рамках настоящего исследования следует определить объем таких понятий как ритуал и обряд.

В целом, теме ритуала и обряда, их структуре и функции в обществе, культуре, языке посвящено достаточно исследований теоретического и прагматического характера. Уместно будет отметить, что для нашего исследования, изучающего системность обрядовой лексики, определение терминов «обряд» и «ритуал» имеет немаловажное значение.

В терминах *ритуал* или *обряд* отражена системность лексики, а сами они находятся в парадигматических (в данном случае, – синонимических) отношениях.

В научной литературе есть мнение, что между этими понятиями можно ставить знак абсолютного равенства. И в этом смысле «ритуал – это тот же обряд». Иное мнение привносит в семантику этих терминов религиозную стилистику, рассматривая их «как некое религиозное действо». Именно так определит респондент понятия *свадьба, крещение. суннет, похороны* или иные мероприятия в рамках событий жизненного цикла человека или памятных дат религиозного (мусульманского или христианского) календаря.

Энциклопедия Брокгауза и Эфрона определяла ритуал как «порядок церковных обрядов, совершаемых при разных требах и богослужении» [1], то современный объем этого понятия не наполнен религиозной составляющей, а рассматривается как присущий тому или иному сообществу «набор неких действий», несущих символическую ценность. В качестве доказательства приводятся ритуалы празднования юбилеев свадьбы, которые проводятся в определенные временные промежутки и т.п., что говорит об их системности [2].

В случае, когда перед нами некая совокупность повторяющихся действий с присущим им религиозным содержанием, то речь идет об обряде как об упорядоченном традиционном и стереотипном событии. В этом смысле понятия *обряд* и *ритуал* оказываются перекрещивающимися в определенной части означаемого ими понятия в части регулярности происходящего события. Следовательно, справедливо соотнесение свадьбы, похорон и к ритуалам, и к обрядам.

Можно понимать обряд и как более объёмное понятие, включающее в себя ритуалы. Например, обряд – *свадебный*, ритуалы – *сватовство, помолвка, умыкание невесты, венчание, кебин* (в исламе заключение религиозного брака), *свадьба*. В этом случае, роль религиозной составляющей может варьироваться в зависимости от степени набожности брачующихся. Стереотипность календарных (религиозных и трудовых) обрядов так же позволяет говорить об отраженных в составляющих их ритуалах жизненных ценностей, легших в основу того или иного сообщества людей.

В рамках настоящей статьи термины *обряд* и *ритуал* мы будем употреблять как синонимичные в значении «свадебный процесс в целом, начиная со сватовства и заканчивая ритуалами последующих нескольких дней за днем свадьбы».

Каждый из вышеназванных обрядов/ритуалов обозначенной выше тематики включает в свой глоссарий определенное количество связанных между собой и особым образом организованных лексических единиц в рамках этапов свадьбы: предварительного и окончательного сватовства, подготовки приданого, приглашения на свадьбу, прощания жениха и невесты с холостой жизнью, день свадьбы, свадебный пир, свадебная ночь с последующей демонстрацией невинности невесты, посещение родственников невесты в доме мужа, посещение молодой семьей дома невесты и т.п.

Собственно говоря, все эти этапы представляют собой термины и понятия свадебного обряда. Представим их в двух исследуемых нами языках. (Здесь и далее русский язык будет служить для нас языком-посредником).

Наличие практически эквивалентных лексических соответсвий в названиях этапов свадебного обряда в двух языках говорит о наличии этих составляющих обрядов в чешском и азербайджанском языках. В рамках настоящей статьи рассмотрим один из этапов свадебного ритуала в аспекте системности представленной в ней лексики.

Прежде чем приступить к описанию обряда, отметим, что мы не будем описывать обрядность и сопровождающую ее лексику в том виде, в котором обряд находился столетиями. Мы будем говорить о тех ритуалах и сопровождающей обряды лексики, отдельные этапы которых в определенной мере сохранились и сегодня или современный представитель того или иного народа имеет представление о них.

| *Азербайджанский язык* | *Чешский язык* | *Русский язык* |
|---|---|---|
| qız bəyənmə | vybĕr nevesty | выбор невесты |
| həri, balaca nişan | námluvy | предварительное сватовство |
| böyük nişan | dohozování | окончательное сватовства |
| çehizin hazırlanması | připrava vĕna | подготовки приданого |
| toya dəvət | svatební oznámení | приглашения на свадьбу |
| subaylıqda vida axçamı/oğlan məclisi (bəy üçün) | loučení se svobodou, pánská jízda | прощания жениха с холостой жизнью |
| subaylıqda vida axçamı (gəlin üçün)/qız məclisi | loučení se svobodou, dámská jízda | прощания невесты с холостой жизнью |
| *Азербайджанский язык* | *Чешский язык* | *Русский язык* |
| gəlinin alinmasi | svatební ozanamení | выкуп невесты |
| toy günü | svatební den | день свадьбы |
| toy siyafəti | svátební hostina | свадебный пир |
| toy gecəsi | svátební noc | свадебная ночь |
| gəlinin bakirəliyin isbatı | pokáyání nevinĕ nevĕsty | демонстрация невинности невесты |
| gəlinin qohumları ər evinin ziyarətində | návštéva přibuzný nevĕsty manžela | посещение родственниками невесты дома мужа |
| gənc ailə gəlinin evinin ziyarətində | návštéva mladon rodinou doma nevĕsty | посещение молодой семьей дома невесты |

Анализ научной литературы поданной области исследования показал, что азербайджанская этнографическая, и в том числе, свадебная обрядовая лексика, не однажды становилась объектом научного исследования. Следует назвать ряд работ последнего десятилетия: И.Мамедли [3], Г.Аскерова [4], Ш.Сулейманова [5], К.Данзиевой [6], В.Абдулла [7] и т.п. В них авторы описывают свадебные и иные обряды отдельных зон Азербайджана. Поскольку сам свадебный обряд сложен, многоступенчив и сопровожден большим количеством обрядовой терминологии, то в рамках данной статьи мы ограничимся его начальным этапом – выбором невесты и пограничным ему этапом малого сватовства.

***Qızbəyəпmə «выбор невесты» в азербайджанской традиции.***

У обоих народов этот обряд является начальным этапом. Очевидно, что в современном обществе он претерпел некоторые изменения. Если раньше невесту подбирал ответственный за это человек, то в современном обществе такого уполномоченного нет, В качестве сватающего может выступить кто-то из подруг, друзей, соседей, коллег, родственников будущей невесты. При этом, сегодня в наших странах есть брачные агентства, которые выполняют именно эту функцию – предоставляют решившему жениться (выражаясь современной терминологией) клиенту базу данных невест.

Итак, ключевой фигурой этого этапа в обычаях азербайджанцев была *ğörücü* «смотрящая». Функция этого лица отражена в корневой морфеме в значении «смотреть». Причем смотрели не только на внешние данные и осведомлялись об умениях невесты. В одном из обычаев Шеки-Загатальской зоны, издревле славящейся шелкопрядством, объектом «осмотра» были даже пятки невесты. Чтобы убедиться, что они без трещин и гладкие невеста должна была босиком пройтись по *келагаю* (тонкому платку из натурального шелка). И если платок мялся и собирался под ногами претендентки, то ее не брали замуж. В той же географической зоне Азербайджана во время выбора невесты жених взбирался на *ореховое дерево*. По верованиям местного населения оно символизировало плодородие.

Местом выбора невесты у азербайджанцев служил и камень, так называемый *elçi daşı* (камень свата/посла/посланника). В азербайджанских эпосах есть выражение *elçi daşı – yolçu daşı, где* слово *elçi* переводится как «посол», «представитель», «посланец», «сват», а слово *yolçu* – «путник», «странник», «ходок». Следовательно выражение дословно переводится как «Камень свата – камень странника». Так. например, в эпосе «Küçə Rza – Xalı Qoşa» читаем: «Axtarıb Şah Xotkarın imarətini tapdılar. İmarətdən aralı *elçi daşı, yolçu daşı* var idi, gedib oturdular elçi daşının üstündə». Здесь речь идет о посланниках, которые пришли сватать сестру хана: «Dədə Yedigar razı oldu. Yola düşdülər. Gəlib Osmanlı vilayətinə çatdılar. Axtarıb Şah Xotkarın imarətini tapdılar. İmarətdən aralı *elçi daşı, yolçu daşı* var idi, gedib oturdular elçi daşının üstündə. Padşah gördü *elçi daşının* üstündə iki 30 nəfər adam oturub» [8).

Можно предположить, что и в этом случае молодой человек или его сваты мог сидеть на камне, наблюдать и делать выбор девушки. Когда же выбор был сделан, то сваты отправлялись в дом невесты.

В современном употреблении вторая часть выражения воспринимается не в значении «путник», «странник», «ходок» [9]. Например, «Yolçu yolda gərək» (Путнику – путь). А в значении «нищий»: «Yolçudan yolçuya pay düşməz» (Нищий нищему не подает). Таким образом, в современном употреблении во второй части идиомы произошел семантический сдвиг.

В старину в деревнях невесту выбирали у ручья, когда она приходила туда за водой. В городах же мать будущего жениха присматривала невесту в бане, затем жених ходил смотреть на нее на чьей-то свадьбе и если его мнение совпадало с мнением матери, то следующим этапом был этап *xəbərgöndərmə,* «оповещение». Ставили в известность женскую часть родни девушки и справлялись об их мнении. Весьма значимой была и роль посредников/сводников. Сам этап назывался *ara düzəltmə* «сводничество, а *ara düzəldənlər* «посредники/сводники» предоставляли семьям жениха и невесты всю информацию. Таким образом, эти люди играли важную роль на этапе *razılığagəlmə,* «получения согласия» сторон.

Таким образом, описав только один из этапов, образующих азербайджанского свадебного обряда – выбор невесты – мы определили лексико-семантическую группу терминов свадебной обрядности, находящихся в парадигматических и синтагматических отношениях. В нее вошли как единицы этапа выбора, так и малого сватовства (сватовство бывает большим *böyük elçilik* и малым *kiçik elçilik).* В рамках настоящего исследования нас будет интересовать терминология малого сватовства, пограничного с выбором невесты. Это такие термины как: *qızbəyənmə* и *ğözatıalma* «выбор невесты», *ğörücü* «смотрящая»; *kəlağay üstündə gəzmək* «хождение по келагаю (шелковому платку)», *saqqızını oğurlamaq* и *sözaldı* в знач. «уговорить», *ağızarama* и *ağızbildi* в знач. «узнать мнение», *qız evi* «дом невесты», *oğlan evi* «дом жениха», *xəbərgöndərmə* в знач. «послать известие»; *ara düzəltmə* «сводничество», *ara düzəltmək «свести»* и *ara düzəldənlər* «сводники»; *razılığagəlmə* «прийти к согласию»; *elçi* «сват», *elçi düşmək* и *elçilik etmək* «сватать», *elçi daşı* «камень свата», *elçi daşı – yolçu daşı* досл. «камень свата – камень путника»; *qız qapısı – şah qapısı досл.* «ворота дома девушки – царские ворота» и т.п.

***Выбор невесты «viber nevesty» в чешской традиции.***

Описанию чешской свадебной обрядности посвящены исследования Л.Навликовой [10] Н.Ф. Сумцова [11], В.Флореца [12] и др. Лексика обозначенной тематики представлена и в двуязычном чешско-русском словаре [13].

Ритуал выбора невесты и сватовства также входил в свадебную обрядность древних славян. Однако это действо у славян происходило несколько иначе, чем у азербайджанцев, хотя имелись и схожие ритуалы. В чешской свадебной обрядности все события, ведущие к свадьбе, были разделены на ритуалы, заключенные в определенные временные рамки. Речь о

*zpyty, ohledy* «смотринах», *namluvy* «сватовстве», *zásnuby* «обручении», *zvěnčení* «венчании», *přenášení nevěsty přes práh do místnosti* «переступание невестой порога дома» и т.п.

В своем исследовании традиционной чешской свадьбы Л.Навликова [10] пишет, что в последние века отсчет будущей славянской свадьбы начинался с выбора невесты и со знакомства. Причем не было важно, где и как это происходило, лишь бы молодые понравились друг другу. В основном, выбор невесты в прошлом совершался по предварительному сговору родителей. Отметим, что у представителей обоих народов не было принято жениться без одобрения выбора, согласия и благословления родителей, а потому подавляющее большинство лексики этапа выбора невесты имеются в обоих языках

Если молодые люди, увидевшись где-то, приглянулись друг другу, то далее проходила проверка/испытания или смотрины *(zpyty, ohledy)*, которые перекладывались на плечи друга жениха или свата. В разных частях страны его называли: *družba* «шафер», *starosvat* «главный сват», *tlampači* «договорщики», *smluvči* «сваты».

Именно он отправлялся в дом невесты на предварительные смотрины, чтобы разузнать все о невесте, а её личных качествах. Немаловажную роль при выборе невесты играло приданое невесты (věno nevěsty). Сват обговаривал приданое невесты до дня сватовства. Именно поэтому данное терминосочетание включено в лексику данного этапа свадебной обрядности.

Интересно, что у чехов с древнейших времен сохранялся обычай, по которому инициаторами брака могли выступать родители девушки. Если сватовство принималось, об этом визите на какое-то время «забывали». Так назывался ритуал «преднамеренного забывания» (ú*myslné zapomínání*), и потом все шло обычным порядком.

Всякое сватовство предварял этап *znalosti o něvesty* «сбор сведений о невесте – так сказать, «выясняли породу» («*vysvětleni roda*»).

Через смотрины должна была пройти каждая невеста, какими бы благоприятными ни были собранные о ней сведения (этот обряд был и азербайджанцев). Девушку выводили на середину комнаты и предлагали пройтись перед лавкой, где сидели сваты, приподнять поочередно обе руки, снять с головы платок и т.д. При таком пристальном осмотре (*bližší prohlidka nevěsty*) были видны все физические изъяны. Так, смотрины в общей бане выявляло дефекты фигуры будущей невестки, а хождение по шелковому платку азербайджанок выявляло такой изъян как грубая кожа ее пяток. Смотрители выходили на крыльцо для совещания. По окончании смотрин ждали решения жениха (*vyřešení ženicha*). Происходило это так: мать девушки подносила ему стакан меда. Если парень выпивал весь стакан – значит следовало ждать сватов, если же подносил ко рту и тут же ставил на стол – это значило, что не бывать свадьбе.

Иногда невесту смотрели и после просватанного дня (*den pro námluvy*). Это называлось *setkání* «свидание». Объявление о нем делалось при «большом народе» (skkvělí líde) в доме невесты.

Если выбор невесты (výběr nevěsty) происходил в мае-месяце, то парни приносили в дом избранницы небольшие деревца. Этот обряд назывался обряд принесения саженцев деревьев (podání saženic stromu). При этом пели определенные песни (zpěv písně).

В древности богатые и властные славянские семьи не интересовались мнением своих детей, и сами выбирали для них избранниц/избранников. Так, выбирая сыну невесту, родители, прежде всего, оценивали социальное положение и материальное состояние семьи девушки в обществе. Подобное было и в азербайджанских семьях.

Выбрав невесту, мужчина сообщал всем ее родственникам о своем намерении вступления в брак. Сватовство назначали, если полученная информация удовлетворяла семью жениха. Старинный обрядовый уклад состоял из нескольких ступеней сватовства.

(Выше было отмечено, что у азербайджанцев было малое и большое сватовство, которое сохранилось и сегодня).

Далее следовал ритуал *výběr vyslanc* выбора сватов. Ими обычно становились женатые родственники жениха. Чаще всего в дом невесты отправлялся отец жениха *(otec ženicha)*, его крестный (*kmotr/kmotreček)*, дядя (srtýc) или брат (bratr). Но иногда в обычаях присутствовали и женщины – крестная мать (*kmotrička/kmotra*) или тетка (*teta*). Но бывали также и случаи, когда жених засылал в дом профессиональных сватов (starosvaty), которые расхваливали жениха.

У чехов после сговора жениху давали большой хлеб, одна половина которого оставалась у жениха, а другая шла в дом невесты. Это был обряд разрезания хлеба (řezání chleba/kolače).

Описав этап выбора невесты чешского свадебного обряда, мы выделили следующую системно организованную лексико-семантическую группу терминов свадебной обрядности. В нее вошли: *zpyty* «испытание», ohledy «смотрины», *vyšetřtní nevěsty* «осмотр невесты», *předběžný námluvy* «предварительные смотрины», *námluvy* «сватовство», *zásnuby* «обручение», *zvěnčení* «венчание», *družba* «шафер», *starosvat* «главный сват», *tlampači* «договорщики», *smluvči* «сваты», *věno nevěsty* «приданое невесты», *rituál usmyslné zapomínání* «ритуал преднамеренного забывания», *znalosti o něvesty* «сбор сведений о невесте», *vysvětleni roda* «выяснение породы», *vyslance* «смотрители», *vyřešení ženicha* «решение жениха», *den pro námluvy* просватанный день, *setkání* «свидание», *skkvělí líde* «большой народ», *podání saženic stromu* «принесение саженцев деревьев», *zpěv písně «*пение песен», *výběr vyslance* «выбор сватов», *otec ženicha* «отец жениха», *kmotr/kmotreček ženicha* «крестный жениха», *strýc ženicha* «дядя жениха», *bratr ženicha* «брат жениха», *kmotra/kmotrička ženicha* «крестная мать жениха», *teta ženicha* «тетка жениха», *starosvat* «профессиональный сват», *řezání chleba/kolače* «разрезание хлеба» и т.п.

Таким образом, в лексико-семантической группе каждого из исследуемых языков есть как общие, так и специфические единицы, организованные в единую систему свадебной обрядовой лексики. Подавляющее большинство этапов чешской и азербайджанской свадебной обрядности сходны по цели (выбор невесты, смотрины, осмотр невесты, сватовство, обручение и т.п.), но различны по составляющим его элементам (венчание, принесение саженцев деревьев, разрезание хлеба, хождение по шелковому платку, уговор невесты и т.п.). Соответственно лексика, обозначающая эти обряды, и схожа и различна в зависимости от обозначаемого им действа того или иного ритуала, обряда.

**ЛИТЕРАТУРА**

1. Адоньева С. Б. Ритуал, он же – обряд. Разговор об определениях // Персонал-Микс, 2007, Вып. 6.
2. Тэрнер В. Символ и ритуал. М.: Наука, 1983, 277 с.
3. Məmmədli İ. Azərbaycan etnoqrafik leksikası Barı: Elm və təhsil, 2009.
4. Əsgərov H. Azərbaycan dilində maddi mənəviyyət leksikası Bakı: BDU, 2006, 448 s.
5. Süleymanova Ş. Azərbaycan dilinin mərasim leksikası B: Elm, 2006, 317 s.
6. Dənziyeva K. Azərbaycan dilində toy mərasimi leksikasıfil ü.f.d. dis. avtoref.. Bakı: 2010,
7. Abdulla V. Azərbaycan mərasim folkloru Bakı: Təhsil, 2005.
8. Azərbaycan folkloru külliyatı XXIX cild, Dastanlar XIX kitab Bakı: 2011, s.29.
9. Азербайджанско-русский словарь под ред. Х.Азизбекова, Баку: 1985, 420 с.
10. Havlíkova L. Svatba na hodoninsku (na pozadí tradičního obřadu) Brno 2011.
11. Сумцов Н.Ф. Символика славянских обрядов. М., Восточная литература, 1996, 247с.
12. Frolec V. Svatební obřad – současný stav a proměny. Lidová kultura a současnost. Sv. 9. Brno: Blok, 1983.
13. Rusko-český česko-ruský velký slovník. Lingea s.r.o., Brno 2009,1360 s.

**XÜLASƏ**
**AZƏRBAYCAN VƏ ÇEX DİLLƏRİNDƏ QIZ BƏYƏNMƏ ADƏTİ SİSTEMLİ TOY MƏRASİMİ LEKSİKASI ASPEKTİNDƏ**
***Qurbanova S.M.***

***Açar sözlər:*** *mərasim, adət, ayin, toy mərasimi, qız bəyənmə, paradiqmatik əlaqələr, sintaqmatik əlaqələr, sistem şəkilində təşkil olunmuş leksika, Azərbaycan dili, çex dili.*

Məqalədə çex və Azərbaycan dillərində toy mərasimlərinin bir bölümü olan qız bəyənmə ayinin leksikasını sistemli aspektdə araşdırılır. Ortaq və fərqli terminlər aşkar edilir. Mərasimə aid leksikanın paradiqmatik və sintaqmatik əlaqələri göstərilir.

**SUMMARY**
**IN THE CONTEXT OF IN AZERBAIJANI AND CZECH LANGUAGES GIRL APPRECIATION CUSTOM, SYSTEMATIC WEDDING CEREMONY LEXIC**
***Gurbanova S.M.***

***Keywords:*** *ceremony, custom, ritual, wedding ceremony, the girl appreciation paradigmatic relations, syntagmatical relations, the systematically organized lexic, vocabulary, Azerbaijani language, Czech language.*

In the article a part of weddings that take part in Czech and Azerbaijani languages wedding ceremonies ritual's lexic are investigating in systematically aspects. Common and different terms are found. Lexic that belongs to ceremony paradygmatic and syntagmatic relation are shown.

Daxil olma tarixi: İlkin variant 05.12.2016
Son variant 16.03.2017

**UOT 82.131**

# İSA HÜSEYNOVUN ƏSƏRLƏRİNİN ANTROPONİMİK LEKSİKASINDA "KİTABİ-DƏDƏ QORQUD"UN İZLƏRİ

**BAĞIROVA AYNURƏ SİYABXAN qızı**
*Sumqayıt Dövlət Universiteti, dissertant*
*e-mail: aynur.bagirova.1984@mail.ru*

***Açar sözlər:*** *antroponimik leksika, şəxs adları, ləqəblər, titullar, milli və tarixi mədəniyyətimiz*

Antroponimik vahidlər mənsub olduğu cəmiyyəti təmsil edib, sosial cəmiyyətdə baş verən hadisələri dolğunluğu ilə əks etdirir. L.N.Qumilyov "Qədim türklər" kitabında qeyd edir ki, türklərin adı həmişə onların cəmiyyətdəki mövqeyini əks etdirmişdir [1, 21]. Belə ki, dünya mədəniyyəti və ədəbiyyatı tarixində xüsusi yer tutan, türk xalqlarının möhtəşəm yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanı soykökümüzü, milli kimliyimizi, dilimizin dərin qatlarını, tarixən yaranmış onomastik vahidləri öyrənmək baxımından çox etibarlı və zəngin mənbədir. Hər sözə, hər ifadəyə böyük məsuliyyət və həssaslıqla yanaşan, eləcə də şəxs adları, ləqəbləri, titulları yerli-yerində işlədən görkəmli sənətkarımız İsa Hüseynovun əsərlərində "Kitabi-Dədə Qorqud"un izlərinə rast gəlmək mümkündür.

Sənətkarın ə" apelyativli antroponimlərdə rəng bildirmə xüsusiyyətinin əsas götürüldüyünü vurğulayır [3, 38]. sərlərində rast gəlinən maraqlı antroponimlərdən biri Qaraca Çobandır. H.Həsənov belə antroponimlərin zahiri əlamətlə əlaqədar meydana gəldiyini qeyd edir [2, 56]. M.Çobanov da "qara

Bildiyimiz kimi, "qara" sözünün semantikasında rəng bildirmə xüsusiyyəti özünü göstərir. Lakin buradakı "qara" sözü rəng anlamlı deyil, böyüklük, qüdrətlilik, güclülük və s. kimi məna çalarları ilə bağlıdır. Buna görə Musa Adilov yazır: "Səlcuq hökmdarı Qara Arslana verilən "qara" ləqəbi də "böyük", "qüdrətli" mənasındadır. "Dədə Qorqud" dastanında işlənən Qara xan, Qaraca çoban, Qara Budaq adlarında da bu məna vardır" [4, 151]. Həmçinin R.F.Xalıqova da qeyd edir ki, KDQ-da qara sözü qəhrəmanların adları qarşısında "cəsarətli" və "güclü" sözlərinin sinonimi məqamındadır. Məsələn: Qaraca Çoban adını "böyük və güclü çoban" kimi başa düşmək mümkündür [5, 257]. Bütün bu fikirlər "qara" apelyativli kişi adlarımızın rəng, yaxud zahiri əlamət əsasında yaranmadığını bir daha sübut edir.

M.Adilov və A.Paşayev yazır: "Qaraca//Qaracıq adındakı "qara" güclü, qüvvətli mənalarını bildirsə də, *-ca, -cıq* şəkilçiləri həmin şəxsi hakim sinfə mənsub digər "Qara"lardan fərqləndirmək, onun zəhmətkeş xalq içərisindən çıxmasını ifadə etmək üçün "Qara"ya artırılmışdır" [6, 30]. "Qaraca Çoban" aşağı təbəqənin nümayəndəsi olsa da, ona xüsusi hörmət göstərilir.

F.Xalıqov isə qeyd olunan antroponimdəki *-ca, -cıq* şəkilçisini şiddətləndirmə funksiyasında izah etmişdir [5, 44].

Beləliklə, "Qaraca Çoban" antroponimində "qara", "qüdrətli", "cəsur", "güclü" mənasında, -*ca* şəkilçisi isə qüvvətləndirici ədatdır.

İsa Hüseynovun əsərlərində müşahidə edilən Burla Xatun, İnanc xatun antroponimlərində "Kitabi-Dədə Qorqud"un izlərinə rast gəlinir. Bu antroponimik birləşmələr "Burla", "İnanc" şəxs adı və türk mənşəli "xatun" titulundan ibarətdir. Ə.Tanrıverdiyevə görə, Burlaxatın adı atası Bayandır xanın adına uyğunlaşdırılmışdır [6, 91]. A.Paşayev isə göstərir ki, bu ad qədim türklərdə qurd mənasında işlənən "buri" sözü ilə əlaqədardır. Lakin qədim və müasir Azərbaycan antroponimləri sistemində "börü" apelyativli qadın adlarının müşahidə edilmədiyinə görə bu fikrin

əsası yoxdur. "Burla" antroponiminin Mahmud Kaşğarinin lüğətində "ətir saçan", "gözəl görünən" mənasını ifadə edən "bur" sözündən yaranması fikri daha inandırıcı görunür [6, 92].

Bildiyimiz kimi, xatın titulu türk xalqlarında, eləcə də Azərbaycan ictimai həyatında qədim dövrlərdən mövcud olmuşdur. Belə ki, qədim oğuz elində qadınlara "xatun/xatın" deyə müraciət olunurdu.

"Azərbaycan şəxs adlarının izahlı-etimoloji lüğəti"ndə xatın – azərb. – qadın, xanım (müraciət); hökmdar qadın; xan arvadı, xanın kəbinli arvadı" [7, 215]; "Şəxs adları lüğəti"ndə isə "keçmişdə "xanım, xan arvadı" anlamında, lakin sonralar "qadın, arvad, zövcə" mənalarında işləndiyi yazılır" [8, 190].

Hətta A.Paşayev vurğulayır ki, müxtəlif lüğət və tədqiqat əsərlərində "xatun" və "xatın" kimi yazılan bu titul da "hökmdar arvadı" kimi şərh olunur. Türk sözü olan "qadın" fonetik dəyişikliyə uğrayaraq "xatun" ("xatın") şəklinə düşmüşdür. Turan Xatun, Burla Xatın, Selcan Xatun və s. [9, 185-186].

Belə ki, T.Hacıyev yazır: "Qadın və bəy sözləri təyin mövqeyində cıxış edərkən bu gün üçün arxaikləşmiş qadın titulunun cəmiyyətdə kişilərə aid bəy rütbəsi səviyyəsində olması muəyyənləşir" [10, s.154]. Qadın ana, bəy baba ifadələri "Kitabi-Dədə Qorqud"un dilində eyni mənada işlənə bilir:

"Qara gözdən acı yaşın dökdürdinmi?

Qadın ana, bəg baba "deyü bozlatdınmı? – dedi" [11, 97].

Beləliklə, "qadın" sözü "xatun"la eyni mənanı ifadə edir. F.Xalıqov da tədqiqatlarında qeyd edir ki, sözün tarixən keçdiyi yolu izləməklə vaxtilə "od yiyəsi", "ocaq sahibi" mənalı leksik vahidin sonralar göl, çay və ən nəhayət, qadınlıq məzmunu kəsb etməsinin uzun bir tarixi prosesin nəticəsi olduğu, tarixin çox qədim dövrləri ilə səsləşməsi qənaətinə gəlmək olar. O həmçinin bu leksik vahidin tarixən xatın/xatun formasından xanım, qadın və sonralar arvad formasına doğru inkişaf yolu keçdiyinin güman edildiyini vurğulamışdır [5, 36]. Təbii ki, türk xalqlarında qadının ocaq sahibi, ailənin dirəyi olması danılmaz faktdır.

Sənətkarın əsərlərində Dəli Alı, Dəli Cümrü, Dəli Unus kimi antroponimlərdə dəli ləqəbi özünü göstərir. Dilimizdə bu sözün müxtəlif məna çalarları işlənir. Belə ki, "Azərbaycan dilinin izahlı lüğəti"ndə "dəli 1. sif. ağlı və şüuru yerində olmayan, ruhi xəstə, divanə; 2. is. gic, axmaq, sarsaq, ağılsız; 3. sif. azğın, coşqun, hiddətli, şiddətli; 4. sif.bir şeyə həddindən artıq aludə olan; 5. Folklorda: dəlicəsinə qoçaq, igid, qəhrəman" və s. mənalardadır [12, 576].

Qədim türk yazılı abidələrinə nəzər yetirdikdə məlum olur ki, qədim türk dillərində bu söz telü şəklində ("gic, gicbəsər, səfeh, dəli") işlənmişdir [13, 192].

H.Araslı Azərbaycanda "dəli" sözünün igid, mübariz, qəhrəman mənasında işlənməsinin XX əsrə qədər davam etdiyini qeyd edir [14, 152]. Bu gün də dilimizdə həmin mənanı daşıyan "dəlidolu" söz komponenti işlənməkdədir.

Yazıçı da əsərlərində dəli sözünü bir neçə məna çalarlarında işlətmişdir. "Cəhənnəm" romanında "qoçaq, igid" mənasında: "Omar ağanın BağSar olduğunu, Zeynalabdin Tağıyev, bu tayda oğulları, üç qardaş ilə onların oğulları, Məmməd ağa, Nəriman Nərimanov, Aşıq Ələsgər, Aşıq Alı, bir də qaçaqbaşı Dəli Alı bilirlər" [15, 331]; "Tütək səsi" povestində isə "ağlını itirmiş" anlamındadır: "O vaxt Cümrüyə Dəli Cümrü demirdilər. Çünki hələ dəli olmamışdı" [16, s.90].

Tarixən "Kitabi-Dədə Qorqud" dastanındakı qəhrəmanlara dəli adı verilmişdir: Dəli Domrul, Dəli Dondara, Dəli Budaq. Xalqımız dəli adlandırdığı qəhrəmanları sevmiş, onları qəlblərdə, könüllərdə yaşatmışlar.

İsa Hüseynovun əsərlərində Xoca Ömər antroponimik birləşməsində xoca titulu işlənmişdir: "Vəzirimiz Xoca Ömərlə bahəm Səlcuq səltənəti vəzirlərinin hərəsi bir hökmdara çevrilər, məmləkətdə hərcmərclik düşər" [15, 156]. İsa Hüseynovun əsərlərində olduğu kimi, Azərbaycan folklorunda da "xoca" titulu daha qədim mənasında - tacir, bəzirgan kimi çox işlədilmişdir. Bu adın lapöncə tacirlərə verilməsi onların müxtəlif ölkələrin hökmdarları arasında elçi rolu oynaması,

diplomatik əlaqə yaratmaları, hökmdarların bu və ya digər tapşırığını icra etmələri ehtimal olunur. Bəzən bu titul düşmən, quldur mənasında da işlənmişdir" [14, 169-172].

F.Rəşidəddinə qeyd edir ki, türk dilində yaşlıları "Xoca" adlandırırlar, çünki bu söz ərəb və farsca deyil, məhz türkcədir [17, 15]. Türk mənşəli xoca sözünün ilkin mənası "müdrik, ağıllı, tədbirli anlamında qoca" olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanında da "qoca"lar məhz bu mənada işlənmişdir. Dastanda isə on bir "Qoca" titullu ada rast gəlirik: 1. Aruz Qoca, 2. Duxa Qoca, 3. Ənsə Qoca, 4.Qəflət Qoca, 5. Bunlu Qoca, 6.Yapaqlu Qoca, 7.Uşun Qoca, 8.Qanlu Qoca, 9.Qonur Qoca,10.İlək Qoca, 11.Qazılıq Qoca.

"Oğuznamə" əsərində də "Xoca", yaxud "Qoca" rütbəsinin hələ Oğuz xanın zamanından mövcud olduğu qeyd edilir.

Həmçinin Nizamimülk "Siyasətnamə" əsərində "Qoca" rütbəli şəxslərin böyük hörmət və nüfuz sahibi olduqlarını yazmışdır. Beləliklə, qədim və orta əsrlərdə "Xoca" titulu ağıllı, dünyagörmüş, hökmdarın məsləhətçisi ola biləcək şəxslərə, yəni vəzirlərə, alimlərə, tacirlərə verilirdi.

***Elmi yeniliyi:*** Məqalədə İ.Hüseynovun yaratdığı obrazları səciyyələndirən adlarda, ləqəblərdə, titullarda xalqımızın mənəvi dünyasının və dilinin lüğət fondunun zənginləşməsində xüsusi rolu olan Dədə Qorqudun izləri araşdırılmışdır.

***Tətbiqi əhəmiyyəti:*** Ali məktəbdə onomastika fənninin tədrisində, antroponimlərlə bağlı tədqiqat işlərində istifadə edilə bilər.

## ƏDƏBİYYAT

1. Qumilyov İ.N. Qədim türklər. Bakı: Gənclik, 1993, 536 s.
2. Həsənov H. Söz və ad. Baкı:Maarif, 1984, 98 s.
3. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları. Tbilisi: Qanatleba, 1983, 104 s.
4. Verdiyeva Z., Ağayeva F., Adilov M. Azərbaycan dilinin semasiologiyası. Baкı: Maarif, 1979, 308 s.
5. Xalıqova R. Müasir Azərbaycan antroponimiyasının inkişaf yolları. Bakı: 1992.
6. Adilov M.İ., Paşayev A. Azərbaycan onomastiкası, Baкı: ADU, 1987, 86 s.
5. Xalıqov F.R. Folklor onomastikası, I hissə. Bakı: Elm, 1998, 138 s.
6.Tanrıverdi Ə. "Kitabi-Dədə Qorqud"da şəxs adları. Bakı: Elm, 2000, 158 s.
7.Həsənov H.Ə. Azərbaycan şəxs adlarının izahlı-etimoloji lüğəti. Bakı: Mütərcim, 2002, 288 s.
8. Aydin Abi Aydın. Şəxs adları lüğəti. Bakı: Çıraq, 2002, 400 s.
9. Paşa A. Azərbaycan antroponimiyasının leksik problemləri. Bakı: Maarif, 1997, 255 s.
10. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Elm, 1999, 213 s.
11."Kitabi- Dədə Qorqud" dastanı. Bakı: Elm, 1999, 168 s.
12. Azərbaycan dilinin izahlı lüğəti (4 cilddə). IV c., Bakı: Şərq-Qərb, 2006, 712 s.
13.Rəhimova D.M. Müasir fars dilində Azərbaycan-türk sözləri. Bakı: Çənlibel, 1998, 150 s.
14.Ağayeva F.M., Əsgərova G.N., Ağayev P.Y. Azərbaycan folklor antroponimikası. Bakı: Maarif , 1997, 216 s.
15.Muğanna İ. Seçilmiş əsərləri. V c., Bakı: Avrasiya press, 2009, 480 s.
16. Muğanna İ. Seçilmiş əsərləri. I c., Bakı: Avrasiya press, 2009, 424 s.
17.Rəşidəddin F. Oğuznamə. Bakı:Azərnəşr, 1992,72 s.

## РЕЗЮМЕ

## СЛЕДЫ КИТАБИ-ДЕДЕ КОРКУТ В АНТРОПОНИМИЧЕСКОМ ЛЕКСИКОНЕ В ПРОИЗВЕДЕНИЯХ И.ГУСЕЙНОВА

***Багирова А.С.***

***Ключевые слова:*** *антропонимическая лексика, личные имена, прозвища, названия, национальная и историческая культура*

В статье анализируются следы антропонимического лексикона И.Гусейнова в бессмертном произведении искусств "Китаби-Деде Коркут". Автором исследуется древний эпос "Китаби-Деде Коркут", который играет большую роль в обогащении духовного мира народа.

**SUMMARY**
**THE TRACES OF KITABI-DEDE KORKUT IN ANTROPONOMICAL VOCABULARY OF İ.HUSEYNOV'S WORKS**
***Bagirova A.S.***

***Keywords:*** *antroponomical vocabulary, personal names, nicknames, titles, national and historical culture*

The traces of our immortal work of art "Kitabi-Dede Korkut" are investigated in İ.Huseynov's antroponomical vocabulary in this article. Author analysed the traces of Kitabi-Dede Korkut playing the great role in enriching the spiritual world of Azerbaijan nation and its vocabulary in names, titles, nicknames of images created by writer.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 03.11.2016 |
| | Son variant | 16.03.2017 |

**UOT 81-112**

# MAHMUD KAŞĞARİNİN "DİVANÜ LÜĞAT-İT-TÜRK" ƏSƏRİNDƏ BİRİNCİ NÖV TƏYİNİ SÖZ BİRLƏŞMƏLƏRİ

**İBAYEV NEMƏT ALIŞ oğlu**
*Sumqayıt Dövlət Universiteti, baş müəllim*
*e-mail: nemetibayev@gmail.com*

***Açar sözlər:*** *Divanü-lüğat-it-türk, sintaktik vahid, etnonim, toponim, söz birləşmələri, leksik-semantik xüsusiyyətlər*

Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri ümumtürk ədəbiyyatı və mədəniyyətinin möhtəşəm abidəsidir. Tərkibində 9 mindən artıq sözü toplayan "Divanü lüğat-it-türk" əsəri o dövrün dil və ləhcələrinin hamısını əhatə edən zəngin xəzinə, dövrünün əvəzsiz soraqvericisidir. Əsərin ən mühüm özəlliyi onun ilk türk ensiklopediyası olmasıdır. "Divan" min il bundan əvvəlki türkçülüyün tarixini, coğrafiyasını, mədəniyyətini, iqtisadiyyatını, ədəbiyyatını, mənəvi milli dəyərlərini, psixologiyasını, dünyagörüşünü, həyat tərzini ən incə detallarına qədər özündə əks etdirmişdir. Əsər əsrlər boyu müxtəlif aspektlərdən araşdırılmış, bir çox dillərə tərcümə olunmuş, hər kəs üçün böyük maraq kəsb etmişdir. Türk ellərini qarış-qarış, oba-oba gəzib, böyük sevgi ilə topladığı türk dillərinə və ləhcələrinə aid faktlar, ədəbi dil nümunələri, zəngin coğrafi, tarixi, etnoqrafik materiallar Mahmud Kaşğarinin bu günümüzə bəxş etdiyi qiymətli xəzinədir. Tarixi inkişaf yolu keçmiş türk dillərinin dil xüsusiyyətlərini öyrənmək, bu dillərin inkişaf yolunu aydınlaşdırmaq üçün də mühüm abidələrdən biridir. Bu baxımdan əsər birinci növ təyini söz birləşmələrini araşdırmaq üçün də zəngin material verir.

M. Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri mədəniyyət tariximizdə əvəzsiz qaynaqlardan biri kimi dəyərlidir. Bu mənada "Divan" dil faktları ilə zəngindir. Əsərdəki onomastik leksika, onomastik terminlər, oğuz boyları, etnonim və toponimlər , frazeoloji vahidlər və.s tədqiqata cəlb olunmuşdur. M. Kaşğarinin lüğətindəki birinci növ təyini söz birləşmələrinin tədqiqi dilçiliyimiz üçün qiymətli qaynaqdır

**Tərs:** çətin olan hər nəsnə. Hər çətin işə "***tərs iş***" deyilir. [1, c.1, 356]

**Börk:** başlıq, papaq. "***tatsız türk*** bolmas, ***başsız börk*** bolmas = tatsız [əcəmsiz] türk, başsız börk olmaz"

**Bozuk əw**: xaraba ev. Yıxılan, qırılan, sınan hər şey üçün belə deyilir [1, c.1, 380]

**Pışık ət:** bişmiş ət. Yağma dilində "pışığ" əvəzinə belə deyirlər [1, c.1, 380]

**Çapak:** "çapak ər = soysuz, haramzada" [1, c.1, 382]

**Kıruk:** qırıq. "***kıruk ər*** = çolaq adam", "***kıruk adhak*** = topal ayaq" [1, c.1, 383]

Divanda işlənən – ıq$^4$ şəkilçisi müasir dilimizdə işlənən – mış$^4$ şəkilçisinin sinonimi kimi çıxış edir.

**Kazuk:** qazılmış, qazılı "***Kazuk arık*** = qazılmış arx" [1, c.1, 384]

**Kulak:** "***kulak ton*** = qolları qısa paltar" [1, c.1, 384]

**Bədük:** böyük, hər şeyin böyüyü "***bədük təwi*** = böyük dəvə" [1, c.1, 386]. Burada d > y əvəzlənməsi baş vermişdir.

**Təzik:** "***təzik kişi*** = işdən qaçan adam" [1, c.1, 387]

**Tüşük:** işdən-gücdən qalan avaraya "***tüşük kişi***" deyilir [1, c.1, 388]

**Süzük:** "***süzük suw*** = süzülmüş su". Süzülmüş və təmiz hər şeyə belə deyilir [1, c.1, 389]

**Silig:** "***silig ər*** = təmiz, incə, yaraşıqlı, şirindil adam" [1, c.1, 390]

**Şütük:** "***şütük sakal*** = kosasaqqal" [1, c.1, 390]

**Kəpək:** Kiçik inciyə,mirvariyə "***kəpək yinçü***" deyilir [1, c.1, 390]

**Kəzik:** insanı titrədən isitmə, qızdırma. "***sarığ kəzik*** = sarı qızdırma" [1, c.1, 391].

Burada da səs əvəzlənməsi mövcuddur.
**Kəwəl:** "***kəwəl at*** = qaçağan at" [1, c.1, 394]
**Bakan:** halqa. Qızıl və qızıla bənzər şeylərdən qayrılan halqa, toqq. "***altun bakan*** = qızıl halqa" [1, c.1, 397]
**Sığan:** "***sığan saç*** = sığallanmış saç, qıvrım olmayan saç" [1, c.1, 401]Sığal > sığan, n > l əvəzlənməsi mövcuddur.
**Kıwal:** "***kıwal burun*** = düzgün burun" [1, c.1, 410]
**Tigin:** əslində "kölə" deməkdir. Buradan alınaraq rəngi gümüş kimi saf olan kölələrə "***kümüş tigin***", igid köləyə "***alp tigin***", uğurlu köləyə "***kutluğ tigin***" deyilir.
Tigin sözü sonralar xaqaniyyə ailəsinin övladlarına ad kimi verilmişdir. Bu söz yırtıcı quşlardan birinin adı ilə də qoşa işlənir: "çağrı tigin" kimi, "şahin təkin" deməkdir. "***küç tigin*** = qüvvətli təkin" [1, c.1, 411]. Gültəkin adı da buradandır (bənzər mənasını verir - kimi).
**Salğa:** "***salğa at*** = sərt at, gəm almayan at" [1, c.1, 420].
**Bilgi:** ağıllı. Bu beytdə işlədilmişdir:
"***Bilgə ərig*** edhgü tutup sözin işit,
Ərdəhmini ögrənibən ışıka sura"
***Bilgə adamı*** xoş tut, sözünü dinlə,
Onun ərdəmini öyrən, işə tətbiq et.
(Bilikli, ağıllı, ərdəm sahibi adamın sözünü dinlə, ondakı ədəb və fəziləti öyrən, öyrəndiyinə əməl et)

Bu sözlə kişilərə ad qoyularaq "***Bilgə bəg***" deyilir ki, bilikli, ağıllı, hakim bəy deməkdir. Uyğur xanına "Köl Bilgə xan" ləqəbi verilir, çünki "kamalı göl kimi, göl qədər" deməkdir. Burada ağılın çoxluğunu göstərmək üçün o, gölə bənzədilmişdir. Ağıllı adama "***bügü bilgə***" də deyilir [1,c.1, 422,423 ]. Kamalı göl ifadəsi müasir dilimizdə dərya qədər ifadəsi kimi işlədilir və buna bayatılarımızda, danışıq dilimizdə də rast gəlirik:

*Əzizinəm gül əllər,*
*Ağ biləklər, gül əllər.*
*Dəryaca ağlın olsa,*
*Yoxsul olsan gülərlər*

**Kəwgin:** "***kəwgin aş*** = doyurmayan aş". Bu "çiwgin" sözünün antonimidir. Heyvanları doyurmayan qüvvəsiz ota da "***kəwgin ot"*** deyilir [1,1, 434].
**Baklan:** "***baklan kuzı*** = kök quzu" [1,1, 434].
**Kərpiç:** kərpic. Bişmişinə "***pışığ kərpiç***" deyilir, bişmiş kərpicin başqa bir adı "tuğla"dır [1,c.1, 444].
**Kirtüç:** "***kirtüç kişi*** = paxıl və xasiyyəti pis adam" [1,1, 444].
**Baldır:** ögey, "***baldır oğul*** = ögey oğul", "***baldır kız*** = ögey qız" [1,c.1, 445].
**Baldır:** "***baldır tarığ*** = yazbaşı əkilən əkin". Ən yaxşı əkin vaxtı elə budur. Hər hansı bir iş ilk çağında görülürsə, ona "baldır" deyilir [1, c.1, 445].
**Baldır:** döl zamanı doğulan ilk quzuya da "***baldır kuzı***" deyilir [1,c.1, 445].
Müxtəlif mənalarda işlənən yuxarıda qeyd etdiyimiz "baldır" sözündə [b ]səsi qalın tələffüz olunur.
**Kırbas:** "***kırbas ər*** = başının tükü tökülən, artıq başında tük bitməyən adam" [1, c.1, 448].
**Yurbaş:** "***yurbaş ış*** = içindən necə çıxılacağı bilinməyən dolaşıq iş" [1, c.1, 448].
**Batruş:** "***batruş suw*** = bulanıq su". Suyu azalaraq xəmiri çoxalan əriştə şorbası da belədir. [1, c.1, 448].
**Başlağ:** "***başlağ nənq*** = buraxılmış şey". Həmin model üzrə "***başlağ yılkı***" başlı-başına buraxılmış heyvan deməkdir [1,c.1, 449].
**Saçlığ:** "***saçlığ ər*** = saçlı adam" [1,c.1, 451].
**Sarsığ:** "***sarsığ söz*** = kəskin söz". Qətiyyətli iş və sürətli hərəkət üçün də belə deyilir. [1,c.1, 451].

**Kulsığ:** "***kulsığ ər*** = xasiyyətcə qula bənzəyən adam, qul xislətli adam" [1,c.1, 452].

**Başnak:** "***başnak ər*** = başında dəbilqəsi, əynində zirehi olmayan əsgər" [1,c.1, 454].

**Tuğsak:** dul qadın. Çox zaman "***tul tuğsak***" şəklində qoşa işlənir [1,c.1, 455].

**Kəkmək:** "***kəkmək ər*** = işdə bişmiş, bərkə-boşa düşmüş, bişkin adam". Sözün əsli "kək"dir, zəhmət, sıxıntı deməkdir. Bu sifətdir, belə sifətlər qaydadan xaricdir, doğrusu "kəkmən"dir. [1, c.1, 463].

**Bədhrəm:** bayram, xalq şənliyi. Bir yer işıq və çiçəklə bəzəndiyi zaman "***bədhrəm yer***" deyilir ki, "könül açan yer" deməkdir. Bu sözün əslinin nə olduğunu bilmirəm, onu farslardan da eşitdim. Bununla birlikdə, oğuzlar bayram gününə "bəyrəm" deyirlər. Bu, sevinc və əyləncə günüdür. Oğuzlar dh hərfini y hərfinə çevirmişlər. Bəlkə də bu kəlmə ayrı bir sözdür. [1,c.1, 466]. Fikrimcə, *bayram* sözü fars mənşəli sözdür.

**Tolğağ:** qadın sırğası. "***yinçü tolğağ*** = mirvari sırğa". [2, c.2, 283].

**Təzgək:** "***təzgək ər*** = işdən və ya işə bənzər şeydən qaçan, çəkinən adam" [2, c.2, 284]. *Təzgək,* qaçmaq sözünə uyğun gəlir.Fonetik dəyişikliklərlə *tezkəm* və *tezmək* sözlərinə şivələrimizdə rast gəlirik.

**Tezkəm** (Səlyan) – Sizzə nə danışmışam, tezkəm gedib Ələsgərə xəbər veriblər. Tezmək (Biləsuvar) – 1. qaçmaq; 2. hürküb qaçmaq [3, 487].

**Kinizgək:** "***kinizgək kağun*** = təzəliyi, təravəti gedən, keçəlləşmiş qovun" [2, c.2, 285].

**Kişirgək:** "***kişirgək ər*** = evində bir adam görəndə sıxılan, evi özünə dar edən adam" [2, c.2, 285].

**Çənqəl:** "***çənqəl ər*** = şər adam, cənə-cünə adam, şərxata" [2, c.2, 286].

**Yalt:** "***yalt kaya*** = yalçın qaya, sərt qaya". Sərt olan hər şeyə belə deyilir. [4, c.3, 15). Fikrimcə, yal-yalçın mənası buradan gəlir.

**Yetiz:** enli, eni geniş olan hər şey. Bu sözdən alınaraq "***yetiz kadhış*** = enli qayış" deyilir. "***yetiz yer*** = enli, geniş yer" [4, c.3, 17).

**Yawaş:** "***yawaş kişi*** = həlim adam, xoşxasiyyət adam". Sakit, həlim heyvanlara da "yawaş" deyilir. Bu şeirdə də işlənmişdir:

*"Koldaş bilə yaraşğıl,*
*Karşıp adın üdürmə,*
*Bək tut* ***yawaş takağu****,*
*Süwlin yazın ədərmə".*
*Yoldaş ilə yaraşginən,*
*Ona qarşı çıxma, başqasını seçmə,*
*Bərk tut yavaş toyuğu,*
*Çöldə qırqovul arama.* [4, c.3, 18].

**Yatuk:** tənbəl adama "***yatuk kişi***" deyilir. Bəzi oğuzlar şəhərlərindən kənara çıxmır, müharibə etmirlər, ona görə də onlara "yatuk" deyilir, "tənbəllər və atılmışlar" deməkdir [4, c.3, 21]. Məncə, yatuk sözünün kökündə yatmaq anlamı var.

**Yalım:** "yalım kaya = dik, sıldırım qaya". Bu sıldırım dağın ətəyidir. Bu atalar sözündə də işlənmişdir: "təlim sözük uksa bolmas, ***yalım kaya*** yıksa bolmas = çox söz anlaşılmaz, yalçın qaya yıxılmaz", (insan dağdan yalçın qayanı yıxa bilməz, eləcə də çox sözü anlaya bilməz). Bu, sözü uzatmaması tövsiyə olunan adama deyilir [4, c.3, 25]. Yalın > yalım, m > n əvəzlənməsi mövcuddur.

**Yüksək:** "***yüksək tağ*** = yüksək dağ, hündür dağ". Hər hansı bir şey hündür, yüksək və uzun olsa, ona "yüksək" deyilir. Bu, quş tükü mənasına gələn "yük" sözündən alınmışdır. Çünki onun təbiətində yüksəlmək vardır. Beləliklə, hər yüksək şeyə bu ad verilmişdir. Bu beytdə də işlənmişdir:

*"Üs əs körüp yüksək kalık kodı çakar,*
***Bilgə kişi*** *ögüt berip tawrak ukar".*
*Kərkəs quşu leşi yüksəkdən görüb aşağı enər,*
***Bilgə kişi*** *öyüd verib tez anlayar.*

(Kərkəs quşu yüksəkdən üçarkən leşi görüb tez aşağı şığıyar, bilgə kişinin ovu isə öyüd nəsihətdir. Ağıllı adam öyüdü eşidən kimi tez əzbərləyər və yadında saxlar) [4, c.3, 46]. "Bilgə kişi" birləşməsi də I növ təyini söz birləşməsidir (bilici adam, müdrik adam mənasını verir).

Göründüyü kimi M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri sintaktik vahidlərlə zəngindir. Qədim türk dilindən orta əsr türkcəsinə keçid dövrünü özündə mükəmməl şəkildə əks etdirən bu əsər türk dillərində sintaktik vahidləri araşdırmaq üçün zəngin material verir.

***Elmi yeniliyi*:** Məqalə M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsərindəki sintaktik vahidlərin öyrənilməsi baxımından elmi əhəmiyyət kəsb edir. Məqalədə sintaktik vahidlərin leksik-semantik xüsusiyyətləri izah olunur. Eyni zamanda məqalə sintaktik vahidlərin zənginliyi barədə də geniş təsəvvür yaradır.

***Tətbiqi əhəmiyyəti:*** Praktik baxımdan sintaktik vahidlərin öyrənilməsinin əhəmiyyəti vardır. Məqalədəki sintaktik vahidlərdən ədəbi dil tarixinə aid dərsliklərin, dərs vəsaitlərinin hazırlanmasında nümunə kimi vermək olar.

## ƏDƏBİYYAT


1. Əsgərov R.B. Mahmud Kaşğari "Divanü lüğat-it-türk": 4 cilddə, I c., Bakı: Ozan, 2006, 512 s.
2. Əsgərov R.B. Mahmud Kaşğari "Divanü lüğat-it-türk": 4 cilddə, II c., Bakı: Ozan, 2006, 400 s.
3. Azərbaycan dilinin dialektoloji lüğəti / A.A.Axundovun., Q.Ş.Kazımovun., S.M.Behbudovun redaktorluğu ilə. Bakı: Şərq-Qərb, 2007, 568 s.
4. Əsgərov R.B. Mahmud Kaşğari "Divanü lüğat-it-türk": 4 cilddə, III c., Bakı: Ozan, 2006, 400 s.



## РЕЗЮМЕ
## ОПРЕДЕЛИТЕЛЬНЫЕ СЛОВОСОЧЕТАНИЯ ПЕРВОЙ СТЕПЕНИ В ПРОИЗВЕДЕНИИ МАХМУДА ГАШГАРИ "ДИВАНУ-ЛУГАТ-ИТ-ТУРК"

***Ибаев Н.А.***

***Ключевые слова:*** *Дивану-лугат-ит-турк, синтаксические единицы, этноним, топоним, словосочетания, лексико-семантические особенности*

В статье были исследованы прилагательные словосочетания первый степени произведение Махмуда Кашгари «Дивану-лугат-ит-турк». В статье ***kəsgin aş, kəkmək ər, bədhrəm er, yinçü tolğağ, kazuk arık and etc...***были выделены и исследованы синтактические единицы и объяснены их значения.



## SUMMARY
## FIRST TYPE OF ADJECTIVE WORD COMBINATIONS IN M.KASHGARY'S "DIVANI-LUGET-IT-TURK"

***Ibayev N.A.***

***Key words:*** *Divani-lugat-it-turk, syntactic unit, Ethnonym, toponym, word combinations, lexical and semantic features*

First type of adjective word combinations in M.Kashgary's "Divani-luget-it-turk"are studied in the article. Syntactic **units *kewgin ash, kekmek er, bedhrem er, yincu tolgag, kazukarik and etc*.** had been chosen and grouped and the meaning have been explained.



| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 19.01.2017 |
| | Son variant | 16.03.2017 |

**UOT 82-95**

# AESTHETIC THEORY IN LITERARY CRITICISM (ANALYSIS OF AESTHETIC CRITERION IN LITERARY CRITIQUE)

**VALIDA S. KARIMOVA (PHD.C IN GERMANIC LANGUAGES)**
*School of Humanities and Social Sciences (Research Assistant)*
*Khazar University. Baku, Azerbaijan*
*e-mail address: kerimovavalide@yahoo.com*

***Keywords:*** *purpose, aesthetic theory, artistry, public importance of the work, literary critique, critics and writers.*

Philosophical and aesthetic level produces aesthetic appreciation which is part of the artistic appreciation. The author analyses the work based on a system of her aesthetic views, taking into account the scale of her value system.

The philosophical and aesthetic problematic is functionally identical in literary criticism to the aesthetic one: it is a way of systematization of knowledge about the essence and the universal laws of art and serves as a theoretical foundation of art reflection (the term in its broader definition). Analyzing the literary-critical articles for the period from 1868 to 1880, we concluded that the aesthetic attitude is much clearer in its relation to the concept of "artistry". Why do we so rarely find judgments on the concept of "artistry" in the criticism ? Arguing about contemporary art, and especially the criticism, expressed the following idea: "We should be very careful with the word "artistry". The true works of art are as rare as great writers, so talking about artistry concerning the first available novel means little respect for the art.

Our research, however, proves the opposite - the critics have paid much attention to the artistic side of the works, based on their own ideas about artistry. The idea expressed by the author does not mean that the work which is not "artistic" enough is not worthy. Critics appreciate the social meaning and content in it. By the way, author was enthusiastic about the ideas of Herzen and Chernyshevsky, and was in solidarity with them in understanding the role of literature as a reflection of social life.

The author said that currently the aesthetic criticism is nothing else than the susceptibility to the imaginary artistry; the necessity of another critical direction is explained by the critic as the public need which requires more research about society, not about the imaginary artistry: *"... the smaller volume of purely aesthetic criticism is now more in line with the available volume of works of art and also shows that in the society there is more need for a different kind of critical research - more direct study of society, and probably, less susceptibility to imaginary artistry…"* Thus, the reality requires the direct studies of society - and this should be the main reference point for writers. The need for the domination of public thought in literary work is due to the requirements of the time.

The author talks about the new criticism, its new role and the challenge conditioned by the modern development, thus determining its aesthetic position: "In the field of literature, criticism is now more than ever sticking to the historical point of view, and much more specific than in the days of V.G. Belinsky: *“...it is an acquisition, and, moreover, absolutely positive, made by the new literature. If the criticism is less engaged in the beauty of works of art than before, then we have already indicated the cause of it...”* The critic comes to the idea of a generic "degeneration" of the criticism: *"...when the artistic side of the issue has been brought to its present limits, the "study of life", which was done primarily on the basis of works of art, took a different route: the direct ethnographic, economic, legal studies discover now much more in this life than modern art discovers…"* At the same time critic stipulates that such a position does not mean disrespect to the field of art, the non-recognition of its ideal and educational value. We believe on the

contrary that the new criticism appreciates art too highly to reckon among it every just tolerable story, tale or novel; it is supposed by the critics with Belinsky, that the word "art" should not be misunderstood - as it's too often done to this day. Referring again to Belinsky and his influence, writer, clarifying artistic policy, the new role and purpose of criticism is to assess the phenomena of life, not just artistic amenities of the work, which among other things are also so rare. In addition, criticism should not focus only on the fictions and belles lettres, the critic extends the concept of criticism itself, evaluating the entire life. The author spokes about the homogeneity of the "new criticism" with Belinsky's criticism, about the continuity of the revolutionary-democratic critics of the 60s (author sympathized with representatives of the "negative direction", whose representatives were Chernyshevsky, Dobrolyubov and Saltykov-Shchedrin [5, p. 48]) and criticism of Belinsky. The idea of social orientation of the best examples of the literary-critical legacy is established. Researcher concluded that, Belinsky as a link between the ideas of the 40s and 60s. The researcher rightly noted that the comparative historical values of the heritage of '40s and '60s was decided in the magazine in numerous historical and literary works of Pypin and critical articles of E. Utin, K.K. Arsenyev. It is important that for its time it was the most progressive point of view and it was thoroughly discussed in literary criticism of the magazine [5, p. 50].

Critics recognized such an approach to a literary work when "readers and criticism followed the movement of life itself, the explicit desire of "creativity", had become much more sensitive, intelligent and demanding, in particular, to the public side of the "art" works, and even in the absence of anything particularly remarkable aesthetically (there were really not so many wonderful things of this kind), were interested also in the works, less important in the aesthetic sense, but new and challenging in the public sense [5, p. 419]. Thus, the critics recognized the public aspect of the work as a greater value, rather than the aesthetic, in fact, the artistic one. Critics call "to peer closer to the real meaning of the literary images" and do not imagine himself/herself surrounded by aesthetic wealth [ibid, p. 420]. As soon as the "literature learned to speak directly about the case, and not walk in the idealist abstractions", it taught "rather appreciate the poetic property" [ibid].

Researcher states that in the years since Belinsky, aesthetic taste has changed considerably, because the conditions of literature existence changed, as well as the role of criticism changed, its place in the magazine, "the fiction followed the life, and were more and more turning to objects of public nature. In the past decade it had no talents equal to Pushkin, Lermontov, Gogol, but in this direct public description, it certainly moves on ... Critic defends contemporary art and criticism, not agreeing with the opinion of their decline and degeneration. The modern aesthetic thought which was defined by the critics and thinkers is significantly different from the previous ideals, as the very public development is faster, and communication of contemporary works with life, the description in the literature of social issues, and directly, a certain view of modern writers are far more important. The modern ideal is not an empty idealization, it "dominates the thought and feeling of the writer and the reader in a philosophical treatise, political and economic judgment, satirical essay, and "internal review"" [ibid, p. 418], that is, the critic proves that criticism is not in a state of decline, it simply meets the modern requirements and conditions, and in accordance with the tendency of literature towards the “publicisticness”, the boundaries between art and non-art, criticism and other materials and publications in the magazine are largely blurred. And it is not the decline and lack of ideals, it is a new level. This concept of writer is very important for understanding of not only artistic policy, but also "identity" in general. After analyzing the literary-critique, we can also talk about the object and sources of content in art for critics. According to critics, artistic truth in a work is one of the most important reference points for the writer, and the ideological and semantic analysis of the work lies at the heart of the creative method. "We much more prefer the work with a profound thought and a serious idea, and the presence of this idea makes the work particularly precious for us; but we think, where the life and truth are, there is an idea, sometimes it is not very abundant, but there are not so many abundant ideas in general. Art cannot be framed in some rules or

canons, there should be no boundaries for it, the artist can represent everything he/she wants, as long as his/her work has life in it, as long as the truth is felt in it, and then he/she can do anything he/she likes, his/her work then has every right to exist and be respected. Availability of public basis in the art, already provides a literary work with the ideological content, because in this case the artist's creation has the life and the truth, which in turn is the source of content in the art. And critical thinking becomes a form of assimilation of reality for the artist. The role of fantasy and imagination as constituent artistry elements is also recognized by some critics of the magazine. This should be a *reproduction* (not copying) of the reality touching the reader's feeling and thought.

The truth should be the art's subject; the unveiled truth, the nature of human relations, otherwise it will not perform its basic function - the devotion to the society. The very essence of art is in the assessment of the intrinsic value of one or another reality phenomenon, in its disciplinary and educational value. The content of the work in the first place, is due to the well-known situation, the historical period, the current state, the mood of the society, in a word, a nationality is a basic idea, the departure point for critics. Literature is also one of the means of expression of intellectual and social development of the people, thereby emphasizing the intellectual nature of art. Aesthetic position, according to which art is the result of intellectual, mental activity, and its value depends on the level of education of the writer, its development and talent, is reflected in the other requirements of the critics. According the writer considered that, literature as an expression of the life of society and the interests of the people.

In different forms critics never tire of repeating what should always be *above* everything, what should be the start for the artist, what should always be accompanied by his/her work. This is the mission of art and writer. The artist should create pictures and images with undying and eternal significance. *"...the art should be a reflection of nature and life..."* this was the start of the analysis of Italian critic Angelo de Gubernatis. And, as noted by the foreign critic, there are some physical conditions necessary for the creation of art, and all of them are present in the Italian style of the artist: *"...Italian genius has two essential qualities: sensitivity and power; sensitivity for the perception of beauty, and power for its reproduction..."*

Thus, analyzing the aesthetic component of the literary criticism, we can draw conclusions about the art policy as a whole. It was important that writer, spoke about historicism of the modern criticism, opening the possibility of ethnographic, legal, social studies for the readers, its syncretism and genre blurring. The principles of the "new criticism" declared by writer, following, according to the principles and "covenants" of V.G. Belinsky, as we found out, bring together his position with that of the revolutionary-democratic criticism of the 60s, which was important for the magazine as a whole and its artistic policy, in the aesthetic education of his contemporaries, the promotion of democratic views on art, protection of the best examples of the literary heritage of the great writers of the past and the present.

We can make conclusions about the approach of the critics to the art works they were more susceptible to the social side of the works, addressing the various issues of time: the peasant issue, the issue of the place and the role of intellectuals, women's rights, etc... *The philosophical and aesthetic discourse is closely intertwined in the criticism with the estimative -pragmatic and journalistic discourse.*

Literature for author is only material for the study of society, as the creativity opens all the most intimate thoughts of society, the level of the ideals in the literature lets historian and critic to estimate the level of development of society as a whole.

Giving priority to nationality to make judgments about literature and writers, *aesthetic stance of critics becomes hostage of the extra-literary conditions of existence*. Mixing the definitions of literary, social and scientific development of society, brought together many areas of human activity. This shows the particular approach to the assessment, of both the phenomena of life and artistic, scientific phenomena, scientific and social-political thought in the magazine and in the literary and critical discourse in particular. Defining one goal and task for the literature, criticism, publicism and the solution of painful issues of the day, the reflection of reality and the service to the social problems of

time - we can talk about the solidity the solution of important issues like peasant, worker, women's issues and the legacy of the 40s, socialism, the ways of economic development, the directions of development of scientific thought, etc.

## BIBLIOGRAPHY

1. Балыкин, Д. А. Пыпин А.Н. как исследователь течений русской общественной мысли / Д.А.Балыкин. Брянск: Наука, 1996, 235 с.
2. Iser, Wolfgang. (1978). *The Act of Reading: A Theory of Aesthetic Response*. Baltimore: Johns Hopkins University Press.
3. Jauss, Hans Robert. (1982). *Toward an Aesthetic of Reception*. Translated by Timothy Bahti. Minneapolis: University of Minnesota Press.
4. Lodge, David, ed. (1988). Modern Criticism and Theory: A Reader. Harlow: Longman.
5. Мостовская Н.Н. И.С.Тургенев и русская журналистика 70-х годов XIX в. / Н. Н. Мостовская. Л.: Наука, 1983. с. 48,50,215,419,418,420.
6. Petru.G&Estella.A.C. (2008). *The History of Literary Criticism*. p. 15

## WEBLOGRAPHY

https://plato.stanford.edu/entries/aesthetics-of-everyday/
http://www.iep.utm.edu/literary/
https://books.google.az/books?hl=en&lr=&id=H00kFLypLPQC&oi=fnd&pg=PR9&dq=aesthetic+theory+in+literary+criticism&ots=jM3TsADl9U&sig=0d23En3y5h_uRaK5nl3Btysjd8g&redir_esc=y#v=onepage&q=aesthetic%20theory%20in%20literary%20criticism&f=true
https://books.google.az/books?hl=en&lr=&id=o46WtblHiqsC&oi=fnd&pg=PR9&dq=analysis+of+aesthetic+theory&ots=t8LYnGYBk0&sig=LQeq_DQsTUbcoRUWX8R5iwBmcgI&redir_esc=y#v=onepage&q=analysis%20of%20aesthetic%20theory&f=false

## XÜLASƏ
## ƏDƏBİ TƏNQİDDƏ ESTETİK NƏZƏRİYYƏ
## (ƏDƏBİ TƏNQİDDƏ ESTETİK MEYARLARIN TƏHLİLİ)

***Kərimova V.S.***

***Açar sözlər:*** *məqsəd, estetik nəzəriyyə, işin ictimai əhəmiyyəti, ədəbi tənqid, tənqidçilər və yazıçılar.*

Təqdim edilən məqalənin əsas məqsədi ədəbi tənqiddə estetik nəzəriyyə, başqa sözlə desək, ədəbi tənqiddə estetik meyarı təhlil etməkdən ibarətdir. Fəlsəfi və estetik nəzəriyyə tənqidçi və yazıçıların bədii təcrübəsinin nəticəsi olaraq oxuculara tənqidin fəlsəfi və estetik cəhətinin güclü və təməl təcrübələrinin formalaşmasına daha da yaxın olmaq üçün imkan verir.

## РЕЗЮМЕ
## ЭСТЕТИЧЕСКАЯ ТЕОРИЯ В ЛИТЕРАТУРОВЕДЕНИИ
## (АНАЛИЗ ЭСТЕТИЧЕСКИХ КРИТЕРИЕВ В ЛИТЕРАТУРНОЙ КРИТИКЕ)

***Керимова В.С.***

***Ключевые слова:*** *смысл, эстетическая теория, общественная полезность работы, литературная критика, критики и писатели*

Основной смысл представляемой статьи – эстетическая теория в литературоведении, другими словами, анализ эстетических критериев в литературной критике. Эстетико-философская теория, как итог творческих опытов критиков и писателей, дает читателям возможность формирования крепкого и фундаментального опыта распознования философско-эстетических сторон литературной критики.

.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 16.02.2017 |
| | Son variant | 16.03.2017 |

**UOT 82-31**

# SÜLEYMAN VƏLİYEVİN YARADICILIĞINDA XX ƏSR HƏQİQƏTLƏRİ

**ŞİRİNOV FAİQ İMAMƏLİ oğlu**
*Sumqayıt Dövlət Universiteti tədris bölməsinin müdiri,*
*e-mail: faiq.shirinov.2016@mail.ru*

***Açar sözlər:*** *Neft Bakısı, fəhlə mövzusu, sosializm realizmi, müqavimət hərəkatı, müharibə romanı, cəsarətli yazıçı, repressiya həqiqətləri*

Süleyman Vəliyev (1916-1996) XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Romanlar, povestlər, hekayələr müəllifidir. Sovet dönəmində yaşamış, dövrün ağrı-acılarını da, ziddiyyətlərini də görmüş, yaradıcılığında əks etdirmişdir. II Dünya müharibəsinin iştirakçısı olmuş, əsirlik çəkmiş, alman düşərgəsindən qaçaraq faşizmə qarşı müqavimət hərəkatında vuruşmuş və ədəbiyyatımızda bu hərəkatı əks etdirən ilk romanın (“Mübahisəli şəhər”) müəllifi olmuşdur. Müharibədən sonra ədalətsiz olaraq repressiyaya məruz qalmış, Sibirə sürgün olunmuş, mənəvi əzab və yaşantılarını hekayələrində, “Düyünlər” romanında qələmə almışdır. S.Vəliyev Azərbaycan ədəbiyyatında repressiya həqiqətlərindən söz açan ilk memuar əsərinin (“Qanadı qırıq quş da uçarmış”) müəllifidir. Ümumən yazıçının yaradıcılığı sovet dövründə Azərbaycan xalqının həyatının bütün mərhələlərini ümumiləşmiş şəkildə əks etdirir.

Süleyman Vəliyev 1916-cı il dekabrın 21-də Bakının Ramana kəndində dünyaya gəlmişdir. Neft Bakısının inkişaf etdiyi ərazilərdən olan Ramanada, fəhlə ailəsində böyüyən Süleyman Vəliyevin atası Məşədi Vəli kənddə köklü maşılılar nəslindən sayılıb, sovet dövrünə qədər imkanlılar sırasına aid olmuşdur. Ramanada səkkiz illik məktəbi yüksək qiymətlərlə bitirən Süleyman dövrün qabaqcıl məktəblərindən sayılan “Qulam şqolası”nda təhsilini tamamlaya bilmişdir. Uşaqlıqdan yazıb-oxumağa, xəyalpərəstliyə meyilli gələcək yazıçının ədəbi yaradıcılığa həvəsi də bu zaman yaranmışdır. Oxuduğu məktəbdə bu baxımdan biliklərə yiyələnmək üçün tam şərait var idi. Üstəlik, neft mərkəzi olan Sabunçu rayonunda ədəbiyyat, dram və musiqi dərnəkləri fəaliyyət göstərirdi. Bütün bunlar barəsində S.Vəliyev sonralar həmin məktəbin müdiri haqqında qələmə aldığı «Qulam müəllim» oçerkində bəhs açmışdır.

“Neft Bakısı”nın uşaqlıq xatirələri dolayısı ilə Süleyman Vəliyevin “Şor cüllütü” (1939) povestində də əksini tapmışdır. Povestdə XX əsrin əvvəlləri neft Bakısının səciyyəvi obrazını görə bilirik. Mədən sahibi Musanın surətində ağa sinfinin firavan həyatı, zəngin məişəti, psixologiyası və əxlaqı təsvir olunursa, mədən fəhləsi Qulunun timsalında kasıb təbəqənin ağır həyatı, yarı-ac, yarı-tox yaşayışı, həyat uğrunda mübarizəsi qələmə alınmışdır. Milli cəmiyyətin gerçək mənzərələrini təqdim edən əsər həm də onunla maraqlıdır ki, belə bir şəraitdə dünyaya göz açan, yaşayan, böyüyən uşaqların, gənc nəslin obrazını təcəssüm etdirir. Yaşayış uğrunda mübarizədə Şor gölün üstünü basmış neft təbəqəsini yığıb ucuz qiymətə alverçilərə verən, neftə bulaşıb qalmış şor cüllütlərini ovlayan, əhəng yığıb bayram günlərində divarları ağartmaq üçün kənd qadınlarına satan İbiş, Cəbi və s. kimi zəhmətkeş balalarının fədakar insan surətləri povestdə harın, zəhmətsiz böyüdüyü kimi, yekəxanalığa, qorxaqlığa, satqınlığa, namərdliyə malik Fərrux kimi ağa balasına qarşı qoyulur. “İbiş yerinin içində qovrulurdu. O, buna dözə bilərmi? Fərrux kimi azğın bir uşaq onun atasını təhqir etsin! İbişin qeyrəti buna yol verərmi? O mütləq atasının intiqamını almalı idi...” [1, 17]. Həyat uğrunda mübarizədə həlak olmuş İbişin taleyi yazıçının uşaqlıq dünyasından qoparıb yüksək dərəcədə ümumiləşdirdiyi süjetdə əbədiləşmişdir.

Süleyman Vəliyev ədəbiyyata birbaşa həyatdan gəlirdi. Onun yaradıcılığında dil açıb-danışan canlı həyat epizodları, süjetləri idi. İlk hekayəsi «Əmanət kassası» 1932-ci ildə «Hücum» jurnalında çap olunan S.Vəliyev dövrün ədəbi prosesinə istedadlı gənc yazıçı kimi qədəm qoymuş, “fəhlə

kadrı" kimi rahat qəbul olunmuşdur. 1937-ci ildə hərbi qulluğa çağırılana qədər məhz istedadlı qələm sahibi kimi Lökbatanda çıxan az tirajlı «Neft uğrunda» qəzetində, bir müddət «Azərbaycan gəncləri», «Kommunist» qəzetlərində müxbir olmuş, «İnqilab və mədəniyyət» jurnalında ədəbi işçi kimi fəaliyyətə başlamışdır [2, 447]. 21 yaşında ikən, 1937-ci ildə qələmə aldığı, inqilabi fəhlə hərəkatından bəhs edən «Bığlı ağa» povesti «Azərnəşr»də ayrıca kitab şəklində çıxdıqdan sonra imzası ədəbi mühitdə parlamış, Süleyman Vəliyev birdəfəlik olaraq taleyini ədəbiyyata bağlamışdır.

Süleyman Vəliyev üçün fəhlə mövzusu və inqilabi hərəkat kənardan gəlmə bir hadisə deyildi. Neft mərkəzi olan Sabunçu mədənlərində baş verən yaxın tarixin hadisələri xatirələrdə hələ diri idi. "Bığlı ağa" povesti prototipləri yazıçıya yaxşı tanış olan canlı obrazlar, həyat hadisələri üzərində qurulmuşdu. Mədən sahibinin rus sahibkar Şaparinski olması, fəhlələrin tərkibinin beynəlmiləl olması, Pavel və qızı Ninanın Samaradan olub Sibirdə sürgün həyatı sürməsi, Sibirdə sürgündə olan Mustafanın Bakıda onları tanıması, Bığlı ağanın – Abbas Əlicanın Cənubi Azərbaycandan gəlib neft mədənlərində işləməsi və s. ümumiləşdirilmiş olsa da, real həyat motivlərinə əsaslanırdı. Hətta əsərdə epizodik olaraq obrazı yaradılmış bolşevik-inqilabçı, sonradan sovet hakimiyyətinin Azərbaycanda rəhbər nümayəndələrindən olan Həmid Sultanovun Ramana neft mədənlərində işlərkən, Süleyman Vəliyev gilin həyatində kirayədə qaldığı da bəllidir. Əsərin sonrakı nəşrində yazıçı həmçinin daha sonralar, əllinci illərdə Sibirdə sürgündə olarkən yaşadığı hadisə və faktlardan da bəhrələnmişdir. Bütün bunlar əsərə canlı nəfəs gətirmiş, inqilabi hadisələrin təsvirini verərkən sosializm realizminin sxematik qəliblərindən çıxmağa imkan vermişdir. Povestdə təsvir olunan fəhlə hərəkatı bir tərəfdən bolşeviklərin irəli sürdüyü quru inqilab şüar və tələblərini əks etdirirsə, digər tərəfdən insanlar arasındakı gərgin psixoloji münasibətlərə, mərdlik və ikiüzlülük, xeyirxahlıq və xəbislik, məkr-hiylə və sevgi-ülfət kimi mənəvi qarşılaşmalara nüfuz edir.

Süleyman Vəliyevin sovet dönəmində uğurla başlayan həyat və yazıçılıq bioqrafiyası çox keçmir ki, keşməkeşlərlə üzləşir. Əslində, həyatının hər mərhələsində örnək olası insan xarakteri yaşayan və bunun bədii obrazını yaradan ədibi zaman özü sınağa çəkir, stalinizm epoxasının və qatı sovet ideologiyasının amansız zərbələrinə məruz qoyur. 1937-1939-cu illərdə Ukraynada hərbi xidmətdə olan Süleyman Vəliyev Böyük Vətən müharibəsi başlayan kimi, 1941-ci il iyun ayının 23-də hərbi komissarlığa ərizə ilə müraciət edib cəbhəyə gedir. Səməd Vurğunun arxada qalmaq və vətənpərvərlik təbliğatı ilə məşğul olmaq tövsiyəsini gənc ədib qəbul etmir. 1941-ci il iyunun 29-da «Ədəbiyyat qəzeti»ndə yazıçıların xalqa ünvanlanmış «Qəhrəman ordu sıralarına» adlı müraciətinin altında görkəmli yazıçılarla yanaşı, gənc Süleyman Vəliyevin də imzası var idi.

S.Vəliyev azərbaycanlıların məşhur 416-cı milli diviziyasının tərkibində Şimali Qafqazda, daha sonra Kerç yarımadasında vuruşur, 1942-ci ilin may ayının 8-də kontuziya olub Krım yaxınlığında əsir düşür. Bu zaman o, 416-cı Azərbaycan diviziyasının «Azərbaycan döyüşçüsü» adlı qəzetində hərbi müxbir kimi fəaliyyət göstərmişdir. Yüz minlərlə əsir kimi düşərgədən düşərgəyə düşən yazıçı Almaniyanın dərinliklərinə doğru aparılır. 1944-cü ilin yazında S.Vəliyev müttəfiqlərin ağır bombardmanı zamanı düşərgədən qaçıb Triyest vilayətinin dağlarında bina salmış partizan dəstələrinə qoşulmuş, burada Sila adı ilə cəsur döyüşçü və qisasçı kimi qəhrəmanlıqlar göstərmişdir. Sovet İttifaqı qəhrəmanları Mehdi Hüseynzadənin, Mirdaməd Seyidovun keçdiyi müqavimət hərəkatını əli qələmli Süleyman Vəliyev də keçir. Yazıçının "Kerç səhəri" povestində, bir çox hekayələrində ("Mənə "sən" de", "Çörək", "Zorən qoca", "Qurtuluş", "Həyatın dadı", "Gözlənilməyən məktub" və s.) döyüş cəbhələrində yaşanan müharibə həqiqətləri real boyalarda əksini tapmışdır.

Bununla belə, yazıçının müharibə mövzusunda ən böyük uğuru "Mübahisəli şəhər" romanı hesab olunur. Bu, qeyd olunduğu kimi, Azərbaycan ədəbiyyatında II Dünya müharibəsində müqavimət hərəkatını işıqlandıran ilk romandır. 1946-1947-ci illərdə yazılıb, yalnız 1957-ci ildə çap oluna bilən əsərin taleyi də müəllifinin bioqrafiyası kimi keşməkeşlidir. Roman hadisələrin birbaşa izi ilə, prototipi yazıçının özü olmaqla Aslanın gizli partizan fəaliyyətini, əsirlikdən necə qurtulmasını, Yuqoslaviyada Triqlava dağlarında, Triyest şəhərində şücaətlərini, rus, sloven, azərbaycanlı və s. millətlərdən olmaqla faşizmə qarşı xalqların birgə mübarizəsini olmuş əhvalatlar,

maraqlı bədii intriqalar, təsvirlər vasitəsilə oxucuya çatdırır. Milli vətənpərvər Aslanın obrazı ilə yanaşı, romanda Sila, Zora, Anita, Pavlo, Rade, Avqust, Çuq və b. rəngarəng obrazlar yaradılmışdır.

Triyestin əhalisinin doğma şəhərləri uğrunda savaşda barışmazlığı başqa millətlərdən olanların, o cümlədən azərbaycanlıların da bu qərib şəhərin azadlığı yolunda mübarizəsini gücləndirir, insanlar eyni məqsəd yolunda birləşirlər. "Ancaq yadellilərin mürtəce qəsbkarları əsrlər boyu nə qədər səy etmişlərsə, azadlıqsevən xalqların qəlbini özlərinə əsir edə bilməmişlər. Heç bir qüvvə, heç bir təzyiq triyestlilərin iradəsini qıra bilməmişdi. 1943-cü ildə faşist Almaniyası Triyesti işğal etdi. Xalqın qəzəb və nifrətinin həddi yox idi. Çox çəkmədi ki, gizli partizan diviziyası təşkil olundu... Şəhər son dərəcə sirli və müəmmalı idi. Triyestdə potensial bir qüvvə hökm sürürdü. Burada indi hər bir partizan, daha doğrusu, diviziyanın hər bir döyüşçüsü öz işini bilirdi. Onlara Pavlo Madzini rəhbərlik edirdi... " [3, 47-48]

Əfsanəvi Mixaylodan bəhs açan Həsən Seyidbəyli və İmran Qasımovun "Uzaq sahillərdə" əsərindən daha əvvəl yazılmış, "hərbi-vətənpərvərlik ədəbiyyatının incisi" sayılan "Mübahisəli şəhər"in ilk dəfə 1957-58-ci illərdə "Azərbaycan" jurnalında çap olunması yazıçının müharibədən sonra repressiyaya uğraması ilə bağlı idi. Əsər 1948-ci ildə tamamlanmış, hətta "Bakinski raboçi" qəzetinin 1948-ci il 8 fevral tarixli sayında Xalq şairi Süleyman Rüstəm bir məqaləsində digər əsərlər sırasında "Mübahisəli şəhər" romanının da adını çəkmişdir. S.Vəliyev bir müsahibəsində xəbər verir ki: "Bu əsər haqqında Ə.Əbülhəsən, Ə.Hidayət kimi yazıçı və tənqidçilər də müsbət rəy söyləmişdilər. Romandan bir parça qəzetdə çap olunmuşdur, - deyə o kitab rəfindən həmin rəyləri və qəzeti çıxarıb mənə göstərir" [4, 7]. Lakin çap olunduqdan sonra da roman uğursuzluq zolağına tuş gəlir. Yuqoslaviya-Sovet əlaqələrində soyuqluq yarandığına görə kitab şəklində çapına icazə verilmir. Yalnız 1961-ci ildə roman Moskvada rus dilində çıxdıqdan sonra 1962-ci ildə Azərnəşr tərəfindən kitab şəklində işıq üzü görür. Elə həmin ildə "Moskvada çap olunan "Məlumat bürosunda deyilməyənlər haqqında" adlı kitabda (Dövlət Siyasi Ədəbiyyat Nəşriyyatı) S.Vəliyevin də adı faşizmə müqavimət hərəkatı iştirakçıları sırasında çəkilmişdir" [5, 523].

1944-cü ilin iyul ayında Triyest şəhəri Amerika-ingilis müttəfiq qoşunları tərəfindən azad edildikdən sonra yazıçının yolu alman əsirliyində olmuş digərləri ilə birgə Avstriya, Fransa, Yuqoslaviya, Misir, İraq və İran ərazisindən vətənə doğru keçir. Müqavimət Hərəkatında iştirak etmiş əsirlərin özlərinin təşkil etdiyi bölmədə S.Vəliyev Alay qərargahının rəisi seçilmişdi. ABŞ kəşfiyyat orqanlarının vətənə dönən əsirlərin Sibirə göndəriləcəkləri barədə təbliğatlarına baxmayaraq, S.Vəliyev heç nədən çəkinmədən vətənə qayıdır. Amma, həqiqətən də, növbəti sınaqlarla üzləşir. 1944-cü il dekabrın 30-da gələn keçmiş əsirləri Bakıda dustaq kimi qarşılayırlar. Saysız-hesabsız yoxlamalardan sonra, 1945-ci il yanvarın 1-də Moskva yaxınlığındakı Podolsk şəhərindəki düşərgəyə salınan yazıçı ona qarşı yürüdülən bütün böhtanlardan təmiz çıxır, yenidən cəbhəyə, 29 saylı hücum batalyonuna təyin olunduqdan bir neçə gün sonra alman faşizmi üzərində qələbə xəbəri gəlir.

Bununla belə, Stalin rejimi keçmiş əsirlərə normal hüquqlu vətəndaş kimi baxmır, onların «cərimə» batalyonunu Çelyabinsk şəhərindəki Kirov adına sink zavodunda işləməyə yollayır. Burada «onbaşı» təyin olunan Süleyman Vəliyev əqidəli vətəndaş olduğunu sübut edir, hətta şəklini şərəf lövhəsinə vururlarsa da, azad olunmur. Qəlbi Vətənə qayıtmaq həsrəti ilə çırpınan yazıçı RSFSR Yazıçılar İttifaqı Çelyabinsk vilayət şöbəsinin rəhbəri Lyudmila Tatyaniçevaya müraciət edir. Bakıdan şair Əhməd Cəmilin imzası ilə S.Vəliyevin, həqiqətən də, Yazıçılar İttifaqının üzvü olmasını təsdiqləyən, hətta yaradıcılığı barədə də məlumat verən müsbət arayış gəlib çıxdıqdan sonra L.Tatyaniçeva Süleyman Vəliyevin zavoddan işdən azad edilməsinə və vətənə qayıtmasına nail ola bilir.

Həyatının həmin çətin dövrləri haqqında yazıçı ilk dəfə bütün açıqlığı ilə yalnız "Qanadı qırıq quş da uçarmış" (1989) bədii memuar-əsərində bəhs aça bilmişdir. Bununla belə, mülayimləşmə dövründə S.Vəliyev "Ərəb hekayələri" səpkisində Şərq ölkələrində gördüyü hadisə və süjetlərdən bəhs edən bir sıra hekayələr ("Əncir ağacı", "Neysan yağışı", "Nil suyu", "Bir salxım üzüm", "Dağılmış yurd" və s.) qələmə almışdır. "Əncir ağacı" kitabında (1959) dərc olunan həmin əsərlərlə

yanaşı, kitabda yazıçının "İtaliya- Misir" xatirə oçerki də dərc olunmuşdur. "Yazıçı Böyük Vətən müharibəsində şahidi olduğu hadisələrin xarakterik cəhətlərini seçməyi bacarmış və onu lakonik surətdə qələmə almışdır. Biz burda müharibə tufanı nəticəsində uzaq ölkələrə - İtaliyaya, Afrikaya gedib düşmüş sovet adamlarının taleyi və onların vətənpərvərliyi və qəhrəmanlığı ilə tanış oluruq. Xatirə oxucuların böyük rəğbətini qazanmış və "Literaturnaya qazeta" xatirə haqqında "Oxuyun maraqlıdır" başlığı altında "Mübarizə yolu" adlı məqalə çap etmişdir" (5, s. 255)

Lakin daha böyük "tufanlar" Süleyman Vəliyevi vətəndə gözləyirmiş. Bu barədə də oxucular sonralar "Qanadı qırıq quş da uçarmış" əsərində xəbər tutacaqdılar. "Süleyman 1946-cı ilin 10 oktyabrında Çelyabinskdən Bakıya qatara bilet alır. Lakin yemək pulu olmadığından o, Moskvada biletini satıb çörək almalı olur. Bakıya isə qatarların tamburunda gecələr biletsiz qayıdır. Beş günə Bakıya çatan Süleyman, Ramanaya – evlərinə gedir. Həmin gün öyrənir ki, 1943-cü ildə atası və anası aclıqdan vəfat ediblər. Kənddəki evlərində başqa adamlar yaşayır".

Böyük şair Səməd Vurğunun bilavasitə müdaxiləsi ilə S.Vəliyevə Bakıda mərkəzdə Tolstoy küçəsində ev verilir. «İnqilab və mədəniyyət» jurnalında ədəbi işçi düzəlir. Lakin 1948-ci ildə başlanan növbəti repressiya dalğası keçmiş hərbi əsirlərdən də yan ötmür. S.Vəliyevi də istintaqa cəlb edir və jurnaldakı işindən çıxarırlar. Məxfi siyasi orqanlar ona əməkdaşlıq və Səməd Vurğunun «millətçiliyi»nə qarşı gizli işləmək təklif edirlər. Xarakter etibarilə mərd və əqidəli insan olan Süleyman Vəliyev belə bir alçaldıcı əməkdaşlıqdan imtina edir. Səməd Vurğun daim onun xeyirxahı olmuş, əsgərlikdə və müharibədə olanda ədəbiyyat fondu ata-anasına yardım etmiş, ata-anası vəfat edəndən sonra Süleymanın kiçik qardaşı Murtuzu Suvorovçular məktəbinə də Səməd Vurğun düzəltmişdi. Məhz taleyin istehzasıdır ki, 1949-cu ilin yayında Sibirin Lena çayı sahillərindəki qızıl mədənlərinin paytaxtı olan Bodaybo şəhərinə sürgün edilən yazıçı Sibir soyuğunda özünü mənəvi cəhətdən Bakıdan da yaxşı hiss etmişdir. Gizli sorğu-suallardan, mənəvi alçaldılmalardan qurtulan S.Vəliyev taleyin onun üçün hazırladığı imtahanlardan mərd-mərdanə çıxırdı. Bu sırada ailəsi də ona dayaq idi. Həbs olunan il yenicə ailə həyatı qurmuş ədibin həyat yoldaşı Asya bir neçə ay sonra yanına gəlir. 1950-ci ildə oğlu Seyran, 1953-cü ildə isə qızı Leyla dünyaya göz açır.

Zamanın ziddiyyətlərindən, eniş və yoxuşlarından keçən həyat yolunda ədəbiyyat həmişə Süleyman Vəliyev üçün bir talisman rolunu oynamışdır. Hələ 1939-cu ildə Qərbi Ukraynada hərbi xidmətdə ikən cavan yazıçı bura görüşə gəlmiş görkəmli rus yazıçısı Aleksey Tolstoyla Lvov Yazıçılar İttifaqında elə əsgər geyimində tanış olmuşdu. N.Ostrovskinin ev muzeyinə baş çəkən S.Vəliyev həmçinin Ukrayna yazıçıları Oleksa Desnyak, Paiç Petro, Vanda Vasilevskaya ilə də tanış ola bilmişdi. Yazıçının hərbi xidmətdən qayıtdığı 1940-cı ilin oktyabrında isə o, xalq şairi S.Vurğunun köməyi ilə Azərbaycan Yazıçılar İttifaqının Hərbi vətənpərvərlik şöbəsinin müdiri təyin olunmuşdu. Müharibədən sonra Çelyabinskdə sink zavodundan qurtulub, vətənə dönməsində də yazıçı L.Tatyaniçeva köməyinə çatmışdı. Sibirdə də xeyirxah adamlar az deyildi, onlara minnətdar olaraq yazıçı qələmini dincə qoymurdu. 1953-cü ildə İ.Stalinin ölümündən sonra ölkənin həbs və sürgün düşərgələrində nahaq yerə cəza çəkən milyonlarla insanlar sırasında azad nəfəs alıb Vətənə tələsənlərdən biri də Süleyman Vəliyev idi.

Bu zaman Sovet yazıçıları İttifaqının İrkutsk bölməsinə, sonradan SSRİ Yazıçılar İttifaqının uzun müddət (1977-1989) sədri olmuş Georgi Markov rəhbərlik edirdi. S.Vəliyevlə G.Markov arasında ömürlərinin sonunacan davam edən dostluq münasibətləri yaranır. Az müddət İrkutskda çalışıb, oçerklər yazan S.Vəliyev Yazıçılar İttifaqının İrkutsk bölməsinin yardımı ilə 1955-ci ildə ailəsi ilə birgə Bakıya qayıdır. Yazıçıya dərhal mərkəzdə, Nizami küçəsində mənzil verilsə də, fəaliyyəti müəyyən müəmma altında qalırdı. Çünki Süleyman Vəliyev rəsmən repressə olunmuşlar siyahısında yox idi, "reabilitə olunma"sına da ehtiyac yox idi. Qismən Mircəfər Bağırovun məhkəməsində adının S.Vurğuna qarşı ittihamlardan imtina etməsində çəkilməsinə görə 1956-cı ildən yazıçıya yaradıcılıq sərbəstliyi və tam fəaliyyətə icazə verilir.

Süleyman Vəliyev sovet dövrünün yazıçısı olsa da, zəmanəsinin ideologiyasını bölüşsə də, Vətəninə sadiq, doğma Azərbaycan torpağına dərindən bağlı sənətkardır. Azərbaycan həyatının

dirçəlişi, quruculuq missiyası, ümumxalq sevincləri yaradıcılığına ilham verdiyi kimi, Vətənin üzərindən əsən qara yellərə, tarixin qara səhifələrinə də heç zaman biganə olmamışdır. Süleyman Vəliyev cəsarətli yazıçı idi, xalq mövqeyindən günün həqiqətlərini yazmaqdan, təsvir etməkdən çəkinmirdi. Sürgündə üzləşdiyi gerçəkləri o hələ sovet ideologiyasının kəskin dövründə ayrı-ayrı əsərlərinə hopdurmağı bacarmışdır. “Şəlalə” hekayəsində Bodaybonun qılınc kimi kəsən şaxtalı günlərini, insanlar arasındakı mənəvi çarpışmaların təsvirini yazıçı inqilabdan əvvəlki dövrə keçirməklə təqdim edir. 1957-ci ildə işləyib “Səadət yollarında” adı ilə yenidən çap etdirdiyi “Bığlı ağa” povestində yazıçı Sibir həqiqətlərindən də danışır və bu zaman şəxsən yaşadığı həyat materiallarına əsaslanır.

1966-cı ildə Süleyman Vəliyevin “Düyünlər” romanı çap olunur. Roman Azərbaycan ədəbiyyatında repressiya olunmuşların taleyindən söz açan iri həcmli ilk əsərlərdən biri idi. Əsərin qəhrəmanı Vasifin sürgündən qayıtması ilə başlayan roman ölkədə baş verən gerçəklərin üzünə cəsarətlə baxır. Repressiya faktoru ilə birgə, yazıçını da, onun baş qəhrəmanını da ilk növbədə cəmiyyətin, insanların bu hadisəyə münasibəti, insanlar arasında yaşanan gərgin psixoloji münasibətlər düşündürür. “Balaxan, sən tayqada ağac qırmamısan, ağcaqanadlarla əlbəyaxa olmamısan, altmış dərəcə şaxtanı görməmisən. Allaha şükür et. Mən bunu demək istəyirəm... İnsanın böyüklüyü onun rütbəsində yox, qəlbinin böyüklüyündədir. Bəzən heç bir vəzifəsi olmayan bir adam sənə elə yaxşılıq edir ki, ömrün boyu kifayətdir, onu heç zaman unuda bilmirsən. Deyirsən uşaqlarıma da, nəvəmə də bu barədə bildirməliyəm. Bütün nəslim bundan xəbərdar olmalıdır... Onlar kim olduğumu soruşmadılar, vəzifəmi də... ” (6, s. 284) Əqidəli insan olan Vasif yalan və saxtakarlıq üzərində həyatını qurmuş nakəslərlə axıracan barışmır, həyatını sıfırdan başlamaqla və yenidən ucalmaqla insanlıq şərəfinin hər şeydən üstün olmasını sübuta yetirir. Roman bütün çətinliklərə baxmayaraq, oxucuları sağlam həyata, mənəvi ucalığa səsləyən əsərlərdən idi.

“Əvvəllər “Mübahisəli şəhər” romanına yüksək qiymət verən akademik Məmməd Arif sonralar yazmışdı: “Düyünlər” romanı maraqlı əsərdir. Onun baş qəhrəmanı gənc neftçi Vasifdir. Vasif ən dərin qazma quyuları sahəsində təcrübə aparır. Bu çətin iş həm böyük ixtisasa malik olmaq, həm də istedad tələb edir. Vasifin əleyhdarı isə o şəxslərdəndir ki, o, yeni fikirdən ya şəxsi mənafe üçün istifadə edər, ya da işi pozar. Beləliklə, əsərdə istehsalat konflikti mənəvi və ictimai əhəmiyyət kəsb edir” (4, s. 9)

Bununla belə, Süleyman Vəliyev onu ağrıdan əsl repressiya həqiqətlərini daha sonralar, artıq xatırlatdığımız kimi, 1980-ci illərdə qələmə aldığı «Qanadı qırıq quş da uçarmış» roman-memuarında etiraf və təsvir etdi. Yazıçının Sibir sürgünündə yaşadığı amansız gerçəklər, acı faciələr romanda böyük ustalıqla, sənədli dəqiqliklə əksini tapmışdır. Bu əsər həyat faktları və fakta yanaşma etibarilə ədəbiyyatımızda tamamən təzə olub, tarixi həqiqətlərin bədii formada bərpasına xidmət edirdi. Yazıçının şəxsən yaşayıb qələmə aldıqları uydurma və bəzəkli müharibə ədəbiyyatı şablonlarını təkzib edirdi. Repressiya mövzusunda həqiqəti söyləyən bu xətt ədəbiyyatımızda yalnız 1990-cı illərdə, müstəqillik dövründə davam tapa bildi. O da təsadüfi deyil ki, Süleyman Vəliyev 1994-cü ildən Azərbaycanın Günahsız Siyasi Qurbanlar Assosiasiyasının rəyasət heyətinin üzvü seçilir, rəsmən reabilitə olunur. Böyük bir dövr – sovet dönəmində Azərbaycan həqiqətlərinin nəsrdə ifadəçisi kimi əsərləri ədəbiyyatımızda layiqli yerini tutur.

Süleyman Vəliyev 1996-cı il martın 7-də Bakıda vəfat etmiş, xalqımızın iftixar mənbəyi olan insanların əbədiyyət tapdığı Fəxri Xiyabanda dəfn olunmuşdur.

Süleyman Vəliyevin zəngin yaradıcılığı sağlığında geniş oxucu marağına səbəb olmuşdur. “Şor cüllütü”, “Bığlı ağa”, “Mübahisəli şəhər”, “Düyünlər” povest və romanları dəfələrlə Azərbaycan və rus dillərində çap olunmuş, əsərləri dünya dillərinə tərcümə edilmişdir. “Şor cüllütü” povesti əsasında “Qara gölün cəngavərləri” adlı film (1984) çəkilmişdir. Filmin ssenarisini S.Vəliyev özü yazmışdır. 1983-cü ildə “Yazıçı” nəşriyyatı S.Vəliyevin 2 cilddən ibarət “Seçilmiş əsərləri”ni çap etmişdir. Nəşrə yazıçının iki romanı (“Mübahisəli şəhər”, “Düyünlər”), beş povesti (“Şor cüllütü”, “Bığlı ağa”, “Kerç səhəri”, “İşıqlıq”, “Türk qızı”) və 23 hekayəsi daxil edilmişdir. “Daşlı bulaq” (1983), «Qanadı qırıq quş da uçarmış» və bir çox sənədli hekayələri (1987) yazıçının

yaradıcılığının son dövrünü əhatə etməklə tarixi həqiqətlərin yenidən və yeni rakursdan işıqlandırılmasında mühüm önəm daşıyır.

Süleyman Vəliyevin yazıçı əməyi daim dəyərləndirilmiş, Azərbaycan Rəyasət heyətinin fəxri fərmanı (1967-1986), "Xalqlar dostluğu" ordeni (1984) və medallarla təltif olunmuş, ədib Azərbaycan SSR əməkdar mədəniyyət işçisi (1977), Azərbaycan SSR əməkdar incəsənət xadimi (1987), Əmək veteranı (1976), müharibə veteranı (1981) fəxri adlarını qürurla daşımışdır. Ömrü uzunu dövrün, zamanın qarşısına çıxardığı çətinliklərlə üzləşən yazıçı bu təltifləri fədakar xalqının yaradıcılığına verdiyi qiymət kimi qəbul etmiş, eyni zamanda xalqının həqiqətlərini fədakarcasına qələmə almışdır. Süleyman Vəliyevi oxucularına bu gün də sevdirən onun həqiqət dolu əsərləridir.

## ƏDƏBİYYAT

1. Süleyman Vəliyev, Seçilmiş əsərləri. İki cilddə. İkinci cild. Bakı: Yazıçı, 1983, 436 s.
2. Azərbaycan yazıçıları. Ensiklopedik məlumat kitabı. Azərbaycan Ensiklopediyası. Bakı: Öndər, 1995, 639 s.
3. Süleyman Vəliyev. Mübahisəli şəhər. Bakı: Azərnəşr, 1962, 259 s.
4. Famil Mehdi, Sənətkarın qüdrəti // Süleyman Vəliyev. Seçilmiş əsərləri. İki cilddə. Birinci cild, Bakı: Yazıçı, 1983, s.5-10.
5. Əli Səbri, Süleyman Vəliyev haqqında // Süleyman Vəliyev. Mübahisəli şəhər. Bakı: Azərnəşr, 1962, s.252-258.
6. Süleyman Vəliyev, Seçilmiş əsərləri. İki cilddə. Birinci cild. Bakı: Yazıçı, 1983, 518 s.

## РЕЗЮМЕ
## РЕАЛИИ XX ВЕКА В ПРОИЗВЕДЕНИЯХ СУЛЕЙМАНА ВЕЛИЕВА

***Ширинов Ф.И.***

***Ключевые слова:*** *нефтяной Баку, тема рабочих, социалистический реализм, движение сопротивления, военный роман, смелый писатель, правда о репрессиях.*

В статье говорится о нелегкой жизни и разностороннем творчестве выдающегося представителя азербайджанской литературы XX века Сулеймана Велиева (1916-1996). Романы, повести, рассказы и мемуары, автором которых является Сулейман Велиев, в полной мере отражают азербайджанское общество XX века и советского периода, этапы исторического пути, пройденного его представителями, важные события и явления.

## SUMMARY
## THE REALITIES OF THE XX CENTURY IN THE WORKS OF SULEYMAN VELIYEV

***Shirinov F.I.***

***Keywords****: Baku oil, working theme, socialist realism, the resistance movement, war novel, a bold writer, the truth about the persecution.*

The article deals with the rich creative and complex life of Suleyman Veliyev who is the great representative of Azerbaijan literature in the XX century. Suleyman Veliyev was an author of the novels, narratives, tales and memoirs literature. His poems widely reflicts colorful conditions of life and the historical stages passed by national human and Azerbaijan society during XX century and Soviet Union.

Daxil olma tarixi: İlkin variant 28.12.2016
Son variant 16.03.2017

**UOT 82.0:894.362**

# ŞAMİL SALMANOVUN ƏDƏBİ-NƏZƏRİ GÖRÜŞLƏRİNDƏ ƏNƏNƏ VƏ NOVATORLUQ

**ZEYNALOVA RƏQSANƏ HİDAYƏT qızı**
*Sumqayıt Dövlət Universiteti, dissertant*
*e-mayl: rqsan@mail.ru*

***Açar sözlər:*** *novatorluq, sərbəst şeir, bədii yaradıcılıq, ədəbi tənqid, sosialist realizmi*

Şamil Salmanovun ədəbiyyatda ənənə və novatorluqla bağlı tədqiqatlarının bir hissəsi XX əsrin 20-30-cu illərini əhatə edir. Bu dövrün ədəbi prosesinin diqqətdə saxlamaq zəruri və sovet ədəbiyyatının metodoloji mövqeyini müəyyənləşdirmək baxımından maraqlıdır. Cəmiyyətin yeni siyasi-ideoloji əsaslar üzərində qurulması ədəbiyyat və incəsənətin də qarşısına mühüm vəzifələr çıxarmışdı. Söz sənəti ictimai gerçəkliyin reallıqlarını əks etdirmək prosesinə qoşulmuşdu. Marksist estetikanın formalaşması ənənə və novatorluğa yeni, fərqli münasibətin ortaya çıxması ilə müşayiət olunurdu: Bir sözlə, 20-ci illərdə yeni cəmiyyətin sürətli təşəkkül prosesi gedir, sosialist şüarları xalq gerçəkliyinə ən dərin və güclü bir şəkildə nüfuz edirdi. Bütün bunlar öz növbəsində cəmiyyətin yeni bədii görüşlərinin, yeni estetik idealının formalaşmasına da əhəmiyyətli təsir göstərmiş olurdu. Həyatın yenilik hərəkatı bədii yaradıcılıqda ənənə və novatorluq məsələsinin aktual bir yaradıcılıq məsələsi olaraq meydana çıxması üçün əsas yaradırdı.

Qeyd etmək lazımdır ki, bədii yaradıcılıqdakı yenilik və müasirlik düşüncəsi ilk öncə ədəbi tənqiddə dərk olunur, ədəbi-nəzəri fikir yeni yaranan əsərlərdə ədəbi ənənənin davamını müəyyənləşdirməklə yanaşı, fəlsəfi ümumiləşdirmələrlə ənənə və novatorluğun fəlsəfəsini aşkara çıxarırdı.

Məlumdur ki, 20-ci illərdə Azərbaycanda gedən ənənə və novatorluq mübahisələrində Türkiyədən gələn və Azərbaycanın müxtəlif təhsil ocaqlarında, mətbuat orqanlarında fəaliyyət göstərən yazıçı və alimlər yaxından iştirak edirdi. Yeni əsrin ilk onilliklərində onların ədəbi mühitə təsirini xüsusi qeyd etmək lazımdır. Səbribəyzadə Xalid Xürrəm, Xəlil Fikrət, İsmayıl Hikmət, Məhəmmədəli Eyni, Bəkir Çobanzadə və başqalarının ədəbiyyat və sənət görüşləri marksist estetikasının prinsipləri ilə üst-üstə düşmürdü. Şamil Salmanov həmin ədəbi şəxsiyyətlərin 20-ci illər ədəbi prosesindəki iştirakını müsbət hal kimi qiymətləndirirdi. Lakin İ.Hikmətin Füzuli sənətinə münasibətində Ş.Salmanovun mövqeyini bir qədər mübahisəli hesab edirik. İ.Hikmət yazırdı: “Füzulinin bütün nəşidləri, qəlbi bir fəryaddır...” Füzuli eşqin hər növünü dadmış, hər növündən zövqünü almış aşıqdır” [1, s. 45].

Şübhəsiz ki, bu fikirdə heç bir ziddiyyətli, aydın olmayan cəhət yoxdur. Lakin Şamil Salmanov İsmayıl Hikmətin mövqeyi ilə razılaşmır, onun mülahizələrini subyektiv mənbənin inikası kimi qiymətləndirir, burada poeziyanın idraki-estetik təsirini zövqlə məhdudlaşdırır, Füzuli lirikasında ictimai-fəlsəfi məzmunun, onun zəmanəyə münasibətinin kölgədə qaldığı iddia olunur. Əslində, İsmayıl Hikmət bütün bunların heç birini inkar etmir, sadəcə olaraq, şairin yaradıcılığında ilahi eşqin istiqamətini müəyyənləşdirirdi.

Şamil Salmanov onun fikirlərinə marksist sənət mövqeyindən yanaşdığına görə əslində özü subyektiv mülahizələr ifadə edir ki, müasir ədəbiyyatşünaslıq mövqeyindən onun fikirlərini təsdiq etmək çətindir. O, fikirlərini belə yekunlaşdırır: “İsmayıl Hikmətin, Füzuli haqqındakı fikirləri elə bir dövrdə meydana çıxmışdı ki, bu zaman yeni Azərbaycan şeiri, onun ideya-estetik prinsipləri yeni meydana çıxırdı. Belə bir mərhələdə bədii irsi, xüsusilə, Füzuli kimi qüdrətli bir sənətkarın

yaradıcılığını şərh edərkən müasirlik mövqeyindən çıxış etməyən sənətkarın həqiqi böyüklüyünü şərtləndirən səbəbləri araşdırmağın prinsipial əhəmiyyəti var" [2, s. 41].

Marksist estetika həm klassik, həm də müasir ədəbi irsə sinfi nöqteyi-nəzərdən yanaşır, romantik poeziyamızdakı sufi sənətə, ilahi eşqə də bu prizmadan qiymət verir, sənətdən, ədəbiyyatdan ictimai mündəricə tələb edirdi. Tənqidçi həmin mövqeyə uyğun olaraq, M.Füzuli sənətinə 20-ci illərdəki "Mədəni inqilab" mövqeyindən yanaşırdı.

Şamil Salmanov sosialist realizmi sənətinin məhdud cəhətlərini də görür, bu sahədə vulqar sosioloji və nihilist mövqeləri kəskin tənqid edirdi. Bunun başlıca səbəbini o, 20-ci illərdə tənqid və ədəbiyyatşünaslıq sahəsində vahid konsepsiyanın olmaması ilə əlaqələndirir, marksist fəlsəfənin bir sıra müddəalarının qeyri-şərtsiz olaraq ədəbiyyatda, sənətdə təkrar olunmasını tələb etməyi məqbul hesab etmirdi. Klassik ədəbi irsə münasibətdə tənqidçi iki mövqeyə öz münasibətini açıq ifadə etməyi zəruri hesab edirdi. Birincisi, tənqidin idealist estetik mövqedən çıxış etməsi, ikincisi, klassik irsə ifrat sosioloji tələblər mövqeyindən yanaşılması. Hər iki mövqeyə Şamil Salmanov tənqidi mövqedən yanaşır, obyektiv-tarixilik prinsipindən qiymət verməyə çalışırdı. Ancaq onun Azərbaycan romantik poeziyasını marksist estetika mövqeyindən deyil, ümumtürk ədəbiyyatı kontekstindən araşdıran İsmayıl Hikməti və onun həmfikirlərini "idealist estetika" mövqeyindən təhlil etməsini qəbul etmək mümkün deyildir.

İ.Hikmət klassik poeziyanı sufi, ilahi eşq mövqeyindən dəyərləndirir, M.Füzuli yaradıcılığına da bu mövqedən qiymət verirdi. Şamil Salmanov bunu Şərq şeirinin canlı həyatda əlaqəsini şübhə altına almaq, onun fəlsəfi əsasını təsəvvüfdən ibarət hesab etmək kimi qiymətləndirirdi. Şamil Salmanovun İ.Hikmətin "Füzulinin ürəyi də əməllərdən ziyadə ələmlərlə bəslənir. O dodaqlarda günəşlənən xəndələrdən ziyadə gözlərdə titrəyən giryələrdən şad olur" [2, s. 43] - fikrinə irad bildirməsi də yerinə düşmür.

Göründüyü kimi, İ.Hikmətin dərin elmi təhlil mövqeyindən M.Füzuli sənətinə verdiyi qiymət tənqidçi tərəfindən düzgün şərh olunmur, sənət və ədəbiyyat məsələləri, bədii yaradıcılıqda ənənə və novatorluq marksist sənət mövqeyindən qiymətləndirilirdi.

Şamil Salmanov ənənə və novatorluğa müasir qiymət verməyə çalışan mövqeni "axtarış tənqidi" kimi səciyyələndirir, bədii ədəbiyyat haqqında marksist konsepsiyasının formalaşmasında onun rolunu şərh etməyə cəhd edirdi. Bu cəhətdən M.Quliyev, Ə.Nazim, H.Zeynallı, M.Ələkbərli, A.Musaxanlı, M.Rəfili, M.Arif, H.Mehdi kimi tənqidçi və ədəbiyyatşünasların rolunu xüsusi qeyd edərək, yeni tipli ədəbiyyatın ədəbi-nəzəri fikrin formalaşmasındakı xidmətlərini lazımınca qiymətləndirirdi. O, xüsusən, Ə.Nazimin ənənə və novatorluq problemi ilə bağlı olan "Yeni həyat və yeni ədəbiyyat" məqaləsi üzərində dayanır. Yeni ədəbiyyat necə olmalıdır? onun məqsədi nədən ibarətdir?" – sualına Əli Nazimin sənətin yeni həyatın nə demək olduğunu dərk etməsi kimi qiymətləndirilməsini düzgün hesab etmək olar. Həyatdakı yeniliyin ədəbiyyata gətirilməsi bu gün də aktual bir məsələ kimi qaldığı üçün bu mübahisələrə yenidən qayıtmağa ehtiyac vardır.

Bunu da qeyd edək ki, Şamil Salmanov ənənə və novatorluq məsələsində sosrealist ədəbiyyatın məlum standartlarını heç də məqbul hesab etmir, xüsusən, klassik ədəbiyyata münasibətdə inqilabi ədəbiyyatın ifrat tələblərini nihilist mövqe kimi dəyərləndirirdi.

Bədii yaradıcılıqda ənənə və novatorluq probleminə münasibətdə Şamil Salmanov ancaq poetik irsimizin təhlili ilə işi bitmiş hesab etmir, eyni zamanda, nəsr və dramaturgiya yaradıcılığında da məsələnin izahını və şərhini zəruri bir vəzifə kimi qarşıya qoyurdu. O, müasirlik kateqoriyasını gerçəkliyin bədii inikası kimi dəyərləndirir, yeni ictimai və mənəvi gerçəkliyi dərk etmək kimi qəbul edirdi. Bu cəhətdən 60-cı illər Azərbaycan roman yaradıcılığını xüsusi qeyd edərək, H.Mehdi, M.İbrahimov, İ.Əfəndiyev, İ.Şıxlı nəsrinin müasir həyatımızla bağlı olduğunu, eyni zamanda, ədəbi ənənələrdən qaynaqlandığını qətiyyətlə bildirirdi.

Şamil Salmanov novator poeziya haqqındakı ədəbi konsepsiyasını daha çox R.Rza yaradıcılığı ətrafındakı məqalələrində daha aydın ifadə etməyə imkan tapmışdır. Ümumiyyətlə, novator poeziyanın məzmunu, poetik məqamı, forması həmişə ədəbi tənqidin diqqət mərkəzində

dayanmışdır. Problemin aktuallığından və müasir həyatımızla bağlı olmasındandır ki, müxtəlif onilliklərdə məsələnin elmi izahına ehtiyac yaranmışdır. Şübhəsiz ki, novatorluq məsələsi ilə əlaqədar aparılan müzakirələr, fikir müxtəlifliyi nəticəsiz qalmır, problemin həllinə yardımçı olur.

Şamil Salmanov bədii yaradıcılığın müxtəlif sahələrindən - ədəbi tənqiddən, ədəbiyyat tarixçiliyindən, nəsr, poeziya və dramaturgiyadan da yazmağı bacarırdı. Həm də bütün təhlillərində professional kimi çıxış edir, ədəbi hadisələrə fəal tənqidçi təfəkkürü ilə yanaşır, sırf elmi üslubda yazmağa üstünlük verirdi. O, yeniliyi, müasirliyi görür və bunun ədəbiyyatdakı dərkini sənət dili ilə ifadə etməyə çalışırdı. Yazılarının böyük bir qisminin sərbəst şeir anlayışı ilə bağlı olması da bununla əlaqədar idi. Hətta yeni yaranan sərbəst şeirdən yazanda da bir qayda olaraq ədəbi ənənəni unutmur, sərbəst şeirin milli ənənələrlə bağlarını aşkara çıxarmağa çalışırdı. Azərbaycan ədəbiyyatında sərbəst şeirin Mikayıl Rəfili yaradıcılığı ilə bağlı olmasını da ilk dəfə ədəbiyyatşünaslığımızda elmi şəkildə Şamil Salmanov əsaslandırmışdır.

20-ci illərdə yeni ədəbiyyat, müasir poeziya haqqında qızğın mübahisələr gedirdi. Bəziləri ənənəvi şeirin vaxtının keçdiyini, yeni, novator poeziyaya keçməyin zəruri olduğunu əsaslandırmağa cəhd edirdi. Hətta ənənəvi şeir formasında yazanların da bir qismi sərbəst şeirdə qələmini sınayır, novator sənətkar kimi görünməyə çalışırdı. Əhməd Cavad, Almaz İldırım, Səməd Vurğun, Mikayıl Müşfiq və başqaları həm ənənəvi, həm də sərbəst formada yazmağa üstünlük verirdilər. Nazim Hikmət, R.Rza isə sırf sərbəst şeir nümayəndələri kimi tanınırdılar. Xüsusən, Ə.Nazim Nazim Hikmətin yaradıcılığı ilə bağlı "Günəşi içirik, günəşlənirik" məqaləsindən sonra sərbəst şeir yaradıcılığına maraq daha da artmışdı. Ş.Salmanov 20-30-cu illər ədəbi prosesində gedən hadisələri diqqətlə izləmiş, "Ədəbi döyüşlər" (M.Hüseyn) dövrünün poeziya yaradıcılığı ilə bağlı müəyyən təsəvvür formalaşdırmağa nail olmuşdur. Ə.Nazim həmin məqaləsində müasir şeir üslubu üçün keçmiş ədəbi-mədəni irsi və həyatın yeni xüsusiyyətlərini həlledici amil hesab edirdi. Tənqidçi daha çox həyatın özündə baş verən yeniliklərin bədii təfəkkürə təsiri məsələsinə xüsusi qiymət verməyi lazım bilirdi. M.Rəfiliyə görə heca vəzni ancaq bir musiqi aləti oldu. O mürəkkəb fikirləri ifadə etməyə yaramır. Elə bir musiqi aləti ki, yalnız kədərləri, hıçqırıqları və könül sızıltılarını ifadə etməyə yaradı. Coşğun hisslər, həyəcanlar, dalğalı hücumları ifadə üçün sərbəst şeirin imkanları daha genişdir. Şamil Salmanov bu mübahisələrinə münasibətini belə bildirir: "... yenilik heç vaxt birdən-birə, asanlıq və razılıqla qarşılanmadığı kimi, köhnələrin ədəbi üsullar və şəkillərin, metod və ifadə vasitələrinin də öz yerlərini mübarizəsiz tərk etməsi qeyri-mümkündür. O biri tərəfdən bu da aydındır ki, incəsənətdə yenilik müəyyən keçici, zahiri, hətta ifrat meyillərdən də azad olmur, ümumiyyətlə, bütün və hər cür axtarışlar novatorluğa aparıb çıxarmır" [2, s.123].

Burada Şamil Salmanov novator poeziyaya, onun ənənələrlə bağlı olmasına aydın, konkret münasibət bildirmişdir. Hər cür yenilik axtarışlarının novatorluğa gətirib çıxarmadığını, sərbəst şeir anlayışının cəmiyyətdə asan qəbul edilmədiyini vurğulayır. Lakin yeni novator poeziyanın ənənəvi şeir formasını mübarizə yolu ilə sıradan çıxarması haqqında fikirlər yerinə düşmür. Çünki zaman göstərdi ki, milli poeziya həm klassik, ənənəvi formada, həm də sərbəst şeir anlayışı istiqamətində inkişaf etdi. M.Şəhriyar, M.Müşfiq yaradıcılığı göstərdi ki, hətta əruzda da novator poeziya yaratmaq mümkündür. Xüsusən, M.Şəhriyarın köhnə şeir qəlibləri ilə dünya şöhrəti qazanan şeirlər yaratması bu fikirləri tamamilə alt-üst etdi. Aydın oldu ki, şeir qəlibləri nə qədər möhkəm, qanunları nə qədər dar çərçivədə olsa, bu şairi səfərbər edir, poeziyanın keyfiyyətinə müsbət təsir göstərir [3].

Sənətdə ənənə və novatorluq problemi bütün dövrlərdə müxtəlif mübahisələrə, müzakirələrə səbəb olmuş və bu gün də həmin mübahisələr davam etməkdədir. Bu isə bədii düşüncənin genişliyini, fəlsəfi mahiyyətini, cəmiyyətə təsirini göstərir. Cəmiyyət daim inkişaf etdiyi, real həyat hadisələri surətlə dəyişdiyi kimi, bədii təfəkkür də daim təzələnir, yeniləşir və ictimai-ədəbi mühitdə öz yerini tutur.

***Elmi yeniliyi:*** Məqalədə ilk dəfədir ki, Şamil Salmanovun yaradıcılığında ənənə və novatorluq məsələsi sistemli şəkildə araşdırılmışdır.

***Tətbiqi əhəmiyyəti:*** Məqalədən Azərbaycan ədəbiyyatı tarixi, müasir ədəbi proses və ədəbi tənqid fənlərinin tədrisində köməkçi vəsait kimi istifadə oluna bilər.

**ƏDƏBİYYAT**

1. Salmanov Ş. Poeziya və tənqid. Bakı: Yazıçı, 1987, 208 s.
2. Salmanov Ş. Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi. Bakı: Elm, 1980, 189 s.
3. Salmanov Ş. Müasirlik mövqeyindən. Bakı: Yazıçı, 1982, 205 s.
4. Salmanov Ş. Ədəbiyyatşünaslıq və yeni təfəkkür // "Azərbaycan" jurnalı, Bakı: 1990, № 3, s. 173-179
5. Зелинский К. Литературы народов СССР. М.: Гослитиздат, 1957, 267 с.

**РЕЗЮМЕ**
**ЛИТЕРАТУРНО-ТЕОРЕТИЧЕСКИЕ ВЗГЛЯДЫ ШАМИЛЯ САЛМАНОВА НА ТРАДИЦИИ И НОВАТОРСТВО**
***Зейналова Р.Г.***

***Ключевые слова:*** *новаторство, свободный стих, художественное творчество, литературная критика, социалистический реализм*

В статье говорится о взглядах Шамиля Салманова на традиции и новаторство, об анализе литературной среды 30-50-ых годов и его отношении к ней. Также в статье приводятся некоторые интересные мысли ряда видных литературоведов.

**SUMMARY**
**TRADITIONS AND INNOVATIONS IN SHAMİL SALMANOV`S LITERARY-THEORITICAL VIEW**
***Zeynalova R.H.***

***Key words:*** *innovator, free poem, artistic creature, literary criticism, social realism*

The vision prism to tradition and innovation of Shamil Salmanov, attitude to literary atmosphere of 30-50 years and its classification are reflected in this article. Beside this, some interesting thoughts of great literary scientists have been commented.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 02.11.2016 |
| | Son variant | 16.03.2017 |

**UOT 894.341**

# ÇİNGİZ AYTMATOVUN “ƏBƏDİ GƏLİN” ROMANINDA QLOBALLAŞAN DÜNYADA İNSANLIĞIN FACİƏSİ

**ALIYEVA AFİQƏ ALI qızı**
*Sumqayıt Dövlət Universiteti,müəllim*
*e-mail:sdu.elmixeberler@mail.ru*

***Açar sözlər:*** *cəmiyyət, qloballaşma, şəxsiyyət, əfsanə, təhlükə, xarakter*

İnsan haqqında təlimlər dünyanın elmi-fəlsəfi dərki, cəmiyyətin gerçək durumu və gələcək taleyi, inkişafı barədə bütöv tədqiqatlar metodologiyasından ibarətdir. Dünya elminin, fəlsəfi biliklərin tarixi aydın göstərir ki, insan problemi ta qədimdən diqqət mərkəzində olmuş, bir tərəfdən insanın idealist, mücərrəd mənəvi xüsusiyyətlərini, digər tərəfdən isə onun təbii-bioloji tərəflərini öyrənən ardıcıl tədqiqatlar obyektinə çevrilmişdir.

Bədii söz sənəti həmişə insanı, onun dəyişən, yeniləşən xarakterini ardıcıl olaraq izləyir, təsvir edir. Formalaşmış ənənəvi xüsusiyyətlərin, dini-ideoaloji amillərin, təhsil-tərbiyə sisteminin, siyasi qurum və texniki gəlişmələrin doğurduğu ziddiyyətlər fonunda dəyişən insanın xarakterik cəhətlərinin bədii boyalarla üzə çıxarılması olduqca böyük əhəmiyyət daşıyır. Əski çağlardan gələn ümumi xüsusiyyətlərlə yanaşı, qazanılan yeni fərdi keyfiyyət və çatışmazlıqların nədən ibarət olması, nədən doğması suallarını bədii təsvirlərlə canlandırmaqla ədəbiyyat insanda yeni baxışı formalaşdırır və onun yeni xüsusiyyətlərini müəyyənləşdirir.

İnsanın insana, cəmiyyətə münasibətindəki ziddiyyətlərin onun həyatı, yaşantısı, mənəvi-intellektual qabiliyyətləri ilə əlaqəli cəhətlərinin görünməsi, təhlillərdən keçirilməsi müasir sənətin əsas və vacib problemlərindəndir.

İnsan taleyi məsələsi təhlillərdə yalnız fərd olaraq deyil, həm də cəmiyyət, dünya, hətta kainatla birlikdə götürülür. Çünki insanın taleyi ilə bağlı yaxşı və pis cəhətlər, təhlükələr indi daha çox dünyəvi xarakter daşıyır. Ona görə də insan problemi indi ən mühüm ciddi dünyəvi-qlobal problemə çevrilmişdir. Bu səbəbdən də ona müasir fəlsəfədə qlobal problemlər toplusu kimi yanaşılır ki, bu da bəşəriyyətin və insanlığın ən aktual məsələsi kimi onun mühüm yer tutduğunu göstərir.

Zaman həyatın və şüurun, varlığın və təfəkkürün prinsip və normalarını dəyişdirmiş, insanın görmə və analama qabiliyyətini xeyli dərəcədə pisləşdirmişdir. Bu da öz növbəsində insanla dünyanın ünsiyyətini öz təbii məcrasından çıxarmışdır. Həmin prosesin bütün ağrı və iztirabları insanın acı taleyindı özünü göstərməkdədir; həyat günbəgün öz nəşəsini itirir, şüur kütləşir, duyğular kobudlaşır, zövqlər eybəcərləşir, əxlaq pozulur, insanla insan, insanla dünya bir-biirndən özgələşir və yadlaşır. Bu isə ümumbəşəri fəlakətin qapını döyməsindən xəbər verir.

Dünya şöhrətli qırğız yazıçısı Ç.Aytmatov son romanı olan “Əbədi gəlin”də (“Dağlar çökəndə”) SSRİ dağıldıqdan sonra qloballaşma və onun ortaya çıxardığı problemlərdən bəhs edir. Əsər haqqında tənqidçi Ahmet Sarıgül yazır: “Yeni kitabı olan “Əbədi gəlin”də yeni dünyanın yenilənmiş problemlərini ortaya qoyur: Ç.Aytmatov: yaşayan və yaşanan dünyanın ən böyük problemi olan qloballaşma, mənəvi zəiflik, “hər şeyi satışa çıxaran insanlıq” dramını göz önündə canlandırır” [3].

SSRİ-nin dağılması, respublikaların müstəqil olması eyni zamanda bir sıra problemlərin yaranmasına səbəb olmuşdur. Bazar iqtisadiyyatına keçidi bəzi insanlar qəbul edə bilmir, köhnə ideologiyadan uzaqlaşmaq hələ çətindir. Gənclərin çoxu işsizlikdən əziyyət çəkir və s. Digər respublikalarda olduğu kimi, Qırğızıstanda da belə problemlərlə qarşılaşırdılar. Əsərin qəhrəmanı

Arsen Samançin məhz belə dövrdə yaşayır, amma toplumdan fərqli olaraq o, müstəqil jurnalistdir, cəmiyyətdə fərqlənən və hörmət edilən simadır. Bu romanda da Aytmatovsayağı üslub oxucunu valeh edir. Ədib iki paralel yaradır, oxucunu maraq və həyəcanla qoyaraq əsəri sanki birnəfəsə oxumağa sövq edir. İki paralel: gözdən iraq, əlçatmaz Pamir dağlarında qar parslarının (bəbir) məhəbbəti və qırğız çöllərində iki insanın qarşılıqsız sevgisi.

Romanda üç əhvalatla qarşılaşırıq: birincisi, yaşlanaraq sürüdən qovulmuş, dişisi əlindən alınmış qar parsı Jaarbasın hekayəsi, onunla paralel isə Arsen Samançin. Əsərin sonuna qədər bu paralel davam edir. İkinci hekayə mifologiyadan gələn "Əbədi gəlin" əfsanəsidir. Əfsanənin qəhrəmanı ilə Eles arasında paralellər var. Üçüncü hekayə isə romana epiloq əvəzi yazılmış və İkinci Dünya müharibəsində bir əsgərin başına gələn hadisələrdir. Əvvəlinci iki əhvalat bir-biri ilə bağlı olduğu halda, üçüncü əhvalat sanki əsərə aid deyil. Lakin ideya, qarşıya qoyulan məqsəd hər üç əhvalatda öz təsdiqini tapır.

Arsen Samançin müstəqil müxbirdir. Bir sıra qəzet, jurnallarda vaxtaşırı məqalələrlə çıxış edir və tanınırdı. Amma daxili tənhalıq onu sıxır və rahatlıq tapa bilmirdi. Daxili tənhalıq, özü ilə söhbət, ətrafındakıları mənəvi saflığa, xeyirxahlığa çağırmaq – bu xüsusiyyətlər Avdi kimi, Filofey kimi, Arsendə də var. Daxili tənhalıq bu obrazları uçuruma yuvarlamır, əksinə, ətrafındakılara təsir etmək, onları düz yola gətirmək üçün onlar daxilən zəngin və cəsarətlidirlər. "Sevmək və öldürmək! Bu necə olur? Məzarda belə unutmayacağam, bağışlamayacağam!" Aydanadan ayrılandan sonra bu fikirlər Arsenə rahatlıq vermir, daim beynində təkrarlanırdı.

Arsen aşiq olduğu Aydananı opera səhnəsində görmək istəyir və arzu edirdi ki, yazacağı "Əbədi gəlin" operasında o çıxış etsin. Lakin Aydana səsli-küylü restoran həyatına, pop musiqisinə və var-dövlətə üstünlük verərək Arseni yox, Ertaş Kurçalovu seçmişdir. İlk ailə həyatının azömürlü olması, indi də Aydananın onun məhəbbətini cavabsız qoyması Arseni uçurum qarşısında qoymuşdu. Ya bu uçuruma yuvarlanmalı, məhv olmalı, ya da həyatını davam etməli idi. Ertaşı öldürməyi düşünsə də, bunu ürəkdən arzulamırdı. Ertaş və onun kimilər indi zamanın nəbzini tutub şad-xürrəm yaşayırdılar. Arsen üçün mənəviyyatsızlıq ölümə bərabərdir. Ertaş onsuz da mənən ölü olanlardan idi. Onu qətlə yetirib qatil olmağa isə dəyməzdi. Belə bir vaxtda əmisinin onu kəndə çağırması, ərəb qonaqlarına tərcüməçilik etməsi şəhərdəki fəlakətdən Arseni uzaqlaşdırsa da, bu hələ başlanğıc idi.

Fəlsəfədə insan, onun şəxsiyyətini öyrənməklə bağlı min illərdir ki, maraqlı fikirlər söylənir. "Özünü dərk et" kəlamı tarixdə Sokratın adı ilə bağlıdır. Tarixi qənaətlərə görə Sokrat insan fəlsəfəsini genişlikdən konkretliyə yönəldərək əxlaqi-etik fəlsəfəyə çevirmiş, insan qəlbinin mənəvi-ruhi aləminə yönəltmişdir. Sokrat insanın mənəvi aləminə qiymət verir, onun eşqini, sevgisini, həyata həvəsini əsas götürürdü. Insanın ruhunu (mənəvi anlamda) materiya ilə ideyalar aləmi arasında təsəvvür edirdi. Demokrit də, Platon da mənəvi aləmə böyük önəm verirdilər.

İnsan həm hadisələrin təbii əlaqəsinə qoşulur, həm də bioloji (biofiziki, biokimyəvi, fizioloji) qanunauyğunluqlara tabedir, insan şüuru psixoloji və şəxsiyyət səviyyəsində spesifik qanunauyğunluqları olan sosial varlığa çevrilmişdir. Insan fiziki, morfoloji orqanizm kimi kainatda materiyanın ən yüksək mütəşəkkil formasıdır. Deməli, insan bütövlükdə bioloji, sosial və psixi-mənəvi ölçülərin təşkil etdiyi tamlıqdır [2, 328].

İnsan mahiyyətinin açıqlanmasında, onun min bir rəngə çalan fərqli xüsusiyyətlərinin üzə çıxarılmasında bədii ədəbiyyat özünəməxsus fərdi cəhətləri ilə həmişə böyük, qlobal, fəlsəfi-psixloji tədqiqatlar üçün geniş imkanlar yaratmışdır.

"Şəxsiyyət məzmununa görə olduqca zəngin anlayış olub, özündə insanın təkcə ümumi və xüsusi əlamətlərini deyil, həm də nadir, unikal xassələrini də əks etdirir. Insanı şəxsiyyət edən, şübhəsiz sosial fərdilik, daha dəqiq desək, insan üçün xarakterik olan sosial keyfiyyətlər, onun sosial spesifikasıdır. Şəxsiyyət anlayışına, adətən, fərdin təbii-fərdi xarakteristikasını daxil etmirlər. İnsanın sosial fərdiyyəti boş yerdə və təkcə bioloji şərtlər əsasında yaranmır. Insan konkret tarixi zamanda və sosial məkanda, praktik fəaliyyət və tərbiyə prosesində formalaşır. Ona görə də sosial

fərdiyyət kimi şəxsiyyət həmişə müxtəlif, rəngarəng amillərin qarşılıqlı təsir və sintezinin konkret yekunudur. Şəxsiyyət özü insanın sosial-mədəni təcrübəsini toplaya bilməsi dərəcəsi ilə bir o qədər daşıyır və öz növbəsində insanın inkişafına fərdi töhfəsini verir" [2, 234].

Dəyişən, yenilənən dünyada insan xarakterində sabit qalan, bərkiyib möhkəmlənən və əriyib itən cəhətlər olur. Milliliyi, əxlaqi-mənəvi dəyərləri qoruyub saxlayan insanlar az olur. Az olsa da, milyon illərdir ki, cəmiyyət belə insanların sayəsində nəsildən-nəslə ötürülür, yaşayır.

Arsen Samançin şəhərdən ayrılıb kəndə gedəndə onu nələrin gözləyəcəyini bilsəydi... Kəndə qayıdandan sonra beşinci gün qeyd dəftərinə "Sirli qapılar" və ya "Məhkumluq düsturu" yazmışdı. Qəflətən otağa doluşan və tavanda çırpınan qaranquşlar da sanki bunu xəbərdarlıq edirdilər. "Arsen Samançinin qələmindən çıxan gələcəyin əlaməti idi" [1, 93].

Ərəb milyonçularına tərcüməçilik etmək məqsədi ilə kəndə gələn Arsenin Eleslə görüşü onu yenidən həyata bağlayır və daha çox bu qadında özünü tapmış olur. Sanki hər ikisi bir-biri üçün yaranmış, bu zamana qədər bir-birini axtarırmışlar. Eleslə Arsenin "Əbədi gəlin" əfsanəsi haqda fikirləri bir-birini tamamlayır. Hər ikisi əfsanədən danışdıqca olmuşları yaşayır və özlərini hadisələrin içində hiss edirlər. "Bax Arsen, bu dağlar mənim məhəbbətimi gözləyirmiş, mən də ona görə tez-tez buralara gəlirmişəm. Mən də gözləyirdim: amma belə olacağını heç düşünməzdim..." [1, 153]. Elesin gitarada ifa etməsi, "Əbədi gəlin"i xatırlamaları da ustalıqla qələmə alınıb: "Əbədi gəlin onların xoşbəxtliyini qəlbi ilə hiss edərək bir dağdan digərinə uçub onlara doğru gəlir, Elesin gitaranın müşayiəti ilə oxuduğu mahnını duyur, dağın zirvəsində dayanaraq dinləyir: "Mən də bunu arzulayırdım. Hardasan, hardasan mənim ovcum? Səni nə zaman tapacağam", - deyərək ağlayırdı [1, 155].

"Əbədi gəlin" əfsanəsi qırğızlar arasında geniş yayılmış mifoloji mətnlərdən biridir. Hər bir əsərində olduğu kimi, bu romanda da Ç.Aytmatov yenə də qırğız xalqının tarixinə, əfsanəsinə müraciət etməklə öz prinsipinə sadiq qalmış, keçmişlə bu günü vəhdətdə qələmə almşdır. Bu əfsanə müxtəlif formalarda bir çox xalqların folklorunda var. Müəllif bu əfsanəni də təsvir edərkən özünəməxsus formada bir eşq hekayəsi yaratmışdır. Ç.Aytmatov özü əfsanə haqqında bunları demişdir: "Əbədi gəlinə gəlincə bu mənim əfsanəm. Əbədi gəlin motivi müxtəlif xalqların ədəbiyyatında fərqli formalardadır. Amma heç biri mənim əsərimdəki kimi deyil. Əbədi gəlin sırf mifoloji qəhrəmandır. 200-300 il keçməsinə baxmayaraq, iftira atılmış qız hələ də dağlarda dolaşır və sevgilisinin həsrəti ilə yanır. Ona olan sədqətini anlatmağa və sübut etməyə çalışır. Bu əfsanənin əsas məğzini göstərən dəyər var. Sevgi – insanın sahib olduğu ən uca dəyər..." ("Əbədi gəlin" üz qabığı) Arsen əvvəl şəhərdə sevdiyi Aydanaya bu əfsanəni danışır və opera səhnəsində onun "Əbədi gəlin" operasında çıxış etməsini arzulayır. Lakin Aydana bu dağlardan uzaqda şəhərdə böyüdüyünə görə Arsenin hissini, duyğusunu anlaya bilməzdi. Ona görə hər dəfə bu əfsanədən, gələcək operadan söz düşəndə bunları bir zarafat kimi qəbul edirdi. Lakin Eles bu dağlarda böyümüş, uşaqlıqda əfsanəni eşitmişdir. Hətta yaz aylarında bu kənddə yaşayanlar əfsanədə olduğu kimi dağın zirvəsində, tonqalın ətrafında toplaşar və ozan-akınlar da xalq üçün əfsanəni söyləyərlərmiş. O anda hamı sanki bu hadisələrin iştirakçısı və şahidi olurmuş. Bu haqda Arsen Aydanaya deyir: "Mən uşaq ikən bir neçə dəfə Əbədi gəlin üçün tonqal yandırma mərasimlərində olmuş və bunları ozan-akınlarımızın dilindən eşitmişəm. Onları bu gecələrdə dastanı söyləyən zaman bir görsən! Hər biri əbədi gəlin üçün başqa cür üzülür, onu çağırmaq üçün yardımçı ruhları dağlara göndərirlər. Ozan-akınlar onlarla birgə kədərlənən dinləyicilərdən daha da ilham alır, gah dərin xəyallara dalır, gah da xəyalən külək kimi çöllərdən keçərlər..." [1, 65]. Sözsüz ki, Eleslə Arsen bu əfsanə ilə yaşayır və onu qəlbən duyurdular. Hətta Arsen ölüm anında da Əbədi gəlinin səsini eşitdi. "Ölərkən həyatının son anlarında Əbədi gəlinin uzaqdan gələn səsini duydu: "Hardasan, hardasan, ovcum mənim?" O da güclə pıçıldadı: "Əlvida, biz bir daha görüşməyəcəyik..." [1, 196]. Eyni hadisəni Eles də yaşadı. Arsenin meyitini aparmaq üçün bacısı və bacısı əri ilə Molotaş mağarasına gələn Eles gecə tonqalın ətrafında oturub olanları düşünəndə aydınca Əbədi gəlini eşidirdi: "Görəsən, elə bir gün olacaq ki, uşağının əlindən tutub onun məzarını ziyarət edəcək? Dağlarda, çox uzaqlarda Əbədi gəlinin:

“Hardasan, hardasan, ovçum mənim? Cavab ver!” çağırışlarını eşitdiyi vaxt, pıçıltıyla ona cavab verdi: “Eşidirəm səni, eşidirəm, əbədi gəlin. İndi mən də sənin kimiyəm” [1, 200].

SSRİ dağıldıqdan sonra müstəqil dövlətlər bazar iqtisadiyyatına keçmiş və bu da bir sıra problemlərə yol açmışdır. Müstəqilliyin ilk illərində Qırğızıstanda da işsizlik artır, insanlar gündəlik tələbalarını ödəmək üçün çətinliklərlə üzləşirdilər. Bəziləri bu vəziyyətdə özünə yaxşı iş qura bilmiş, varlanmış, məsələn, Arsenin əmisi Bektur ağa kimi, bəziləri isə işsiz-gücsüz qalmış, daha tez varlanmaq üçün əyri yollar axtarırlar, məsələn, Taştanafqan kimi. Əslində, Arsen də daha asan yolla xeyli pul əldə etmək istəyirdi. Çünki Ertaş Kurçalı (Aydananı onun əlindən alan) öldürmək üçün ona silah lazım idi. Silahı almaq üçün isə o qədər pulu yox idi. Ov üçün ərəb ölkələrindən gələnlərə tərcüməçilik etsəydi qazanacağı pullar buna yetərdi. Əvvəlcə bu fikirlər tərcüməçilik etməyə razılaşan Arsen nə biləydi ki, hər şey əksinə olacaq?

Qloballaşma, onun ortaya çıxardığı problemləri qələmə alan Ç.Aytmatov bu vəziyyətdən çox narahat olur, öz etiraz səsini əsərdə obrazların dilindən Aytmatovsayağı bildirir.

Bektur ağa, Ertaş Kurçal əsil zəmanə adamlarıdır. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq özlərinə biznes yaratmış və bundan məmnundurlar. Taştanafqan isə birdən varlanmaq üçün cinayət etməyə də hazırdır. Arsen əhatəsində olan Ertaş, Taştanafqan kimilərini görür və mənəvi əzab çəkir. Düzdür, Ertaş pulu, səlahiyyəti ilə Arsenə qalib gəlmiş, Aydananaı onun əlindən almışdır. Arsen heç cür onu dəyişə və doğru yola gətirə bilməzdi. Lakin Taştanafqanı fikirlərindən daşındırmaq istəsə də, buna nail ola bilmədi. Dünyada xalqının biabır olmasına heç cür razılaşmayan Arsen bu yolda özünü qurban verdi. Qar parslarının ovu heç onun ürəyincə deyildi. Uzun əsrlər Üzəngili dağlarda məskən salan, buranın əbədi sakini olan qar parslarının xaricilər tərəfindən ovlanmasına razı olmaq, mənəvi dəyərlərini unutmaq və mənəviyyatına düşmən kəsilmək demək idi. Hətta Eles də buna qarşı idi. Arsenlə söhbətində demişdi ki, ov üçün gələn milyonçu ərəb şeyxlərinin qarşısına “Parslarımıza toxunmayın!” plakatı ilə çıxacaq. Arsen özü də bu ovun baş tutmasını xalqına təhqir kimi qəbul etsə də, nəsə etməkdə çarəsizdi. Axi o hansı səlahiyyətə malik idi ki, bunun qarşısını alsın. Bundan dəhşətlisi isə həmyerlilərinin milyonçu ərəb şeyxlərini girov götürüb əvəzində pul istəməsi idi. O, buna heç cür razı ola bilməzdi. Amma baş verən burulğanın qarşısını necə ala bilərdi? Bu yolda acizliyini duyur və daha çox əzab çəkirdi. Həmkəndlilərinin planlarını açıb əmisinə demək də işə yaramayacaqdı. Odur ki, özü çıxış yolu tapmalıydı. Yenə də fəlakətlər qarşısında tək qalan obraz. Avdi kimi (“Qiyamət”), Robert Bork kimi (“Kassandranın damğası”) Arsen də özünü qurban verməklə insanlığı düz yola, həqiqətə çağırırdı.

Sonda Arsenlə birlikdə bu dağların əbədi sakini qocalmış Jaarbasın ölümü elə dağların yıxılmağı deməkdir. Hər iki canlının son dəqiqələri birlikdə Molotaş mağarasında can verməlērini müəllif belə təsvir edir: “Amma təsadüf idi, ya taleyin yazısı idi. Can verən iki canlı: insan və vəhşi heyvan. Hər ikisi də bu dünyadan yolunu eyni şəkildə başa vururdu. Onları yaralayan silahların təsadüfənmi, ya da nişan alınaraq satıldığını, güllənin nə üçün və kim tərəfindən atıldığını kim araşdıracaqdı ki? İndi, əbədiyyətə qovuşduqları vaxt bunların heç bir önəmi yox idi” [1, 194]. Arsenin sön sözləri isə bu oldu: “Budur, sonunda görüşdük...” [1, 194].

***Elmi yeniliyi.*** Məqalədə “Əbədi gəlin” romanında qloballaşan dünyada insanlığın faciəsi təhlil predmeti kimi götürülmüşdür.

***Tətbiqi əhəmiyyəti.*** Məqalə tədqiqatçılar və tələbələr üçün önəmli mənbə hesab oluna bilər.

## ƏDƏBİYYAT

1. Aytmatov Ç. Ebedi gelin. Elips kitap. Haziran, 2012, 239 s.
2. Şükürov A. Fəlsəfə. Bakı: Elm, 1997, s.381.
3. www.aytmatov.org/tr/dağlar-devrildiginzeman-ga-tanıtım.

**РЕЗЮМЕ**
**ТРАГЕДИЯ ЧЕЛОВЕЧЕСТВА В ГЛОБАЛИЗИРУЮЩЕМСЯ МИРЕ В РОМАНЕ ЧИНГИЗА АЙТМАТОВА «КОГДА ПАДАЮТ ГОРЫ» (ВЕЧНАЯ НЕВЕСТА)**
***Алиева А.А.***

***Ключевые слова:*** *общество, глобализация, личность, легенда, опасность, характер*

В статье анализируется проблема трагедии человечества в глобализирующемся мире в романе Чингиза Айтматова «Когда падают горы» «Вечная невеста». После распада СССР бывшие союзные республики, получившие независимость, столкнулись с рядом серьёзных проблем. Многие люди по всему бывшему Союзу с трудом отходят от старой идеологии и никак не могут принять новые товарно-рыночные отношения. С этой проблемой столкнулись в тот период и в Киргизии. Глобализация и связанные с ней проблемы очень беспокоят Чингиза Айтматова, который неоднократно говорит об этом в своём творчестве, и в присущей только ему манере выражает свой протест против глобализации мира с помощью образов своих героев.

**SUMMARY**
**GLOBALIZING HUMANITY TRAGEDY IN THE ROMAN "ETERNAL BRIDE" OF CHINGIZ AYTMATOV**
***Aliyeva A.A.***

***Key words:*** *society, globalizing, personality, legends, dangerous, character*

Globalizing humanity tragedy in the roman "Əbədi gəlin" (Eternal bride) of Chingiz Aytimatov is analyzed in the article. After the destruction of SSR republics lived under the empire became independent but they have met some problems. Some people cannot like passing to market economic, it was difficult to avoid old ideology yet. There were some people who had met this problem in Kirgizstan. Chingiz Aytimatov worried about globalizing problems and he protest it by the help of the images in dis creative.

Daxil olma tarixi: İlkin variant 08.11.2016
Son variant 16.03.2017

**UOT 93.99**

# AZƏRBAYCANIN QƏDİM VƏ İLK ORTA ƏSRLƏR DÖVRÜ DÖVLƏTÇİLİK TARİXİNƏ DAİR
## (e.ə. III minilliyin I yarısı – b.e VI əsrinin əvvəlləri)

[1]**XASAYEV NEYMAN NƏRMAN oğlu**
[2]**BAYRAMOVA ÜLVİYYƏ MƏMMƏD qızı**
*Sumqayıt Dövlət Universiteti, 1-dosent, 2-laborant*
*e-mail: sdu.elmixeberler@mail.ru*

***Acar sözlər:*** *Azərbaycan, dövlət, Albaniya, Manna, idarəçilik*

Azərbaycan qədim dövlətçilik ənənəsinə malik sivilizasiyalı ölkələrdən biridir. Öz başlanğıcını e.ə. III minilliyin I yarısından götürən dövlətçilik tariximizin dövrlər üzrə bütün mərhələlərinin öyrənilməsi Azərbaycan tarixşünaslığının qarşısında duran, kompleks şəkildə tədqiqini gözləyən ən vacib və ən aktual problemlərindəndir. Dövlətçilik tariximizin öyrənilməsi sahəsində ilk uğurlu addımı Azərbaycan tarix elminin banisi A.A.Bakıxanöv 1841-ci ildə "Gülüstani-İrəm" əsərini yazmaqla atmışdır [1]

Qeyd edək ki, Azərbaycanın dövlətçilik tarixinin geniş və əhatəli şəkildə tədqiqinə XX əsrin 50-ci illərindən etibarən başlanmışdır. Bu günə qədər dövlətçilik tariximizin ayrı-ayrı mərhələlərinin tədqiqi ilə bağlı bir sıra samballı araşdırmaların aparılmasına, monoqrafiyaların nəşr olunmasına, ümumiləşdirilmiş əsərlərin yazılmasına baxmayaraq, dövlətçilik ənənlərimizin öyrənilməsi sahəsində nəzərə çarpaçaq boşluqlar hələ də qalmaqdadır. Bu boşluqların doldurulması üçün ölü dillərin öyrəniləmsinə, ən azından, Azərbaycanın qədim və orta əsrlər dövrü dövlətçilik tarixini özündə əks etdirən fars, ərəb dilli qaynaqların örginal olaraq tədqiqata cəlb edilməsinə böyük etiyac duyulmaqdadır. Onu da qeyd edək ki, Azərbaycanın dövlətçilik tarixinin qədim və ilk orta əsrlər dövrünə hələ tam şəkildə aydınlıq gətirilməmişdir. Bu səbəbdən də, qədim və ilk orta əsrlər dövrünün dövlətçilik məsələlərinə dair fikir ayrılığı Azərbaycan tarixşünaslığında bu gündə qalmaqdadır.

Azərbaycanın şimalı ilə müqayisədə cənubunda sinifli cəmiyyətin, dövlətçilik ənənələrinin tez formalaşması bir neçə amillə bağlıdır. İlk amil kimi cənub bölgələrinin şimala nisbətən dünya sivlizasiyasının əsas mərkəzlərindən birinə - iki çayarasına yaxın olması faktı götürülür [2, 58-60]. Əlbəttə İkiçayarasında baş verən bütün ictimai, iqtisadi, sosial, mədəni, hərbi-diplomatik proseslər uzaq şimal regionuna nisbətən qonşu cənub regionuna öz təsirinin daha tez göstərməli idi. Cənub regionunun şimalla müqayisədə təbii resurslarla, yeraltı və yerüstü sərvətlərlə daha zəngin olması faktı isə ikinci amil kimi dəyərləndirilə bilər. Cənubda sivilizasiyalı cəmiyyətin erkən təşəkkül tapmasına təkan verən digər mühüm amil regionun daha əlverişli coğrafi ərazidə, insan yaşayışı üçün daha vacib iqlim qurşağında yerləşməsi götürülə bilər.

Bütün bu amillər əsas olmaqla e.ə. III minilliyin başlanğıcında Urmiya gölünün cənubunu və cənub-şərqini əhatə edən Aratta dövlət qurumu tarix səhnəsində göründü. Bununla da, Azərbaycanın dövlətçilik ənənəsi özünün formalaşma mərhələsinə qədəm qoydu. E.ə. III minilliyin II yarısında Urmiya gölünün cənubunda Lullubi, cənub-qərbində isə Kuti dövlət qurumunun meydana gəlməsi Azərbaycanda dövlətçilik ənənlərinin davamlı xarakter almasını təsdiqləməkdə idi. Kutilərin 100 ilə yaxın bir dövrdə ikiçayarası ərazilərində hakimi mütləq olub, şumer və akkadları ədalətlə idarə etmələri Azərbaycanda dövlətçilik ənənlərinin təkmil və demokratik bir xarakter almasından xəbər verir. Lullubi və Kuti dövlət qurumları e.ə. III minilliyin sonlarında daxili ixtilaflar və xarici təzyiqlər nəticəsində zəifləyib tənəzzülə uğrasalar da, Azərbaycanda

dövlətçilik ənənələrinin təşəkkül tapıb fasiləsiz xarakter almasında danılmaz rol oynamarı ilə silinməz iz qodular. Aratta, Lullubi və Kuti dövlət qurumlarının varisi kimi e.ə. IX əsrdən etibarən assur və urartu mixi yazılı abidələrində tez-tez adı çəkilən Manna dövləti də Urmiya sahilində yüksəlməyə başladı [3]. Manna e.ə. IX əsrin ikinci yarısından etibarən qonşuları ilə mübarizədə mətinləşib güclü dövlətə çevrildi. E.ə. VIII əsrin II yarısında isə Manna siyasi hakimiyyətin varislik ənənəsi ilə irsən ötürüldüyü mərkəzi dövlət kimi tanınmağa başladı. Azərbaycanın ilk dövləti kimi tarixə düşmüş və erkən dövlət qurumlarının ərazilərini əhatə etməklə təşəkkül tapmış, Mannanın xarici siyasət kursunda onu müttəfiq kimi görən assuriya ilə dostluq, ərazilərini zəbt edib dövlətçiliyinə son qoymaq istəyən Urartu ilə isə düşmənçilik münasibətləri əsas mərkəzi xətti təşkil edirdi. Qeyd edək ki, Mannanın bu xarici siyasət kursu Assur çarı II Sarqon tərəfindən Urartu çarlığının zəifledilib bir daha Mannaya müdaxilə etmək iqtidarında olmadığı dövrə- e.ə. VIII əsrin sonuna qədər davamlı olmuşdur. Ümumiyyətlə, bəzi istisnaları çıxmaq şərti ilə Mannanın Assuriya ilə müttəfiqlik sazişie.ə VII əsrin sonlarına- Assuriyyanın Midiya və Yeni Babil çarlıqları tərərindən süquta uğradılmasına qədər qorunmuş, öz əhəmiyyətini itirməmişdir.

E.ə VI əsrin başlanğıcında regionun güclü dövləti Midiya tərəfindən süquta uğradılan Mannanın dövlətçilik ənənələri Azərbaycanın cənubunda Atropatena, şimalında Albaniya dövlətlərinin yüksəlişi üçün tarixi zəmin rolunu oynamışdır [4]. E.ə. IV əsrin sonlarında Albaniya və Atropatena dövlətlərinin tarix səhnəsinə çıxması Azərbaycanda dövlətçilik ənənlərinin dərin bir özül üzərində dayandığını bir daha təsdiqləyir. Onu da qeyd edək ki, Atropatena və Albaniya dövlətləri Makedoniyalı Aleksandırın e.ə. IV əsrin sonlarında Şərqə böyük yürşünün nəticəsində formalaşan ellinizm dövrü siyasi idrəçilikləri sırasına daxil edilməkdədir. Mövcud tarixi ədəbiyyatlara istinad etməklə Atropotena və Albaniyanın antik dövrünü (e.ə. IV əsrin sonu-b.ə-nın III əsrinin əvvələri) izləsək, onların geniş ərazilərinin keşiyində layiqincə durduqlarını, selevki, parfiya, roma, alan kimi yadellilərin hücumlarından vətən torpaqlarını mərdliklə qoruduqlarını aydın şəkildə gərə bilərik. Bu zaman cənubda Zərdüştlüyün, şimalda isə çoxdinliliyi özündə əks etdirən müxtəlif təlimlərin yayılmasını da izləmək mümkündür. Antik dövrdə Atropatenanı türk mənşəli Atropatın, Albaniyanı isə türk soylu Aranşahın varisləri idarə edirdi. Atropatena və Albaniyanın antik dövrdə regionda söz sahibi olan dövlətlər kimi tanınmalarını o dövrə aid yazılı qaynaqlara istinad etməklə söyləyə bilərik. 224-cü ildə baş vermiş Sızyan döyüşündə Parfiyanın süqutundan sonra Atropatenanın yenidən dirçəlməsinin qarşısının Sasanilər tərəfindən alınmasını bir sıra mühüm amillərlə, əsasən də, onun düşmən hücumlarından müdafiə üçün əlverişli strateji mövqeyə malik olması və imperiyaya tabe digər ərazilərlə müqayisədə daha zəngin resurslara sahib olması ilə əlaqələndirə bilərik. Tədqiqatçılar bunu həm də Atropatenanın mərkəzi Kazaka şəhərində Sasanilərin dövlət dini zərdüştlüyün baş məbədinin yerləşməsi amili ilə də bağlayırlar. Albaniyaya gəldikdə isə, III əsrin I yarısından-VI əsrin əvvəllərinə qədər onu türksoylu yerli Arşakilər sülaləsi idarə etmişdir. Yerli arşakilərin ilk hökmdarı I Cəsur Vaçaqanın III əsrin I yarısında Albaniyada qərarlaşan bütün siyasi idarəçilikləri bir araya gətirib vahid mərkəzi bir dövlət yaratması M.Kalankatlının "Albaniya tarixi" əsərində müfəssəl şəkildə verilir. Sasani imperiyası qonşu Albaniya dövlətini öz tərkibinə qatmağa cəhd göstərsə də, Romanın şərqə doğru nüfuz dairəsini genişləndirmək siyasəti ilə bağlı buna nail ola bilmir. Alban hökmdarı I Vaçenin (255-262) Roma meyilli siyasət yeritməsi də Albaniyanın sasanilər tərəfindən işğalını ləngidən səbəblərdən sayıla bilər. Sasani hökmdarı I Şapur (241-272) tərəfindən 260-cı ildə Romanın ağır məğlubiyyətə uğradılmasından sonra Albaniya sasani asılılığını qəbul etdi. Lakin bu siyasi asılılıq müvəqqəti xarakter daşımış, Albaniya I Şapurun ölümündən sonra yenidən müstəqil siyasət yeritməyə başlamışdı. Alban hakimi Sanatürkün (298-338) erməni və gürcülərə, eyni zamanda onlara havadarlıq etməklə Şərqə doğru genişlənmək planını reallaşdırmaq istəyən Romaya qarşı Sasani hökmdarı II Şapurla (309-379) və türk tayfaları ilə ittifaq bağlayıb erməni çarlığının mərkəzi Valarşapatı 337-ci ildə ələ keçirməsi faktı tarixşünaslıqda öz əksini tapmışdır. Alban hakimi Sanatürkün , eyni zamanda güclü Romadan çəkinməyib ermənilərin paytaxtını tutması Albaniyanın

sasani asılılığından qurtulub müstəqil siyasət yeritməsini də təsdiq etməkdədir. Sanatürkdən sonra Albaniyanı idarə etmiş Urnayırın (350-371) da Sanatürk kimi müstəqil siyasət yeritməsini tarixi faktlar təsdiqləyir. Alban hökmdarı Urnayırın Romaya və onun himayə etdiyi ermənilərə qarşı sasanilərin apardığı 359-cu il Amid və 371-ci il Dzirav savaşlarında ölkəsinin bütövlüyü, müstəqilliyi naminə hərbi-müttəfiq kimi fəal iştirak etməsi, hətta torpaqlarının azadlığı uğrunda Dizirav vuruşmasında canını qurban verməsi amilləri də Albaniya hökmdarının müstəqil siyasət yeritməsini təsdiqləməkdədir.

Albaniyada I əsrdən yayılmağa başlayan və 313-cü ildən etibarən dövlət dininə çevrilən xristianlığın ləğvi istiqamətində II Yəzdəgirdin (438-457) dövründə ciddi addımlar atılmışdır. II Yezdəgird Alban hakimi-bacısı oğlu II Vaçenin xristian amilindən istifadə edib öz ölkəsinin siyasi müstəqilliyinə nail olmasından ehtiyat edirdi. Buna görə də o, II Vaçeni hüzuruna çağırtdırıb atəşpərəstliyi ona zorla qəbul etdirmişdi. Bununla kifayətlənməyib II Vaçeyə atəşpərəstliyi təbəələri içərisində yaymaq haqqında xüsusi göstəriş vermişdi. II Vaçe II Yəzdəgirdin 457-ci ildə ölümündən sonra sasani imperiyasında siyasi çəkişmələrin artmasından istifadə edib yenidən Albaniyanın müstəqil olmasını reallaşdırmağa çalışmışdı. Buna nail olmağın yolunu öz sələfləri kimi xristian dinini dövlət dininə çevirib, xristian dinin təbliğatını əhali arasında geniş şəkildə aparmaqda görmüşdü. Bu isə II Yəzdigirdin vəfatından sonra hakimiyyət uğrunda gedən savaşlardan girovluğunda olduğu Eftalit hökmdarının köməyi ilə qalib çıxıb özünü sasani hökmdarı elan edən I Firuzun (459-484) kəskin etirazına səbəb olmuşdu. I Firuzun hədələri və təkidləri Albaniyanın siyasi müstəqilliyini bərpa etmiş II Vaçeni nəinki qorxutmamış, hətta sasanilərə qarşı hərbi ittifaq yaratmağa vadar etmişdi. I Firuz Albaniyanı yenidən sasani imperiyasına tabe etmək üçün muzdlu döyüşçülər kimi ələ aldığı haylandur türklərini (onoqurları) 462-ci ildə II Vaçenin üzərinə göndərmişdi. 463-cü ildə yüksək döyüş təcrübəsinə malik haylandur türklərinin hərbi gücü qarşısında təslim olan II Vaçe hakimiyyətdən əl çəkmişdi [5, 65-72]. Nəticədə Albaniyada 30 il müddətinə hökmdarın olmadığı bir dövr başlanmışdı. Görünür, bu dövrdə ölkəni müvəqqəti olaraq Sasani mərzibanları idarə etmişdi. Lakin I Firuzun çiyinləri üzərində hakimiyyətə gəldiyi Eftalit hökmdarı Ağsuvar xaqana naxələf çıxması ona baha başa gəlmişdi. Xəyanəti bağışlamayan türk soylu Ağsuvar 484-cü ildə I Firuzu, "çanavar tələsi"nə (Canavar tələsi dedikdə türklərin hiyləgər düşmənə qalib gəlmək üçün onun keçəcəyi yolda dərin quyular qazıb üzərini ağac budaqları ilə örtməsi nəzərdə tutulur. Onlar canavarı da bu yol ilə ovladıqlarına görə, onu canavar tələsi adlandırırdılar) salıb ac-susuz saxlamaqla rüsvayçı şəkildə öldürmüşdü. Bundan sonra Sasani taxtına Balaş(484-488) adlı demokratik idarə üsuluna meyilli bir hökmdar əyləşmişdi. O, bir çox demokratik tədbirlər həyata keçirməklə yanaşı, tolerant olub çoxdinliliyə də yol açmışdı. Bundan istifadə edən II Vaçenin qardaşı(qardaşı oğlu kimi də göstərirlər) Vaçaqan III Mömin Vaçaqan adı altında alban taxtına çıxır. 493-510-cu iliərdə son yerli Arşaki hökmdarı kimi Albaniyanı idarə etmiş III Mömin Vaçaqan digər alban hökmdarlarının ənənəvi daxili siyasət kursunu davam etdirməklə ölkənin siyasi müstəqilliyi naminə xristian dininin geniş təbliğinə, digər dinlərin isə məhdudlaşdırılmasına başlamışdı. Bu böyük işi sürətləndirmək və ümumalban istiqlaliyyət mübarizəsinə çevirmək məqsədi ilə Aquen kilsə məclisini çağırmışdı.

Qeyd edək ki, Aquen kilsə məclisinin çağırıldığı tarixlə bağlı da tarixşünaslıqda fikir ayrılığı vardır. Bir qrup tarixçi Aquen kilsə məclisinin 488-ci ildə çağırıldığını, digər araşdırmaçılar isə bu dini məclisin 498-ci ildə keçirildiyini iddia etməkdədir. Əslində, ikinci yanaşma həqiqətə daha yaxındır. Belə ki, əgər III Vaçaqanın Alban taxtına çıxdığı tarix 493-cü ilə təsadüf edirsə, onda o, Aquen kilsə məclisini hakimyyətə gəlməmişdən əvvəl-488-ci ildə çağıra bilməzdi. Digər tərəfdən Alban hökmdarları adətən, taxta çıxdıqdan sonra həm dini, həm də dünyəvi başçıya çevrilb və hər hansı dini tədbiri həyata keçirə bilirdilər.İkinci fikrə dəstək duracaq başqa yardımçı arqument kimi Mömin Vaçaqanın II Vaçenin qardaşı kimi Alban taxtına oturması yalnız sasani dövlətində siyasi vəziyyətin qarışıq bir hal aldığı zaman mümkün ola bilərdi. Məlumdur ki, 488-ci ildə Sasani taxtına oturan I Qubadın(488-531) hakimiyyəti dövründə imperiyanı həm mərkəzdənqaçma-seperatçlıq

meyilləri, həm də Sasani ağalığına qarşı çevrilməklə əsas mərkəzi tarixi Atropatena əraziləri olan məzdəkin başçılıq etdiyi xalq azadlıq hərəkatı bürümüşdü.

Yalnız III Vaçaqan Sasani hakim dairələrinin başının bu acınacaqlı vəziyyətə qarışmasından, alban din xadimləri və dünyəvi feodallarının ona yerli arşakilərdən olmaqla böyük etimad göstərmələrindən yararlanıb taxta otura bilərdi. Digər tərəfdən o, Aquen kilsə məclisini yalnız öz hakimiyyətini ölkə daxilində möhkəmləndirdikdən bir neçə il sonra çağıra bilərdi. Sasani asılılığına qarşı qiyam qaldırmış II Vaçenin yaxın qan qohumunu-Vaçaqanı heç bir sasani hökmdarı-hətta Balaş belə Alban hakimi kimi görmək istəməzdi. Beləliklə, yuxarıda qeyd olunan amilləri əsas götürüb Aquen kilsə məclisinin 498-ci ildə çağırılması qənaətinə gələ bilərik.

III Mömin Vaçaqan 498-ci ildə Aquen kilsə məclisini çağırmaqla, ölkədə xristian dininin yenidən hakim dövlət dininə çevirəcək giriş və 21 maddədən ibarət qanunlar toplusunu qəbul etdirmişdi. Tədqiqatçılar bu qanunlar toplusunu ümumiləşdirməklə; xristian din xadimləri arasındakı, xristian din xadimləri ilə dünyəvi əyanlar arasındakı, xristian din xadimləri ilə sadə xalq arasındakı münasibətləri tənzimləyən və sırf hüquqi xarakter daşıyan qanunlar kimi quruplaşdırırlar. Alban hökmdarlarının xristian dinindən siyasi müstəqilliyi gücləndirmək üçün istifadə etməsi amilindən yararlanan III Mömin Vaçaqan 17 il taxtda oturmaqla Albaniyanın suverenliyini qoruyub saxlaya bilmişdi.

Albaniyada III Mömin Vaçaqanın vəfatından sonra 510-cu ildən 629-cu ilə qədər davam edən Sasani mərzibanlığı-canişinliyi dövrü başlanmışdır. Mərzbanlıq dövründə isə Albaniyanın şimal-şərqində- Şirvanda Şirvanşah siyasi idarəçilyi[6, s. 16-21]indiki Şəmkirlə Qazax arasındakı ərazidə isə sabir türklərinin yaratdığı Mehranilər dövləti yüksəldi.

Bu mühüm amillər Azərbaycanda dövlətçilik ənənələrinin dayanıqlı olub, çox dərin köklərə söykəndiyini, bu səbəbdən də istilaçıların ən sərt tədbirlər görməklə belə dövlətçilik ənənlərini yox etmək iqtidarında olmadığını bir daha təsdiqləməkdədir. Azərbaycanın dövlətçilik ənənələrinin möhkəm özül üzərində dayanmasını inkişaf etmiş orta əsrlər dövründə ölkədə onlarla siyasi idarəçiliyin yaranması və həmin siyasi idarəçiliklərin regionda söz sahibi kimi tanınması faktları da təsdiq edə bilər.

## ƏDƏBİYYAT


1. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Minarə, 2001, 224 s.
2. Алиев И. Истории Мидии. Баку: Елм, 1960, 360 с.
3. Azərbaycan tarixi.(Ali məktəblər üçün dərslik. Z.Bünyadov və Y.Yusifovun redaktorluğu ilə). Bakı: 1994, c. 58-60.
4. Кашкай С. Из истории Маннейского царства. Ваку: Елм, 1977, 176 с.
5. Məmmədov T. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, 2006, Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı,1994., Səfərov Y. Azərbaycanın qədim, erkən orta əsrlər dövrünün tarixşünaslığı. Bakı: Sabah, 1997, 336 s.
6. Azərbaycan tarixi. VII clilddə, II cild, (N.Vəlixanlının redaktorluğu ilə). Bakı: Elm, 1998, 556 s.
7. Aşurbəyli S. Şirvanşahlar dövləti.(VI-XVI əsrlər). Bakı: Azərnəşr, 1997, 405 s.



## РЕЗЮМЕ
## ИСТОРИЯ ГОСУДАРСТВЕННОСТИ АЗЕРБАЙДЖАНА В ДРЕВНИЕ И СРЕДНИЕ ВЕКА (I пол. III в. до н.э.- начало VI в. н.э.)

***Хасаев Т.Т., Байрамова У.М.***

***Ключевые слова:*** *Азербайджан, государство, Албания, Манна, управление*

Начало истории Азербайджанской государственности в III тыс. до н.э. и выход Маннейского централизованного государство на историческую арену с серьезными амбициями в регионе, наглядное свидетельство наличия еще с древнейших времен традиций государственности в Азербайджане. Распад Манны в IV тыс. до н.э. и образование Азербайджанских государств на юге

Атропатены, на севере Албании потверждает прочность государственных основ нашей страны, умение нашего народа в сложнейших условиях отстоять свою самостоятельность и идентичность.

**SUMMARY**
**ABOUT STATEHOOD HISTORY OF THE ANCIENT AND FIRST MIDLLE CENTURIES PERIOD IN AZERBAIJAN**
**(the first half of the III century bc, the beqinninqs of VI century AD)**
***Khasayev N.N., Bayramova U.M.***

***Keywords:*** *Azerbaijan, state, Albania, Manna, management*

Beqinninq of the Azerbaijan statehood history since the third millennium bc and an appearance of the Manna state on a historical stage as a central state are an arqument for prossesinq of the stable statehood tradition since the ancient periods in Azerbaijan.

After the collapse of the Manna in the 4 th century bc, creation of the Azerbaijan state in the south as Atropatena, in the nourth as Albaniya approves possession of the stable statehood foundadion and preservation of its existence in the most difficult instants.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 13.01.2017 |
| | Son variant | 16.03.2017 |

**UOT 94/99- 940.2**

# XIX ƏSRİN II YARISINDA SİBİRİN İQTİSADİ VƏZİYYƏTİ

**ƏHMƏDOV RÜSTƏM VƏLİ oğlu**
*Sumqayıt Dövlət Universiteti, dosent*
*e-mail: rustam814@ hotmail kom.*

***Açar sözlər:*** *burjuaziya, sənaye, zavod, ticarət, kapitalizm*

Rusiyada kapitalizmin inkişafı Sibirin onun mərkəzi rayonları ilə bərabər, ucqarlarında da gedirdi. Sibir ümumrusiya bazarına cəlb olunduğuna görə yeni sənaye sahələrinin yaranmasına ehtiyac qalmamışdı. Məsələn, gəlirli sahələrdən biri hesab edilən şəkər qamışının əkilməsi və onun istehsalı üçün ilk zavod tikilməsinə 1856-cı ildə cəhd olunmuşdur. Bu zavod Tomski quberniyasının Barnaul qəzasında tacir Şeqolov tərfindən açılmışdır. Zavodun ətrafındakı 6 desyatin torpaq sahəsində şəkər çuğunduru əkilmiş və yaxşı məhsul götürülmüşdür. O, maya dəyərindən 5% artıq gəlir götürmüşdür. Bu birinci cəhd Şeqolovu həvəsləndirdi, o daha böyük zavod tikdirmək üçün Almaniyadan mütəxəssis kimi mühəndis Brokmilleri dəvət etdi. Şeqolov həmin vaxt ölsə də, Brokmiller şəkər zavodunu tikdi. Zavod 300 desyatin torpaq sahəsinə, şəkər qaynatmaq üçün meşə sahəsinə malik idi. [1-50]

1888-ci ildə 30 desyatin sahədən 3 min pud məhsul götürüldü. Bu zaman 75 pud şəkər tozu və 20 pud rafinad alındı. 1839-cu ildə 7 min pud məhsul götürüldü və 200 pud şəkər alındı. Zavod 1861-ci ildə Aleksandrov adlandırıldı və məhsul alınması 720 puda çatdı. Zavod öz istehsalını dəyişib, spirt istehsal etməyə başladı. Zavod tullantılarından başqa, icazəsiz çörək-taxıl məhsullarından da spirt çəkdiklərinə görə onun rəhbərləri həbs olundular və zavod borc içərisində qalıb satıldı. Onsuz da cüzi əmək haqqı alan yerli türk fəhlələri işsiz qaldılar [2-170].

XIX əsrin 60-70-ci illərində Rusiyanın xarici ticarətində şəkər ticarəti mühüm əhəmiyyət kəsb etdiyinə görə onun istehsalına diqqət artırıldı. Buna görə 1 may 1884-cü ildə Türküstanda, Sibirdə və Qafqazda şəkər zavodlarının açılması haqqında qərar verildi.

1884-cü il qərarına əsasən Sibirdə-Yenisey quberniyasının Münüsun qəzasında Quşevin İvanov adında şəkər zavodu açıldı. Həmin zavodda şəkər istehsalı 28 min puda qədər idi. Zavod 1905-ci ilə qədər işlədi və onu almış tacir Paşennixin vaxtında bağlandı.

Ümumiyyətlə, şəkər çuğundurunun əkilməsində ən böyük fəallıq göstərənlər Sibirə gəlmiş köçkün-kəndlilər idi. Birinci dünya müharibəsi dövründə Ukraynada şəkər istehsalının azalması, Sibirdə şəkər istehsalına diqqəti daha da genişləndirdi.

Sibirdə ümumiyyətlə burjuaziyanın formalaşması 1861-ci il islahatına qədər baş vermişdi. 1861-ci il islahatında sonra və xüsusilə də, dəmir yolunun çəkilməsi bu prosesi daha da gücləndirdi.

Sibir burjuaziyasının əsasını tacirlər və imtiyazlı vətəndaşların bir hissəsi təşkil edirdi. XIX əsrin ikinci yarısından etibarən isə İrkutski, Verxneudinski, Kyaxtin tacirləri qızıl mədənlərinin, çaxır zavodlarının (Bazanov, Sibiryakov, Basnin, Trapeznikov, Qromov, Butin və s) sahibkarlarına çevrildilər. Keçmiş tacirlərin çoxu isə yeni kapitalist metodlarına keçə bilmədiklərinə görə iflasa uğrayıb yoxsullaşdılar.[3-302] Bəziləri isə öz ticarətini dayandırıb, pulları faizlə banklara qoydular. A.İ.Qronov, M.A.Kokovin kimi tacirlər isə öz əvvəlki vəziyyətlərini saxlamaqla bərabər, yeni təsərrüfat sahələrini də genişləndirdilər. Sənaye-ticarət kapitalının ən nəhəng nümayəndəsi L.Q.Qromov idi. XIX əsrin ikinci yarısnda Şərqi Sibirə gələn L.Q.Qromov burada çay, taxıl, un ticarət manufakturaları yaratdı. Qromovun çay firması çayı İrkutskiyə gətirir, habelə Ayan limanı vasitəsilə Oxotsk və Yakutsk vilayətlərinə çatdırır və böyük gəlir götürürdü [7-234].

XIX əsrin 70-ci illərində İ.Q.Qromov Yakutski vilayətinin Olekmin dairəsinin və Zabaykalye vilayətinin Akşin dairəsinin qızıl mədənlərini əlinə keçirdi. Qızıl mədənlərinə sahibliyi həm təkbaşına, həm də digər tacirlərlə birlikdə yerinə yetirirdi. 1897-ci ildə A.Qromovun firmalarında ilk çay nəqliyyat gəmiçiliyi “Lena” paraxodu işləməyə başladı. 1911-ci ildə artıq onun 4 paraxodu, 5 yük barjı var idi. Nəqliyyat vasitəsilə ticarət dövriyyəsi 1910-cu ildə 359831 manat təşkil etmiş təmiz gəlir isə 71027manat olmuşdu. Sibirdə yaranmış kapitalistlərdən Şərqi Sibirdə ticarət sahələri, Rusiyanın Avropa hissəsində isə sənaye mütəxəssisləri olan A.V.Vtorovs, Zabaykalyedə böyük ticarət və sənaye sahələrinə malik olan A.K.Kobılkini, çoxlu qızıl mədənlərinin və un-taxıl mağazalarının sahibi İ.V.Kulayevi, Zabaykalyedə qızıl ticarətinin rəhbərləri olan Şumovlar qardaşlarının və s. göstərə bilərik [5-377].

Tacir təbəqələri içərisində yəhudi (yevrey) tacirləri üstünlük təşkil edirdi. Şərqi Sibirdə bu tacirlərin çoxu vaxtilə bura sürgün olunmuşların nəsilləri idi. Məsələ: İrkutskidə yəhudilər daşınmaz əmlakın 15%-nə, sənaye-ticarət dövriyyəsinin 20%-nə nəzarət edirdilər. [6-140]

1 mart 1859-cu il qanunun əsaslarına görə, yəhudi tacirləri birinci gildiyaya daxil idilər. Bu gildiyanın nümayəndələri isə Leyboviç, Yermanoviç, Dambrovski və başqaları idilər. Çoxlu meşşan-yəhudilər öz kapitallarını qızıl istehsal müəssisələrinə qoymaqla milyonçulara çevrildilər. Bir çox yəhudilər Sibir kömür mədənlərinin də sahiblərinə çevrilimşdilər. Kənd təsərrüfatında da kapitalist müasibətlərinin yaranması kəndlilər arasında təbəqələşməyə səbəb olur və təsərrüfatını burjua üslubunda quran qolçomaqlar yaranırdı. Onlar əkinçilik və heyvandarlıq məhsulları ilə ticarət edir, sənaye-ticarət sahələrinə daxil olurdular. Məsələn: iş adamı M.E.Qlotov təhkimli kəndlilər içərisindən çıxmışdı. O, Lena çayı üzrə nəqliyyat daşımalarının və İlim duz emalı müəssisələrinin sahibkarı idi. Digər təhkimli kəndli İ.D.Perevalov Xaytın və Elov çini qablar fabrikinin sahibkarl idi. D.R Şelkunov, F.F.Kuznetsov da kəndlilər içərisindən çıxmış kapitalistlər idilər. 1873-cü ildə O.İ.Metelov ilə birlikdə “Şelkunov və Metelevin ticarət evi” firmasını, 1899-cu ildə isə “R.K.Selkinov və K”-nı yaratdı” [7-375].

T.K.Şelkunov 1900-cü ildə Nazarov, Vadimov və Nikolski kömürçıxartma mədənlərini ələ keçirdi. 1916-cı ildə 8 mln pud kömür hasil edilmişdir. İllik kapital dövriyyəsi isə 1 351309 manat olmuşdur. 1905-ci ildə həmin mədənlərdə elektrik stansiyası qurularaq, texniki dəyişikliklər edildi. Çilingər-tokar, dəmirçi, yayma, qazanxana və dülgər-model sexləri yaradılmışdır. Zavodda 22 müxtəlif dəzgah, presləmə dəzgahı, 2 mişar və diyircəkli dəyirman var idi. P.K.Şelkunov taxıl və un məhsulları ilə böyük ticarət edir və bu məqsədlə 1910-cu ildə Çeremxovada 7 dayaqlı dəyirman qurdurdu. Dəyirmanda 7 ay ərzində 120 min pud un alınırdı.

Sibirdə burjuaziyanın sonrakı hissəsi az miqdarda olan zadəganların hesabına yaranırdı. Onların əksəriyyəti burada çoxdan məskunlaşan şəxsi və nəsli zadəganların nümayəndələri idilər. Onlar öz kapitallarını inanılmış tacir-milyonçuların səhmlərinə qoyur və yaxud müəyyən istehsal sahələrinin alış-satışı ilə məşğul olaraq ticarət-sənaye işləri ilə məşğul olurdular. D.Yasinski (ticarətlə, sement sənayesi ilə), V.Komarovski, V.Sentneroviç, Tomaşevski polyak idilər [8-279].

Kapitalizmin geniş surətdə inkişafı Sibirin əzəli əhalisi olan xakasların, buryatların, evenklərin, tuvalıların, yakutların sosial iqtisadi həyatına güclü təsir göstərərək onun feodal-patriarxal xüsusiyyətini aradan qaldırdı, noyonların və toyonların timsalında uluslararası yerli burjuaziyasını yaratdı. Xüsusilə bu proses buryat noyonlarına təsir göstərdi və onların bir çox nümayəndələri ticarət və ticarət-sənaye işləri ilə məşğul olmağa başladılar. Bundan əlavə noyonlar əkinçi-maldar təsərrüfatlarından yığılan kapitalı da sənaye sahələrinə qoyurdular. Məsələn: 2-ci Aşexabat nəslinin ağsaqqalının oğlu A.Mixaylov öz kapitalını su dəyirmanlarının tikintisinə qoymuşdu. O, 1883-cü ildə çaxır zavodunun qurulmasında payçı kimi iştirak etdi. 10 paydan 3-ü ona məxsus idi [9-370].

Zavodun inşasına 1884-cü ildə 50 min manat gümüş pul xərclənmişdi. XIX əsrin 90-cı illərində zavod tamamilə A.Mixaylovun ixtiyarına keçdi. 1895-ci ildən zavod tam qüvvəsi ilə məhsul istehsal etməyə başladı. Tezliklə onun İvano-Andreyev çaxırçəkmə zavodunu öz əlinə alan

"Mixaylov yoldaşlığı K" fəaliyyət göstərdi. Çaxır çənlərinin tutumu 9 min vedrə idi. 1897-1898-ci illərdə zavod 120844 vedrə çaxır istehsal etmişdi. 1908-ci ildə o, yeni çaxır zavodunun qurulması üçün Abakan çay hövzəsindəki mis zavodlarını müddətsiz icarəyə götürdü. Çaxır çəkmə zavodlarında payçı kimi iştirak edən Buryat kapitalistləri tacir V.Xadeyev, noyonqolçomaq V.İvanov və İ.Pirojkov idilər. Pirojkov iri kənd təsərürrüfat sahələrinin, çoxlu dəyirmanların və s. sahələrin sahibkarı idi. O, həmçinin Aleksandr-Nevski adına çaxır zavodunun payçısı idi. Bu zavod isə Şərqi Sibirdə ən iri zavod idi. O, 1886-cı ildən 1899-cu ilə qədər öz payı müqabilində 89987 manat təmiz gəlir götürmüşdür. [10-150]

1902-ci ildə Xorin qolçomağı D.Dobdanov tacir İ.A.Zaquzin ilə birlikdə Xoxotuy stansiyasında ağac doğrama zavodu qurdular. Bu zavod hər il 80 min manatlıq məhsul buraxırdı. Buryat tarixçisi İ.A.Alsaxanovun fikrinə görə isə Buryat noyonları yalnız kənd burjuaziyasının rəhbəri ola bilərdi. Bununla o, kapitalizmin Buryatın hər yerində inkişaf etdiyini göstərmək istəyirdi. Rus tədqiqatçısı Y.P.Kolmanov isə buryat kəndlərində kapitalizmin inkişafını, rusların Sibirə gəlişi ilə əlaqələndirirdi. 1907-ci ildə Şərqi Sibirdə ticarət-sənaye burjuaziyasının 160, 1917-ci ildə isə 190 nəfər nümayəndəsi var idi. Onları həyat yoldaşları və orta hesabla 2 uşaq götürsək, 640-760 nəfər ola bilərdi [4-330[.

Sibirdə kapitalist münasibətləri ləng inkişaf edirdi. Belə ki, 10 il ərzində sənaye-ticarət burjuaziyası 12% artmışdı.

***Elmi yeniliyi:*** Rusiyanın Sibirdə apardığı yeni iqtisadi siyasət nəticəsində Sibirdə kapitalizmin sürətli inkişafını göstərən bazar münasibətləri təşəkkül tapır, fabrik zavod istehsalı inkişaf edir, regionlar arasında iqtisadi əlaqələr daha da güclənirdi.

***Tətbiqi əhəmiyyəti:*** Bu məqalədən tələbələr, müəllimlər və digər elm nümayəndələri öz elmi araşdırmalarında istifadə edə bilərlər.

## ƏDƏBİYYAT

1. Крашвнинников С.П. Описание земли Камчатки. Т.1, ч.2. М.-Л.: 1949, 220 с.
2. История Бурят – Монгольской АССР Т.1. Улан-Уде:1954, с.240-243.
3. Дулов В.И. Очерк социлъно-экономической истории Тувы XIX-XX в.в. (до 1917 г.) Автореф.доктор.диссертации, 1950, с.4-5.
4. Потапов Л.П. Очерки по истории алтайцев. М-Л.: 1953, с.134-162.
5. Словцев П. Историческое обозрение Сибири. кн.1. М.: 1838, с.438.
6. Стрелов Е.Д. Акты архивов Якутской области (с 1650 до 1800г). Якутск: 1916, с.29-31.
7. История Сибири. Т.1. Л.: Наука, 1968, с.350.
8. Очерки истории Сибири. Иркутск: 1971, с.273.
9. Гагамейстер. Статистическое обозрение Сибири. Иркутск:, 1969, с. 370.
10. Вопросы истории. №9. Москва: 1968, с.150.
11. Берг Л.С. Байкал, его природа и значение в народном хозяйстве. М.: Наука, 1948, с.234.
12. Народы и языки Сибири. Сб. статей. Новосибирск: 1980, с.290.
13. Народы Сибири. М-Л.: Наука, 1965, с.375.
14. Потопов Л.П. Краткие очерки истории и этнографии Хакасов (XIX-XX в.в.). Абакан: 1952, с.377.
15. Пыпин А.Н. История русской этнографии. СПб.: 1892, с.170.
16. Сватиков С.Г. Россия и Сибирь. Прага: 1929, с. 279.

## РЕЗЮМЕ

## ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ СИБИРИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА

***Ахмедов Р.В.***

***Ключевые слова:*** *буржуазия, промышленность, завод, торговля, капитализм*

Развитие капитализма в России во второй половине XIX века оказало сильное влияние на развитие экономики в Сибири и ее окраинах. Для обеспечения центральных регионов сырьем в Сибири открывались новые комбинаты, заводы, формировались новая буржуазия и рабочий класс.

Сформированная новая буржуазия состояла из русских капиталистов, представителей зарубежных капиталистов, еврейских купцов и местных племенных лидеров. Капитализм быстро внедрялся во все регионы Сибири, выводя ее на общероссийские и мировые рынки.

**SUMMARY**

**THE ECONOMIC SITUATION IN SIBERIA IN THE SECOND PART OF XIX CENTURY**

***Akhmedov R.V.***

***Keywords:*** *bourgeoisie, industrial, factory, trade, capitalism*

The development of capitalism in Russia in the second half of the XIX century had a profound impact on the economic development of Siberia and its outskirts. For the central regions of the raw materials in Siberia opened new factories, plants, formed a new bourgeoisie and the working class. Formed new bourgeoisie consisted of Russian capitalists, representatives of foreign capitalists, Jewish merchants and local tribal leaders. Capitalism rapidly deploy in all regions of Siberia, bringing it to the national and world markets.

Daxil olma tarixi: İlkin variant 14.10.2016

Son variant 16.03.2017

**UOT 93/99**

# II DÜNYA MÜHARİBƏSİNDƏN SONRA TÜRKİYƏNİN SOSİAL-İQTİSADİ VƏ SİYASİ VƏZİYYƏTİ

**ƏSƏDOVA AYTƏN VAQİF qızı**
*Sumqayıt Dövlət Universiteti, müəllim*
*e-mail: Arv_321@mail.ru*

***Açar sözlər**: xalq, islahat, ticarət, seçki, partiya, müharibə*

II Dünya müharibəsində SSRİ-nin və ona tərəfdar olan dövlətlərin qələbəsi imperializm cəbhəsinə böyük zərbə vurdu. Almaniya və Yaponiya imperalizmi darmadağın edildi. Mərkəzi və Cənub şərqi Avropa ölkələrinin kapitalist sisteminə də ağır zərbə vuruldu. II Dünya müharibəsindən sonra Türkiyə hökumətinin daxili, sosial-iqtisadi və siyasi həyatında olduğu kimi, xarici siyasətində də dəyişikliklər oldu. İ.M.Lavrov qeyd edir ki, bu dəyişikliklər Balkanlarda da özünü göstərdi, bu da SSRİ-nin qələbəsi ilə əlaqədar idi. Bu hadisələr türk xalqının demokratik cəmiyyətin qurulmasına can atmasını da gücləndirdi. Torpağı əlindən alınmış Türkiyə kəndlisi Bolqariya, Albaniya, Rumıniya və sair ölkələrdə xalq hərəkatının aqrar rejiminin dəyişməsi xəbərlərini ümidlə qarşılayırdılar. Kəndlilər torpağın mülkədarlardan alınıb onlara qaytarılmasını səbirsizliklə gözləyirdilər. Bununla da ölkədə demokratik hərəkat get-gedə yüksəlirdi. Hakim dairələrə qarşı xalqın narazılığının artdığı bir şəraitdə Türkiyə hökuməti ABŞ ilə daha çox yaxınlıq edirdi. Bu da sərhədləri Türkiyə ilə qonşu olan SSRİ-nin maraqlarına tam zidd idi. Türkiyə bu dövrdə ABŞ və İngiltərədən iqtisadi yardım alırdı. Bunu da qeyd etmək lazımdır ki, Türkiyə iqtisadiyyatı, demək olar ki, bütün sahələrdə ciddi çətinliklərə məruz qalsa da, xarici valyuta ehtiyatlarının çox böyük miqdarda artımı baş vermişdir. Hələ müharibə illərində Türkiyənin xarici ticarətində ABŞ-ın rolu xeyli artmışdır. ABŞ şirkətləri ingilislərlə birlikdə bu ölkədə alman şirkətlərinə qarşı ticarət müharibəsi aparırdı və Türkiyənin əsas ixrac məhsullarının alıcılarına çevrilmişdir. Əgər 1941-1944-cü illərdə Türkiyə ixracatında ABŞ-ın payı 14-24% arasında dəyişirdisə, müharibədən sonra bu rəqəm 44 faizi keçirdi, bunun səbəbi müharibədən sonrakı illərdə ABŞ-Türkiyə yaxınlaşması ilə xarakterizə edilirdi[1]. Müasir elmi ədəbiyyatlarda bu bəhs edilən tədbirlər Türkiyənin daxili iqtisadi həyatına dünya müharibəsinin gətirdiyi çətinliklərin az-çox dərəcədə də olsa, qarşısının alınması kimi qeyd edilirdi. Lakin sovet tarixşünaslığında isə Qərb imperializminin yardımının Xalq Respublika Partiyasının (XRP) vəziyyətini heç də yaxşılaşdırmadığı qeyd edilirdi. 1945-ci il may ayının 19-unda Türkiyə prezidenti İ.İnönü Avropada müharibələrin başa çatması ilə bağlı çıxış etdi. Prezident çıxışında qeyd etdi ki, ölkədə demokratik rejimə keçiləcək bu mühüm hadisələrin başında C.Bayar, R.Koraltan, F.Koprülü və A.Menderes tərəfindən imzalanan bir təklifin ÇXR Məclis qrupu başqanlığına təqdim edilməsi dururdu. Artıq 1945-ci ildə iyunun 18-də Milli dirçəliş partiyası yaradıldı. Bunu da II Dünya müharibəsindən sonra iki super güc ABŞ və SSRİ liderliyi altında Qərb və Şərq bloklarına, yəni demokratik və kommunist cəbhəsinə bölünməsi və Türkiyənin öz yerini demokratik cəbhədə müəyyənləşdirməsi ilə izah etmək olar. Lakin onu da qeyd etməliyik ki, hər iki tərəf Türkiyəni öz maraq və məqsədlərinə uyğun inkişaf etdirməyə çalışırdı. 1945-ci ilin iyununda Məclisə boş yerlərə «azad» seçki keçirilməsi elan edildi[1]. 1945-ci ilin sonunda Türkiyə Böyük Millət Məclisi (TBMM) sığorta haqqında qanun qəbul etdi. Bu qanun bədbəxt hadisələr, uzunmüddətli xəstəliklər və hamiləliklə əlaqədar olaraq, fəhlələri sığorta etməyi nəzərdə tuturdu. Bu qanun fəhlələrin ictimai sığorta haqqındakı tələblərini təmin etmirdi. Bu qanun şəhər yoxsullarının cəmi 25 faizinə şamil edilirdi. Bu qanunun qəbulundan sonra fəhlələri istismardan mühafizə etmək üçün əmək nazirliyi də

yaradıldı. Hələ 1945-ci ildə aqrar islahat haqqında Türkiyə Böyük Millət Məclisində qanun qəbul olundu. Bu «Kəndlilərə torpaq paylamaq» haqqında qanun idi. Qanuna görə torpaqsız kəndlilərə dövlət fondundan və ya iri sahibkarlıqdan torpaq almaq hüququ verilirdi. Bu torpağı kəndlilər dövlət fonduna 20 il müddətinə ödəniş ödəməklə almaq hüququna malik olurdular. «Kəndlilərə torpaq paylamaq haqqında qanun» (Türk dilində isə «Çiftçi torpaqlarının qanunu») türk hökuməti tərəfindən çox şişirdilirdi. Həmin dövrdə prezident olan İsmət İnönü bu islahatı 20 il ərzində həyata keçirilən qanunların ən görkəmlisi adlandırmışdır[3]. İlk torpağı isə torpaqsız kəndlilər, sonra kiçik torpaqları olanlar, sonra başqa ölkələrdən gələnlər və daha sonra isə müharibədən gələnlərə verirdilər. Türkiyə hökuməti iqtisadi güzəştlərlə bərabər, siyasi güzəştlərə də getdi. TBMM-də müstəqil seçki haqqında qanun qəbul edildi. Eyni zamanda mətbuat azadlığınada icazə verildi. Bu işdə jurnalistlərdən Zəkəriyyə Sertel, Sabihə Sertel, F.Erkməm, yazıçı Suod Dervis Səbahəddin Əli və başqaları mühüm rol oynayırdılar. Yazıçı Səbahəddin Əlinin nəşr etdiyi satirik jurnal «Mərhum paşa» ABŞ yönümlü siyasət yürüdən Türkiyə hökumətini tənqid edirdi. Bu da, əsasən, sovetpərəst qüvvələrin maraqları ilə üst-üstə düşürdü. Onu da qeyd etmək lazımdır ki, Türkiyə hökumətinin bu addımı, yəni qərbyönümlü siyasəti onun iqtisadi asılılığından irəli gəlirdi. Bu da başda ABŞ olmaqla, bu dövrdə SSRİ-yə qarşı, sosializmə qarşı həyata keçirilən «Soyuq müharibə»nin bir dalğası idi. «Soyuq müharibə»nin əsasını və mahiyyətini antikommunizm və antisovetizm təşkil edirdi. Qeyd edək ki, bu cür məsələlər ayrı-ayrı partiyaların proqramlarında da öz əksini tapmışdır. Buna əsas misal Demokrat Partiyasını göstərə bilərik. Onu da qeyd edək ki, Demokrat Partiyasının proqramı iqtidar ÇXR-nın proqramı ilə eynilik təşkil edirdi. Lakin DP-sı, əsasən, «özəl təşəbbüs və kapital»ın imkanlarını genişləndirmək və iqtisadi çətinlikləri aradan qaldırmaq zərurətini ön plana çəkirdi. Bu isə amerikan şirkətlərini ölkəyə sərmayə qoymağa sanki səsləyirdi. Təbii hal idi ki, türk cəmiyyətində yeniliyə can atan çoxlu siyasi və iqtisadi qüvvələrin mövcudluğu, digər tərəfdən isə uzun illər boyu iqtidarda olmuş ÇXR-nın (Cümhuriyyət Xalq Partiyası) yürütdüyü siyasətdən narazılıqlarını olması get-gedə DP əhatə dairəsini genişləndirdi. 1946-cı il iyul ayının 21-də TBMM-nə seçkilər keçirildi. Bu seçkilər bir sıra tədqiqatçılar tərəfindən heç də birmənalı qarşılanmadı. Hətta seçkilər DP-nin narazılığı ilə müşayiət olundu. Lakin bütün bu hallara baxmayaraq, bu seçkilər Türkiyə tarixində parlamentin müxtəlif siyasi qüvvələrdən təşəkkül tapmasının başlanğıcını qoydu. Nəticədə ÇXR (eyni zamanda Xalq Respublika Partiyası) 465 deputat yerindən 402 yer qazandı[4]. Demokrat partiyası 63 mandat, müstəqillər isə 7 mandat qazandılar. 1946-cı ildə İstanbul, İzmir, Ankara, Adana, Zonqullaq və başqa şəhərlərdə həmkarlar ittifaqı yarandı. Az müddət ərzində həmkarlar ittifaqının sayı 30-u keçdi. Əslində DP fəhlələrə bərabər hüquqların verilməsi, ölkə iqtisadiyyatının sərmayə qoymaqla dirçəldilməsinə çalışırdı. Bir sözlə, bütün mövcud olan vəziyyətlər DP-nın ABŞ-la yaxınlaşdırmağa və xarici kapitalın ölkəyə satılması prinsipinə uyğun hərəkət etməsinə gətirib çıxarırdı. 1946-cı ildə TBMM-yə I sessiyanın yeni çağırışı keçirildi. Respublika prezidenti İsmət İnönü, baş nazir isə keçmiş XRP-nin baş katibi Rəcəb Peker seçildilər[5]. Yeni hökumətin seçilməsi ölkənin hərbi siyasi rejimini möhkəmlətmək və demokratik hərəkatın genişlənməsinə yönəlirdi. Xarici siyasətdə isə Türkiyə Böyük Britaniyanın və ABŞ-ın antikommunist siyasətini dəstəkləyirdi. Türkiyə II Dünya müharibəsindən sonra bu xətti özünün hərbi strateji xətti hesab edirdi. Buna səbəb olan vasitələrdən biri də Rusiya ilə olan problemlər idi. Belə ki, 1946-cı ildə Rusiya Montro sazişinə yenidən baxılmasına başlayırdı[7]. Rusiyanın bu addımı Türkiyənin boğazlar məsələsində problem yaradırdı. Qeyd edək ki, bu saziş 1936-cı ildə Montroda bağlanmış boğazlar haqqında konvensiya idi[8]. Bütün çətinliklərlə yanaşı, müharibədən sonrakı dövrdə ən kəskin və mühüm dövr iqtisadiyyatın dirçəldilməsi idi. II Dünya müharibəsi illərində ordunun saxlanılması Türkiyə sənayesinə və əhalinin əmək qabiliyyətinə mənfi təsir etmişdi, sənayenin inkişafı və nəqliyyatın bərpası, kənd təsərrüfatının yenidən qurulması, eyni zamanda digər bir sıra məqsədlər üçün Türkiyəyə yalnız xaricdən kömək lazım idi. «Soyuq müharibə»nin əsasını təşkil edən Qərblə yaxınlaşma prinsipi ordunun saxlanılması üçün sərf edilən xərclərin getdikcə artmasını tələb edirdi. 1940-1948-ci illərdə müdafiə üçün olan xərclər bütün

dövlət xərclərinin 53%-ini təşkil edirdi[8]. 1949-cu ildə isə büdcənin 41%-dən çoxu hərbi məqsədlər üçün ayrılmışdır. İqtisadiyyatın inkişafı üçün Türkiyə hakim dairələri ABŞ-ın maraqlarını ölkə iqtisadiyyatının maliyyələşdirilməsinə cəlb etməyə çalışırdı. Böyük dünya siyasətində rəqib olan SSRİ-nin, qonşuluğunda hərbi məntəqələr yaratmaqda maraqlı olan ABŞ-ın Türkiyəni seçməsinə və ona iqtisadi yardım etməsinə gətirib çıxardı. 20-30-cu illərdə Türkiyə iqtisadiyyatına aid bir sıra dəyərli elmi əsər və məqalənin müəllifi olan İ.Penin hesablanmalarına görə, yalnız 1937-ci ildə Almaniya Türkiyədən 152 min ton taxıl, 36 min ton meyvə, 17 min ton tütün, 10 min ton pambıq və yun, 58 min ton mədən xromu idxal etmiş, əvəzində Türkiyəyə gəmi və gəmiçilik avadanlığı, dəmiryolu və hava nəqliyyatı vastələri, hərbi ləvazimat, toxuculuq məhsulları və uşaq oyuncaqları satmışdır. Ümumilikdə isə müharibə ərəfəsində Almaniyanın tütünə olan ehtiyacının 24%-ini qoz və fındığın 21%-ini, pambığın 27%-ini, yunun 19%-ini Türkiyədən olan idxalat hesabına təmin edilmişdir[9]. Müharibədən sonrakı ilk illərdə bu cür ixracat ancaq ABŞ-a icazə verildiyindən digər dövlətlər Türkiyənin bu yeni ixracat rejimindən narazılıq edirdilər. 1947-ci il avqust ayının 15-də ixracata aid yeni qərarın qəbul edilməsi ilə əvvəlki ixracat rejimi bir qədər yumşaldıldı. II Dünya müharibəsindən sonra kapitalist ölkələri sərbəst ticarət və ya «azad» valyuta ilə ticarət etməyə nail oldular. Lakin sistemdə olunan dəyişiklik Türkiyənin daxili iqtisadi çətinliklərini artırmış oldu. Eynilə Türk lirəsinin dəyəri də aşağı düşdü. Dövlət xəzinəsində boşluq və ölkədə qızıl ehtiyatının azalması getdikcə daha da çox hiss olunurdu: təkcə 1947-ci ilin 10 ayı ərzində ölkədə qızıl ehtiyatı 190 milyon lirə azalmışdır. Bu tənəzzül sonrakı illərdə də davam etmişdir. Baş verən çətinliklərlə əlaqədar olaraq 1948-ci ildən Türkiyə hökuməti ixracat rejimi haqqında yeni bir qanun qəbul etdi. Bu ideya 1948-ci ildə keçirilən Türkiyə iqtisadi konfransında müxtəlif düşüncəli mütəxəssislər tərəfindən irəli sürülmüşdür. Lakin ticarət siyasətində yenə də bir sıra çətinliklər var idi. Bununla əlaqədar olaraq, 1949-cu ildə sentyabrın 9-da Türkiyə hökuməti xarici ticarət rejimi haqqında yeni qərar qəbul etdi. Bu rejim həm ixracata, həm də idxala aid edilirdi. Bir sözlə, Türkiyə II Dünya müharibəsindən sonra işğalçılıq siyasəti yürüdən və xalqların azadlığını boğan SSRİ-yə qarşı əks siyasət yürüdürdü. Bir çox sosialist ölkələri ilə Türkiyənin tədiyyə sazişi yox idi. Beləliklə də, idxalat və ixracata aid edilən yeni rejim Türkiyəni bu ölkələrlə ticarət əlaqələrindən uzaqlaşdırırdı. Ölkə iqtisadiyyatının dirçəldilməsi üçün xarici kapitalın qoyuluşu siyasətini dəstəkləyən TDP sonralar seçkilərdə qalib gəldi. Belə ki, 1950-ci ilin mayında Türkiyədə xüsusi əhəmiyyətli hadisə baş verdi. Xalq Respublika Partiyası hakimiyyətdə Demokratik Partiya ilə əvəz olundu. DP seçkilərdə 53,7% səs və məclisdə 83,7% yer aldı. XRP isə 39,3 səs və 14.1 % yer aldı və uduzdu[10]. Bir sözlə, 1950-ci il may seçkilərində DP 396, XRP 68, Milli 1, bitərəf isə 7 səs qazandı. Beləliklə, 27 il hakimiyyətdə olan XRP (CXP) hakimiyyətinə son qoyuldu. Türkiyə Böyük Millət Məclisi (TBMM) Cəlal Bayar ölkə prezidenti, Adnan Menderesi isə baş nazir seçdi. Qeyd edək ki, Cəlal Bayar bundan əvvəl ticarət, iqtisadiyyat və baş nazir vəzifələrində işləmişdir. Bayar-Menderes hökuməti xarici ticarət siyasətini də Qərbin maraqlarına uyğunlaşdırırdı. Bu da xarici dövlətlərin Türkiyə bazarında sərbəstliyinə gətirib çıxarırdı. II Dünya müharibəsində və müharibədən sonrakı illərdə Sovet-Türkiyə münasibətlərində əmələ gələn soyuqluq yeni hökumətin dövründə (1950-1960) daha da şiddətləndi. Bu isə özünü iqtisadi münasibətlərin bütün sahələrində göstərdi. Hətta İzmir yarmarkasında müntəzəm iştirak edən Sovet İttifaqı müharibədən sonra bir müddət yarmarkada iştirak etmədi. Məşhur ABŞ jurnalisti V.Lippmon Amerikanın hərbi siyasətinin iç üzünü açaraq yazırdı: “Biz Yunanıstan və Türkiyəni ona görə seçmişik ki, onların xüsusi köməyə ehtiyacı var, ona görə seçmişik ki, onlar Sovet ittifaqına və Qara dənizə strateji yollar açırlar”[11]. Hətta türk hökuməti bu dövrdə SSRİ rəhbərləri ilə istənilən danışıqlardan imtina edə bilərdi. Xarici siyasətdə, əsasən, iqtisadi inkişaf prinsipini əsas götürən Bayar- Menderes hökuməti bu siyasəti daxili siyasətdə də tətbiq edirdi. Lakin daxili siyasətin əsasında konstitusiyaya uyğun gəlməyən qanunların seçilib çıxarılması və bu qanunların demokratik şəkildə icrası dururdu. 1951-ci ilin avqust ayında Türkiyə hökuməti «Xarici kapital qoyuluşu» haqqında qanun imzaladı ki, bu qanun da xaricilərin nəzarətini, xüsusilə də, Amerikanın Türkiyəyə tam kapital qoyuluşuna azad şərait

yaratdı. Bu dövrdə ABŞ Dövlət Departamentinin orqanı olan «Foreign Affairs» jurnalı yazırdı ki, bu qanun Türkiyəyə xarici kapital qoyuluşu üçün mühüm strateji şərait yaradılırdı. Türk hökuməti bu məsələ ilə bağlı sonralar daha mükəmməl şəkildə işlənilmiş qanunlar qəbul etdi.

***Elmi yeniliyi:*** Məqalədə II Dünya müharibəsindən sonra Türkiyənin dövlət siyasətinə müxtəlif yanaşmalar bir araya gətirilir. Eyni zamanda Türkiyənin yürütdüyü daxili və xarici siyasətin strateji və siyasi maraqlarına aydınlıq gətirilir. Məqalədə məqsəd ABŞ-Türkiyə münasibətlərinin yaxınlaşma səbəblərini öyrənmək və araşdırmaqdır.

***Tətbiqi əhəmiyyəti*:** Mövzunun işlənməsi və əməli əhəmiyyəti bizə bir daha ABŞ-ın Yaxın Şərq siyasətini, SSRİ-nin işğalçı planlarını və bundan doğan Türkiyənin xarici siyasətini göstərir.

## ƏDƏBİYYAT


1. Rafiq İsmayılov, Nərgiz Axundova, Aida Bagirova. Asiya ölkələrininin çağdaş tarixi II kitab. Cənub-Qərbi Asiya və Şimali Afrika 1945-ci ildən sonrakı dövr. Bakı: Çaşıoğlu, 2003, s.71.
2. Данилов В.И., Моисеев П.П., Шамсутдинов А.М. Турецкая республика. М.: Наука, 1975, с.249.
3. Лавров Ш.М. Турция в 1918-1956 годах. М.: Наука, 1977, с. 35.
4. А.М.Шамсутдинов. Турецкая республика. (Краткий очерк истории). М.: 1962, с.56.
5. Всемирная история. Том XI. М.: 1977, с.214 (750).
6. Prof. Lr. Robert Montrian. Ter. edən. Süslü Türkiyə tarixi. Ankara: 1986, s.81.
7. Beynəlxalq hüquq. Bakı: Qanun, 2002, s.580 (752).
8. Ахундов И.А. Неоколониализм и Турция 40-80-е гг. Баку: 1990, с.24 (399).
9. Əkrəm Bije. Türkiyənin xarici ticarət siyasəti 1920-1980. Bakı: Elm, 1987, s.93 (205).
10. Новичев А.Д. Турция. Краткая история. М.: 1965, с.203 (270).
11. История дипломатии. Том V, М.: 1974, с.250 (750).



## РЕЗЮМЕ
## ПОЛИТИЧЕСКОЕ И ОБЩЕСТВЕННО-ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ ТУРЦИИ ПОСЛЕ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

***Асадова А.В.***

***Ключевые слова:*** *люди, реформы, торговля, выборы, партия, война*

В статье говорится о положении Турции после Второй мировой войны, а также о ее послевоенном состоянии, экономических трудностях, общественно-политической жизни. Автор рассматривает деятельность правящей партии Турции на том этапе, внешнюю политику и торговлю. Обсуждаются причины сближения Турции с США.



## Summary
## POLITICAL AND SOCIOECONOMICAL SITUATION IN TURKEY AFTER THE WORLD WAR II

***Asadova A.V.***

***Key words*:** *people, reformation, trade, election, party, war*

In this article is discussed about the situation in Turkey after the World War II, about its post war period conditions, economical difficulties, political and social history. The investigations are about the Turkeys ruling party, the government's foreign policy and trade for that period. It is also discussed about the reasons Turkeys leaning on USA.



Daxil olma tarixi: İlkin variant 02.12.2016
Son variant 16.03.2017

**UOT 336.1**

# XARİCİ ÖLKƏLƏRDƏ MÜHASİBATLIQ FƏALİYYƏTİ (ABŞ-ın timsalında)

**[1]ABDULLAYEV LOĞMAN İMRAN oğlu**
**[2]QULUZADƏ ÇİNARƏ ƏLİBƏY qızı**
*Sumqayıt Dövlət Universiteti: 1-dosent, 2-laborant*
*e-mail:* cinarequluzade1994@gmail.com

***Açar sözlər***: *mühasib, biznes, maliyyə, beynəlxalq standart, idxal, ixrac, uçot*

Müasir dünyanın iqtisadi inkişaf xüsusiyyətlərinin təhlili bilavasitə səmərəli uçot sisteminin qurulması ilə əlaqədardır. Yerli istehsalın, xidmətin təşkili, idxal-ixrac münasibətlərinin formalaşması hər bir halda uçot hesablama sisteminin müasir tələblərə uyğunlaşmasını və mühasibat işinin təşkilini tələb edir. Mühasibat uçotunun ilkin tarixi qədim Mesopotomiyada ilk yazının, sayların yaranması ilə bağlı olmuş və bundan sonra XIII-XIV əsrlərdə uçotda ikili yazılış yaranmışdır. Mühasibat uçotu bir iqtasadi elm kimi Benedetto Kotçuli və Luka Paçioli tərəfindən şərh edilmişdir. Ümumən mühasib fəaliyyəti insan cəmiyyətinin inkişafı ilə əlaqədar olaraq insanlara məxsus olan əmlakın uçotunun aparılmasının labüdlüyü əsasında yaranmışdır. İlk olaraq maddi nemətlərin inkişafı ilə əlaqədar onların sayılması, ölçülməsi, çəkisinin müəyyən olunması, mənfəət və xərclərin hesablanması və onların uçotunun aparılması mühüm məsələ kimi qarşıda dururdu.

Beləliklə, insan cəmiyyətinin yaranmasının müəyyən inkişaf səviyyəsi dövründə aparılmış əməliyyatların həcmindən və miqdarından asılı olmayaraq iqtisadi göstəricilərin oxunması, müəyyənləşdirilməsi, baş vermiş təsərrüfatsızlığın qarşısının alınması mühüm problemə çevrildi. Tarixi inkişafın ilk dövrlərində insanlar hesablamanın nə olduğun bilmirdilər və eyni zamanda ibtidai icma quruluşu dövründə insanların saymağa, hesablamağa da elə bir əşyaları olmamışdır. Lakin cəmiyyət inkişaf etdikcə mövcud olan əşyaların uçotunun aparılması həlli vacib məsələ hesab edilirdi. İnsan cəmiyyətinin inkişafı ilə əlaqədar olaraq uçotun planlaşmada, təsərrüfat fəaliyyətinin idarə olunmasında xüsusi yeri müəyyən olunmuşdur və uçot işi ilə müəyyən şəxslər məşğul olmağa başlamışlar. K.Marks həmin dövrdə uçotun aparılması haqqında yazmışdır ki, «kəndli icmalarında kənd təsərrüfatı məhsullarının uçotunun aparılmasında mühasiblər fəaliyyət göstərirdilər». Həmin şəxslərin uçot işçisi kimi saxlanılması xərclərini kəndli icmaları ödəyirdi və bununla da tarixi inkişaf əsasında ayrı ayrı təsərrüfat sahələrində uçotun təşkili mühasib peşəsinin formalaşmasına səbəb olmuşdu. XX-ci əsrin 20-ci illərindən sonrakı dövrdə uçot peşəsi ilə məşğul olan şəxslər rus dilində səslənən «buxqalter» sözü ilə ifadə olunmuşdur. Tarixi yanaşma əasında isə «buxqalter» termini alman dilindən tərcümə olunmuş və I Pyotrun fərmanı əsasında müəyyənləşdirilmişdir. Azərbaycanda dövlətçiliyin ilk inkişaf mərhələlərində «Mühasib» vəzifəsi «Hesabdar», «hesablayıcı» sözləri ilə ifadə olunmuşdur [2]. Mühasibat uçotu tarixi ilə məşğul olan alimlərin yazdıqlarına görə, insan cəmiyyətinin inkişafı ilə əlaqədar olaraq mühasib vəzifəsinin mövqeyi də dəyişmiş və mühasib vəzifəsi yüksək səviyyədə hörmətə malik olan peşə hesab olunmuşdur. Qeyd olunanlara misal olaraq deyə bilərik ki, İtaliyada mühasiblər hazırlayan xüsusi məktəblər təşkil olunmuş, ölkə tacirləri öz uşaqlarının həmin məktəbdə təhsil almalarına həvəs göstərmişlər.

XVII-ci əsrdə mühasibat uçotuna balans anlayışı əlavə olunmuşdur. Müəssisə balansında təsərrüfat-maliyyə əməliyyatları nəticələrinə dair geniş informasiyalar əks olunmağa başlamış və bundan sonra mühasibat uçotunda sintetik və analitik hesabların istifadə olunması normal və əsaslandırılmış hal kimi qəbul olunmuşdur. Məşhur İran mütəxəssisi B.Solozano 1603-cü ildə

yazmışdır: "Mühasibat uçotu bütün elm və incəsənətdən yuxarıda durur, çünki onların hamısının uçota ehtiyacı olduğu halda uçotun heç kimə ehtiyacı yoxdur. Mühasibat uçotu olmadan, yəqin ki, dünya idarə olunmaz olardı və insanlar bir-birini başa düşməzdilər" [3]. XVIII-XIX əsrlərdə mühasibat uçotu geniş mənada bir elm olduğunu göstərdi. Mühasibat uçotunun inkişaf tarixi bir neçə əsri əhatə edir və bu dövrdə hər bir ölkə mütəxəssisləri mühasibat uçotunun daha da inkişafı və mühasib peşəsinin təkmilləşdirilməsi üçün özlərinin əsaslı fəaliyyətlərini göstərmişdilər. Mühasibat uçotunun ümumi prinsipləri ilə yanaşı, hər bir ölkədə milli uçot məktəbi inkişaf etmiş və bununla da ölkələrin iqtisadi xüsusiyyətləri əks olunmuşdur. Hal- hazırda dünya ölkələrində müxtəlif təsərrüfat fəaliyyəti ilə əlaqədar yeni informasiyalara olan tələbat elə səviyyədə artmışdır ki, onlar haqqında hətta bir neçə il əvvəl düşünmək belə mümkün deyildi. Beləliklə, mühasibat uçotunun dünya ölkələri arasında iqtisadi inteqrasiyanın genişlənməsi böyük miqdarda beynəlxalq korporasiyaların yaradılması uçotun milli metodoloji və texniki prinsiplərinin icra olunmasında müəyyən çətinliklər ortaya çıxardı. XX-ci əsrin 70-ci illərində uçot sistemləri arasında olan fərqli prinsiplərin olması da çətinliklərə səbəb olurdu və bu şəraitdə dünya ölkələrində mühasibat uçotunun standartlaşması ideyası ortaya çıxdı. Nəticədə, 29 iyun 1973-cü ildə Mühasibat uçotu beynəlxalq standartlar Komitəsi yaradıldı və bu günə kimi 41 adda Beynəlxalq standart hazırlanmışdır. Müasir dövrdə mühasibatlıq bütün təsərrüfat sahələrində maliyyə əməliyyatlarının uçotu ilə yanaşı - planlaşdırma idarəetmə qərarlarının qəbul olunmasını, müəssisə fəaliyyətinin təhlilini və qiymətləndirilməsini yerinə yetirir [1].

Mühasib peşəsinin fəaliyyətini layiqli qiymətləndirmək və onların təsərrüfat fəaliyyətində rolunu artırmaq məqsədilə mühasiblərin 1946-cı ildə keçirilən beynəlxalq konqresində mühasibin gerbi təsdiq edilmiş və bu münasibət mühasib peşəsinin rolunun daha da artdığını və həmin ixtisasa olan marağın genişləndiyini nümayiş etdirmişdir. Mühasibin ən vacib keyfiyyəti onun prinsipiallığı, həqiqətə olan iradəsi və vicdanının tələbi üzrə işləmək əsasında mövcud olan ölkə qanunvericiliyinə uyğun prinsipləri yerinə yetirməkdir. Mühasibin diqqətlilik, düzgünlük, əməksevərlik, dözümlülük keyfiyyətlərinə malik olması vacib şərtlərdir. Azərbaycan Respublikası müəssisələrində mühasibat xidməti 24 mart 1995-ci il tarixli "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası qanunu ilə tənzimlənir. Həmin Qanuna görə, müəssisələrdə mühasibat xidmətini onun müstəqil struktur bölməsi olan mühasibatlıq həyata keçirir. Mühasibatlıq işlərinə rəhbərlik baş mühasib tərəfindən icra olunur. Müəssisənin baş mühasibi müəssisə tərəfindən həyata keçirilən bütün təsərrüfat əməliyyatlarının mühasibat uçotu hesablarında düzgün əks etdirilməsini, ona nəzarəti, operativ məlumatların təqdim edilməsini, mühasibat hesabatlarının müəyyən edilmiş müddətlərdə tərtib və təqdim edilməsini, təsərrüfatın daxili ehtiyatlarının aşkara çıxarılmasını, müəssisənin maliyyə təsərrüfat fəaliyyətində iqtisadi təhlilin həyata keçirilməsini təmin edir.

Peşəkar mühasib mütəxəssislərin hazırlanması təcrübəsini ABŞ-ın timsalında nəzərdən keçirək. ABŞ-da mühasib ixtisasının iki yüz ildən artıq inkişaf tarixi vardır və dünya ölkələri uçot sistemində yüksək etibar qazanmışdır. Sahibkarlıq fəaliyyətində mühasiblik üzrə biznes daimi və mənfəətli sahələrdən biri hesab olunur. Kütləvi ixtisaslar içərisində mühasib ixtisası ən yüksək ödənişli, geniş yayılmış, nüfuzlu ixtisas sayılır. Qeyd olunanlarla yanaşı, mühasib biznesi daha məsuliyyətli sahibkarlıq fəaliyyəti hesab olunur. Mühasib fəaliyyəti üzrə boş yeri tutmaq üçün iddiaçı bir sıra mürəkkəb keyfiyyət göstəriciləri üzrə sınaqdan keçməlidir. ABŞ-da ancaq «Diplomlu ictimai mühasib» rütbəsi olan şəxslər, yəni ali təhsil keyfiyyətinə malik mütəxəssis-mühasiblər peşəkar, etik normalara cavab verən şəxs hesab olunur. Belə rütbə ancaq müstəqil mühasiblərin Mili Assosiasiyası tərəfindən verilir. Bu adı almaq istəyən şəxsin ali universitet təhsili, aşağı mühasib vəzifələrində işləmək-təcrübəsi olmaqla, müstəqil mühasiblər assosiasiyasında xüsusi tərtib olunmuş proqram üzrə imtahan verməlidir. Amerika müəssisələrində mühasibat uçotunun təşkili, aparılması və onun ümumiyyətlə idarə olunmasında geniş təşkilati quruluş mövcuddur. Mühasibat uçotunun idarə olunması ilə əlaqədar olaraq müəssisələrdə, əsasən, aşağıdakı vəzifələr müəyyən olunur:

-maliyyə məsələləri üzrə prezident müavini; (Maliyyə məsələləri üzrə prezident müavini amerika müəssisəsinin idarəetmə quruluşunda yüksək vəzifə hesab olunmaqla, onun funksional vəzifəsinə müəssisənin iqtisadiyyatına rəhbərlik etməklə mühasibat xidmətinin faydalı fəaliyyətini icra etməsidir.)

-daxili auditor (təftişçi); (Daxili auditor (təftişçi) vəzifəsi müəssisənin idarəetmə quruluşunda əhəmiyyətinə görə prezident müavinindən sonra maliyyə məsələləri üzrə ikinci mühüm şəxs hesab olunur.)

-nəzarətçi; (Nəzarətçi müəssisənin mühasibat uçotu xidmətinə bilavasitə rəhbərlik edir. Onun vəzifəsi hazırda bizdə müəssisələrdəki baş mühasiblərin apardıqları funksional vəzifələrə uyğundur.)

-baş mühasib; (Baş mühasib vəzifəli şəxs olmaqla bilavasitə nəzarətçinin tabeçiliyində işləyir. Baş mühasib mühasibat uçotunun təşkili və müəyyən sahə uçotunun aparılması vəzifəsini icra edir.)

Dünyanın bir sıra ölkələrində mühasibin etik kodeksinin əsas qaydalarına məsuliyyət, ictimai maraq, düzgünlük, qərəzsizlik, müstəqillik, vəzifəninin tələb olunan səviyyədə icrası, məxfiliyi gözləmək normaları daxildir:

-məsuliyyət prinsipinə görə - mühasib öz fəaliyyəti üzrə tam peşəkarlıq və mənəvi məsuliyyət daşıyır.

-ictimai maraq prinsipinə görə - mühasib öhdəsinə götürür ki, ictimai marağı yüksək səviyyədə gözləməklə, özünün bütün fəaliyyətində bunu əsas olaraq qəbul etməlidir.

-düzgünlük prinsipinə görə mühasib özünün peşəkarlıq vəzifəsini vicdanlı və düzgün icra etməli, bilərəkdən aldanma hallarına yol verməməli, onu əhatə edən işçi heyətinin inamını qazanmalıdır.

-qərəzsizlik və müstəqillik prinsipinə görə - mühasib bütün hallarda peşəkarlıq obyektivliyini qorumalı və mübahisəli məsələlərin həllində həmin prinsiplərin saxlanmasını təmin etməlidir.

-vəzifənin tələb olunan səviyyədə icra olunması prinsipinə görə - mühasib funksional vəzifəsini ümumi qəbul olunmuş uçot standartları, norma, prinsiplərə uyğun olaraq icra etməklə yanaşı, müasir dövrdə istifadə olunan mühasibat uçotunun metodoloji prinsiplərini yerinə yetirməlidir.

-məxfiliyi gözləmək prinsipinə görə - mühasib müəyyən informasiyanı digər şəxslərə bildirməməyi gözləməli və bu sahədə marağı olan şəxsin razılığı olmadan belə faktın kənar şəxsə bildirilməsinə yol verilməməlidir.

***Elmi yeniliyi:*** Xarici ölkələrdə (ABŞ-ın timsalında) mühasib fəaliyyətinin öyrənilməsi əsasında uçotun müasir tələblərə uyğun olaraq formalaşması xüsusiyyəti məlum olur. Eyni zamanda mühasibat uçotunun idarə olunması ilə əlaqədar müəssisələrdə bir sıra vəzifələr də müəyyən olunur və bu vəzifələrin icrası nəticə etibarı ilə peşəkar mühasiblərin hazırlanmasını tələb edir.

***Tətbiqi əhəmiyyəti:*** Mühasiblik fəaliyyətinin səmərəli şəkildə təşkil olunması ölkədə beynəlxalq standartlara uyğun uçot qaydalarının və maliyyə hesabatlarının tətbiqi əhəmiyyətini artırır.

## ƏDƏBİYYAT


1. Rzayev Q.R. Mühasibat uçotunun beynəlxalq standartları və maliyyə hesabatı. Dərs vəsaiti. Bakı: Adiloğlu, 2004, 176 s.
2. Rzayev Q.R. Beynəlxalq mühasibat uçotu və audit. Dərs vəsaiti. Bakı: Təhsil, 2000, 171 s.
3. www.maliyye.gov.az

**РЕЗЮМЕ**
**БУХГАЛТЕРСКАЯ ДЕЯТЕЛЬНОСТИ В ЗАРУБЕЖНЫХ СТРАНАХ**
**(на примере США)**
***Абдуллаев Л.И., Гулузаде Ч.А.***

***Ключевые слова:*** *бухгалтер, бизнес, финансовый, международный стандарт, импорт, экспорт, учет*

В статье исследованы вопросы формирования бухгалтерии, история развития бухгалтерии, необходимость введения учета, этично-кодексные правила, существующие в странах мира, проведенные конгрессы по развитию этой сферы, исследованы законы по этим вопросам и предусмотрена практика подготовки профессиональных специалистов на примере США.

**SUMMARY**
**ACCOUNTING ACTIVITY IN FOREIGN COUNTRIES**
**(US example)**
***Abdullayev L.I., Guluzade C.A.***

***Key words:*** *accountant, business, financial, international standard, import, export, accounting*

Formation of accountancy, the history of accounting development, an importance of acounting application, the rules of ethic code in the countries of the world, conducted congresses for the development of this field are invistigated in the article as the rules of current matter and preparation practise of the professional specialists in US is considered as the sample.

Daxil olma tarixi: İlkin variant 26.02.2016
Son variant 16.03.2017

**UOT 334.012**

# AZƏRBAYCANDA SAHİBKARLIĞIN MALİYYƏ TƏMİNATININ GÜCLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**İBRAHİMOVA ÇİMNAZ İSA qızı**
*Sumqayıt Dövlət Universiteti,baş müəllimi*
*e-mail:ElnareMemmedova@box.az*

***Açar sözlər:*** *sahibkarlıq, maliyyə, bazar iqtisadiyyatı, lizinq, iqtisadi inkişaf, vergi, investisiya*

Milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək üçün sağlam sahibkarlıq mühitinin yaradılması, insanların sahibkarlıq ruhunda tərbiyə olunması və sahibkarlıq fəaliyyətinin öncül inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi zəruridir. Ölkədə bazar iqtisadiyyatının normal fəaliyyət göstərməsi üçün onun əsasını təşkil edən bütün zəruri ünsürlərin, xüsusilə sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı təmin edilməlidir. Son illər həyata keçirilən iqtisadi islahatlar Azərbaycan Respublikasında sahibkarlığın inkişafina təkan vermiş, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və iqtisadiyyatının inkişafında sahibkarlığın rolunu artırmışdır.

Müasir dövrdə sahibkarlığın inkişafında əsas məsələlərdən biri onun maliyyələşdirilməsidir. Ölkəmizdə sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafının maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi nəzdində Sahibkarlığa Kömək Milli Fondu yaradılmışdır.

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən güzəştli kreditlər Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, məqsədli dövlət proqramlarında müəyyən edilmiş, ölkənin sosial iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun olaraq qeyri-neft sektorunun və regionların tarazlı inkişafı, sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın dəstəklənməsi, yoxsulluğun azaldılması, məşğulluğun təmin edilməsi ilə bilavasitə əlaqəli olan sahələrdə dinamik iqtisadi inkişafın təmin edilməsinə yönəldilir [1].

Sahibkarlıq fəaliyyətində həyata keçirilən investisiya layihələri həm dövlət vəsaiti, həm də sahibkarlıq subyektinin özünün vəsaitindən maliyyələşir. Bazar iqtisadiyyatlı ölkələrdə sahibkarlıq fəaliyyətində müxtəlif maliyyələşmə metodlarından istifadə edilir. Hər bir ölkədə sahibkarlıq fəaliyyətində müxtəlif metodlardan istifadə edilməsi məsələsi bu istiqamətdə formalaşan siyasətdən asılıdır. Hazırda Azərbaycan hökumətinin investisiya siyasəti, pul vəsaitinin qıtlığı səbəbindən, büdcə ödəmələrinə qənaət etməklə sahibkarların şəxsi vəsaitlərdən, həmçinin kənardan cəlb edilən vəsaitlərdən daha geniş istifadə etmək siyasətini gündəmdə saxlayır. Buna baxmayaraq, sahibkarlıq fəaliyyətinin dövlət vəsaiti hesabına maliyyələşdirilməsi davam etdirilir. Bu məqsədlə Azərbaycanın İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi ilə birlikdə ayrı-ayrı sahələrin iqtisadi inkişafının istiqamətlərini müəyyənləşdirərək müvafiq investisiya layihələrinin həyata keçirilməsinə təminat yaradır. Sahibkarlığın maliyyələşdirilməsi metodlarından biri olan qarışıq birbaşa maliyyələşdirmə qaytarılan və bağışlanan əsasda həyata keçirilir. Belə maliyyələşmə həm dövlət büdcəsindən, həm də təşkilatların şəxsi vəsaitindən ödənilir. Təəssüflə qeyd olunmalıdır ki, birbaşa bağışlanan maliyyələşmə metodundan ölkəmizdə geniş istifadə olunmur. Bu metodun tətbiqi sahibkarlıq fəaliyyətində əsas vəsaitlərin alınıb quraşdırılmasına yönəldilməlidir. Belə vəsait sahibkara nağd şəkildə ödənildikdə onun təyinatı ilə xərclənməsində çoxlu kənarlaşmalar olur. Bağışlanan birbaşa dövlət vəsaitinin yeni növ məhsul istehsalına yönəldilməsi bütövlükdə müəssisələrin rəqabət qabiliyyətinin artmasına təminat yaradar. Büdcədənkənar maliyyələşdirmə metodu- sahibkarlıq fəaliyyətinin inkişafı və müvafiq məqsədli kompleks proqramların həyata

keçirilməsində istifadə edilir. Büdcədənkənar fondlardan istifadənin mümkünlüyü, təyinatı Azərbaycan Respublikasının "Sahibkarlıq fəaliyyəti haqqında", "Sosial siğorta haqqında", "Qiymətli kağızlar haqqında", "Vətəndaşların pensiya təminatı haqqında" qanunlarının tələbinə uyğunlaşdırılır. Sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsində istifadə edilən metodlar içərisində icarə mülkiyyəti və lizinq xüsusi əhəmiyyət kəsb edir. Lizinq, sahibkarlıq fəaliyyətinin bir növü olub, müvəqqəti istifadə olunmayan maliyyə vəsaitinin investisiya kimi digər təsərrüfatçılıq subyektlərinə istiqamətlənmişdir. Hazırda ölkəmizdə lizinq metodu özünün inkişafının başlanğıc mərhələsindədir. İstehsalat sferasında sənaye potensialının yeniləşməsində yüksək rəqabət qabiliyyətli məhsul istehsal etmək, həm də investisiya fəaliyyətini stimullaşdırmaq məqsədilə Azərbaycanda lizinq münasibətlərinin genişlənməsinə ehtiyac duyulur [2].

Azərbaycanda lizinq bazarı üçün geniş perspektivlər vardır: qeyri-neft sektorunun inkişafı, kiçik və orta sahibkarlığın stimullaşdırılması, ölkədə dünya səviyyəli yarışların, tədbirlərin həyata keçirilməsi üçün tikinti və yenidənqurma işlərinin artması bunun üçün real imkanlardır.

Sahibkarlıq fəaliyyətinin investisiyalaşdırılmasında tətbiq edilən, lakin Azərbaycanda hələ az istifadə olunan metodlardan biri də françayzinqdir. Azərbaycanda françayzinq metodunun tətbiqinin genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməlidir.

Uzunmüddətə beynəlxalq yeni maliyyələşdirmə formalarından biri layihə üzrə maliyyələşdirmə metodudur. Onun digər əvvəlki metodlardan üstün cəhəti ondan ibarətdir ki, maliyyələşmə obyektin layihələndirmə mərhələsindən onun istismara verilməsinədək davam edir. Layihə üzrə maliyyələşdirmə metodu Azərbaycanda neft və qaz yataqlarının işlənilməsi və istismarı prosesində daha geniş istifadə edilir.

İnvestisiya meyilli vergi krediti metodu dünya təcrübəsində kiçik və orta sahibkarlığın maliyyələşdirilməsində geniş istifadə olunur. Təəssüflə qeyd edilməlidir ki, yuxarıda şərh olunan metodlardan Azərbaycanda sahibkarlığın investisiyalaşdırılmasında lazımınca istifadə edilmir. Sahibkarlıq fəaliyyətini genişləndirmək və ölkə iqtisadiyyatında sahibkarlığın rolunu artırmaq üçün məhz bu metodlardan geniş istifadə olunmalıdır.

Məlum olduğu kimi, 2015-ci il qlobal maliyyə-iqtisadi qurumlarının proqnozlarına rəğmən, dünya iqtisadiyyatının inkişaf templərinin artımı ilə deyil, gözlənilməz azalması ilə səciyyələnib.

Qlobal iqtisadiyyatda cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara, Azərbaycanın yerləşdiyi regionda geosiyasi gərginliyin artmasına baxmayaraq, 2015-ci ildə ölkə iqtisadiyyatının artımı, büdcə - fiskal dayanıqlılığı təmin edilib. Lakin dövlət büdcəsinin gəlirləri nəzərdə tutulduğundan 2,3 milyard manat və ya 11,6 faiz az olub.

Gəlirlərin azalmasının əsas səbəbi neftin qiymətinin dünya bazarlarında kəskin aşağı düşməsi nəticəsində hökumət tərəfindən Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transferinin azaldılması və bununla Neft Fondunun valyuta ehtiyatlarına qənaət etməsi qərarı olub. Neftin qiymətinin ucuzlaşmasının davam etməsi, həmçinin Mərkəzi Bank tərəfindən yeni məzənnə siyasətinə keçid 2016-cı il üçün təsdiq olunmuş dövlət büdcəsində bir sıra dəyişikliklərin edilməsini şərtləndirir. Bu dəyişikliklər qeyri-neft sektorunun və sahibkarlığın inkişafına əlavə təkan verilməsi kimi hədəfləri də güdməlidir. Qeyd edək ki, ölkə rəhbəri cənab İlham Əliyev sahibkarlığın inkişafını xüsusi diqqət mərkəzində saxlayır. Son illər bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, dövlət dəstəyinin genişləndirilməsi, o cümlədən vergi güzəştləri və subsidiyalarla bağlı əhəmiyyətli işlər görülmüş, Azərbaycan İnvestisiya Şirkəti, Sahibkarlığa Kömək Milli Fondu, "Aqrolizinq" ASC və digər vasitələrlə real sektora investisiya dəstəyi göstərilmişdir.

Sahibkarlığın inkişafına mənfi təsir edən süni maneə və əngəllərin aradan qaldırılması istiqamətində Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarının icrası sürətlə davam etdirilib. Dövlət başçısının təşəbbüsü ilə Milli Məclisdə qəbul olunmuş qanun da sahibkarlıq subyektlərində 2015-ci il noyabrın 1-dən iki il müddətində yoxlamaların dayandırılmasını nəzərdə tutur. Bu sənəd xüsusən də kiçik və orta sahibkarların mənafelərinin qorunması, onların fəaliyyətinə əsassız

müdaxilələrin aradan qaldırılması baxımından vacib əhəmiyyətə malikdir. Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq tələb olunan növlərinin sayının 59-dan 37-dək azaldılmasına və sənədləşmə prosedurlarının sadələşdirilməsinə, bu işlərin "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsinə başlanılıb. Vergilər Məcəlləsinə edilən dəyişikliklərlə ticarət, ictimai iaşə, mülki tikinti sahələrində sahibkarların fəaliyyəti üçün sadələşdirilmiş vergi rejiminin tətbiqinə 2016-cı il yanvarın 1-dən başlanılıb.

2015-ci ilin ilkin yekunlarına görə, ölkə sahibkarlarına dövlət büdcəsinin vəsaiti hesabına müvəkkil kredit təşkilatları üzrə kredit portfeli 1 milyard 15 milyon manat, o cümlədən Sahibkarlığa Kömək Milli Fondu üzrə 945 milyon manat, Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi Dövlət Xidməti üzrə 70 milyon manat təşkil edib. Ötən il həmin mənbələrdən və dövlət büdcəsindən ayrılmış vəsait hesabına 5243 sahibkara 249 milyon manat məbləğində güzəştli kredit verilib. Verilən kreditlərin 40 faizi və yaxud 100 milyon manatı dövlət büdcəsindən, 60 faizi və yaxud 149 milyon manatı isə kredit portfelinin vəsaiti hesabına, yəni qaytarılmış kreditlər hesabına olub. Bütövlükdə ayrılan güzəştli kreditlərin 85,6 faizi aqrar sektorun, 14,4 faizi müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilib. Bununla yanaşı, 2015-ci ildə 5160 sahibkara 56 milyon manat məbləğində kiçikhəcmli güzəştli kredit verilib. Ümumiyyətlə, Sahibkarlığa Kömək Milli Fondu fəaliyyətə başlayandan bəri qurumun xətti ilə sahibkarlara 2 milyard manatadək yardım göstərilib və sahibkarlıq subyektlərində yüz minlərlə yeni iş yerlərinin yaradılması təmin edilib [3].

Kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi inkişafda mühüm rol oynadığını nəzərə alaraq bu istiqamətdə də maliyyələşdirmə problemlərinin aradan qaldırılması daim dövlətin diqqət mərkəzində olmalıdır.

Azərbaycanda da kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə yardımı həyata keçirən dövlətin bu sahədəki fəaliyyəti qənaətbəxş hesab edilməsə də, həmin işi aparmaq üçün qanunvericilik bazasının təkmilləşdirilməsi və genişləndirilməsi məsələləri diqqətdən kənarda qala bilməz. Bununla belə, ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşmə mənbələri arasında adı çəkilən mənbə xüsusilə fərqlənmir. Bu sahədəki qanunvericilik bazasında bir sıra çatışmazlıqlar vardır. Son illər kiçik sahibkarlığa yardım maddəsində dövlət büdcəsində nəzərdə tutulan vəsaitləri vaxtında və tam həcmdə sahibkarlara çatdırmaq mümkün olmamışdır. Azərbaycanda sahibkarlığın inkişafına dövlət maliyyə yardımının konsepsiyasına yenidən baxılması məqsədəuyğun hesab edilə bilər. Dövlət büdcəsində kiçik və orta sahibkarlığa investisiya köməyinin həyata keçirilməsi üçün nəzərdə tutulan vəsaitlərin öz təyinatı üzrə tam həcmdə istifadəsinin təmin edilməsi əsas hesab oluna bilər. Bununla yanaşı, bir sıra məsələlərin həlli kiçik və orta sahibkarlıq subyektlərinin inkişafını stimullaşdıran addımlar hesab edilir və burada da dövlətin rolu əhəmiyyətlidir. Dövlət tərəfindən sahibkarlıq sahəsində aşağıdakı məsələlərin həllinə diqqət yetirilməlidir:

- sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırma qaydalarının sadələşməsi və lisenziyalaşdırılan fəaliyyət növlərinin siyahısının azaldılması;
- Azərbaycan Respublikasında iqtisadi fəaliyyət sferasında dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi ilə əlaqədar olaraq süni maneələrin aradan qaldırılması.

Büdcədən ayrılan bütün vəsaitlərin kredit şəklində müxtəlif sahələrlə məşğul olan sahibkarlara eyni qaydalarla çatdırılması heç də uğurlu deyildir. Bunun üçün sahələrin bölgüsü aparılmalıdır və ölkə üçün inkişafı mühüm əhəmiyyət daşıyan, Azərbaycanın iqtisadi təhlükəsizliyinin qorunmasına xidmət edən sahələrə maliyyə yardımının verilməsi daha önəmli sayılmalıdır.

Bütün bunlarla yanaşı, dövlət kiçik və orta sahibkarlıq subyektləri ilə bağlı maliyyə siyasəti həyata keçirərkən regional amil də ön plana çəkilməlidir. Məlumdur ki, kiçik və orta müəssisələrin Bakıda cəmlənməsi meyli güclüdür və bu da yerlərdə sahibkarlığın az inkişaf etməsi deməkdir. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi ilə əlaqədar dövlət siyasəti həyata keçirilərkən bu

amilin nəzərə alınması olduqca vacibdir, çünki regionlarda iqtisadi inkişafı təmin etmək üçün hal-hazırda sahibkarlığın inkişafına təkan vermək ən əlverişli yol hesab olunur. Regionlarda sahibkarlığın inkişaf etdirilməsi təbii ki, paytaxtda iqtisadi, xüsusilə, sosial problemlərin aradan qaldırılmasına ciddi yardım ola bilər [4].

Bütün bunları nəzərə alaraq dövlət layihələri seçərkən və maliyyələşdirərkən bu amilə xüsusi diqqət yetirməlidir. Azərbaycanda kiçik və orta sahibkarlğın inkişafının maliyyələşdirilməsi yalnız dövlətin bu sahədə xüsusi qayğısı və köməyi sayəsində mümkündür. Bu öz növbəsində kiçik və orta sahibkarlıq strukturlarına yardım edərkən sahə və ərazi xüsusiyyətlərini nəzərə almağı, onları uzlaşdırmağı, başqa sözlə, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi probleminin həllinə kompleks yanaşmanı nəzərdə tutmalıdır. Qeyd etmək lazımdır ki, ölkəmizdə kiçik və orta sahibkarlığa dövlət köməyi və onların inkişafının dövlət tərəfindən tənzimlənməsi sahəsində müəyyən işlər görülmüşdür və bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Onların sırasında kiçik və orta sahibkarlıq üçün təhsil, məsləhət və informasiya xidmətlərinin təşkili, kiçik və orta bizneslə məşğul olan sahibkarlar üçün vergi yükünün azaldılmasını, xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayının azaldılmasını, hüquqi şəxslərin qeydə alınma prosedurunun sadələşdirilməsini, sahibkarlıq fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınması üçün müəyyən tədbirlərin həyata keçirilməsini, kiçik sahibkarlar üçün mikrokreditlər verilməsi prosesinin başlanmasını və s. göstərmək olar. Bununla yanaşı, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı"nın yerinə yetirilməsi kiçik və orta sahibkarlığa dövlət köməyinin artırılması və sahibkarlıq fəaliyyətinin tənzimlənməsi istiqamətində müsbət irəliləyişlər olacağına ümid etməyə əsas verir.

***Elmi yeniliyi:*** məqalədə bazar münasibətləri şəraitində sahıbkarlıq fəaliyyətinin maliyyələşməsi mənbələri öyrənilib aşkara çıxarılmış, maliyyə mənbələrinin artırılmasında dövlətin rolu əsaslandırılmış, maliyyələşdirmədə tətbiq olunan metodlar və üsullar üzrə tövsiyələr verilmişdir.

***Tətbiqi əhəmiyyəti:*** respublikada sahibkarlığın bugünkü inkişafını nəzərə alaraq, gələcəkdə sahibkarlıq fəaliyyətinin iqtisadiyyatın əsas sahəsinə çevriləcəyinə inanmaq olar. Azərbaycan Respublikasında sahibkarlığın inkişafının maliyyə təminatında olan problemləri aradan qaldırmaq lazımdır. Bunun üçün maliyyələşdirmədə tətbiq olunan metodlar və üsullar təkmilləşdirilməlidir. Bu baxımdan ölkəmizin dünyanın inkişaf etmiş ölkələrinin bu sahədəki təcrübəsindən, həmin ölkələrin sahibkarlığın maliyyələşdirilməsində tətbiq etdikləri metodlardan istifadə etməsi zəruridir.

## ƏDƏBİYYAT

1. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universiteti , 2011, 464 s.
2. Vəliyev D.Ə. Azərbaycan iqtisadiyyatı. Bakı: Azərbaycan Universiteti, 2010, 428 s.
3. Sahibkarlığa Kömək Milli Fondunun elektron səhifəsi. http://anfes.gov.az/en/
4. İmanov Ə.Ş. Kiçik sahibkarlıq. Bakı: Elm, 2007, 312 s.

**РЕЗЮМЕ**
**ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ФИНАНСОВОГО ОБЕСПЕЧЕНИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ**
***Ибрагимова Ч.И.***

***Ключевые слова:*** *предпринимательство, финансы, рыночная экономика, лизинг, экономическое развитие, налог, инвестиции*

В условиях уменьшения нефтяных доходов в Азербайджане важное значение имеет обеспечение макроэкономической стабильности и обеспечение экономического роста. В этих целях одно из основных задач является развития предпринимательства в стране. По этому возникает необходимость финансового обеспечения предпринимательства. С этой точки зрения тема статьи имеет актуальное значение.

**SUMMARY**
**THE MAIN DIRECTIONS OF FINANCIAL SUPPORT OF ENTREPRENEURSHIP IN AZERBAIJAN**
*İbrahimova Ç.İ.*

***Keywords:*** *entrepreneurship, finance, market economy, leasing, economic development, tax, investment*

In the conditions of reduction of oil revenues in Azerbaijan is important to ensure macroeconomic stability and economic growth. To this end, one of the main objectives is the development of entrepreneurship in the country. Therefore it is necessary to ensure the financial prossion of enterneurship. From this point of viev the subject of the article has got an actual meaning.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 02.03.2016 |
| | Son variant | 16.03.2017 |

**UOT 334.74**

# AZƏRBAYCANDA İNTERNET BİZNESİN İNKİŞAFINDA MARKETİNQ TƏDQİQATLARININ ROLU

**QASIMOVA ZÜLFİYYƏ MİRZƏ qızı**
*Sumqayıt Dövlət Universiteti, baş müəllim*
*e-mail: Elnare Memmedova@box.az*

***Açar sözlər:*** *internet, marketinq, iqtisadiyyat, elektron biznes, innovasiya, informasiya, bazar*

Son dövrdə iqtisadiyyatın daha çox inkişaf etmiş sahəsi internet biznesi hesab edilir. İnternet biznesinin yaranması meyli yalnız mikroiqtisadiyyatda deyil, bütünlükdə iqtisadi münasibətlərin yenidənqurulması və təkmilləşdirilməsində müşahidə olunur. Müasir iqtisadiyyatın əsas fəaliyyət sahəsi olan marketinqin səmərəli təşkili internet biznesinin inkişafında səmərəli vasitələrdən biridir.

Müasir dövrdə informasiya texnologiyaları sahəsi ən sürətlə inkişaf edərək dəyişən sahə hesab edilir. XX əsrin 90-cı illərindən başlayaraq informasiya-kommunikasiya texnologiyalarının intensiv inkişafı internetin populyarlaşmasına səbəb olmuşdur. İnformasiya texnologiyaları sahəsində innovasiyalar həyatın müxtəlif sahələrində istifadə edilir. Məhz bu innovasiyalar mədəniyyət, təhsil, iqtisadiyyat sahələrində, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin təmin olunmasında mühüm rol oynayır. İnternetdən istifadənin genişlənməsi yeni informasiya cəmiyyətinin və yeni “şəbəkə iqtisadiyyatı”nın yaranmasına səbəb olmuşdur. Bu iqtisadi sahənin inkişafı müasir elmi nailiyyətlərə, informatikanın və kompüterlərin imkanlarına əsaslanır. İnternetin iqtisadiyyatda tətbiqi biznesin yeni sahələrinin yaranmasına, məhsul və xidmətlər, ənənəvi və virtual iqtisadiyyat arasındakı fərqlərin silinməsinə səbəb olmuşdur.

İnternet iqtisadiyyatı yaxın zamanlarda yaranmasına baxmayaraq, dünya təsərrüfatının sistemləşdirici hissəsidir. Müasir internet sistemi qloballaşdırma kimi dünya iqtisadiyyatının bütün operatorlarını əhatə edərək yüksək inkişaf etmiş ölkələrin iqtisadiyyatını stimullaşdırır və iqtisadi cəhətdən zəif olan ölkələrin inkişaf edərək dünya sisteminə inteqrasiyasına şərait yaradır.

Bu gün internet iqtisadiyyatın inkişafı, ənənəvi iqtisadi sahələrin, elmi idarə və institutların inkişafında da mühüm rol oynayır. Məhz internet iqtisadiyyatının inkişafı şəbəkə texnologiyaları üçün yeni istifadə və iştirak mühitlərini yaranmasına, tətbiq sahələrinin genişlənməsinə zəmin yaradır. İnternetdə bu gün həll edilməmiş problemlər mövcuddur. Belə problemlərə ötürülən informasiyanın mühafizəsinin zəif olmasını, onun təhlükəsizliyinin və gizliliyinin tam təmin edilə bilməməsini aid etmək olar. Digər problem isə internetdə intellektual məhsulların müəlliflik hüququnun qorunması problemidir.

Qeyd edək ki, göstərilən problemlərin həlli ümumdünya əhəmiyyətlidir. Çünki, bu problemlərin həlli elektron biznesin daha yüksək sürətlə inkişafına və daha geniş ərazini əhatə etməsinə şərait yaradır. Məhz bu problemlərin həlli üçün hamı tərəfindən qəbul oluna bilən qanunvericiliyin işlənib hazırlanması və tətbiqi böyük əhəmiyyət kəsb edir.

İnternet iqtisadiyyatının yaranması köhnəlmiş qaydaların aradan qalxmasına səbəb olur. Eyni zamanda, yeni qaydalara uyğun münasibətlər və problemlər meydana gəlir. Buna görə də internet iqtisadiyyatının tətbiqi hər bir müəssisədə biznes-planlara yenidən baxılmasını tələb edir. İnternetin özündə mövcud olan xaos isə diqqətsizlik və nəzarətin olmadığı halda iqtisadi xaosa çevrilə bilər. Məhz buna görə də internet iqtisadiyyatı yeniliyi, müasirliyi ilə bərabər həm də ehtiyatlılıq və nəzarətin də daimi olmasını tələb edir [1].

İnternetdə marketinq tədqiqatlarının aparılması nəticəsində aşağıdakılar mümkün olur:

1. Azərbaycan və digər ölkələrdəki bazar tədqiqatlarının nəticələrini əldə etmək.

2. İstənilən məhsul çeşidi üzrə milli və beynəlxalq qiymətləri nəzərdən keçirmək.

3. İstənilən məhsul və ya xidmətin və onların istehsalçılarının axtarışını həyata keçirmək.

4. Müxtəlif regionlarda keçirilən sərgi və yarmarkalardan məlumat əldə etmək.

5. Bir çox məhsul üzrə qiymətin dəyişməsi meyillərinin cari monitorinqini aparmaq, əsas beynəlxalq birjaların qiymət dinamikası haqqında qrafik informasiya əldə etmək.

6. Azərbaycan və beynəlxalq bazarlardakı rəqibləri axtarmaq, analoji profilli şirkətlər haqqında məlumat əldə etmək, onların qiymətəmələgəlmə siyasətini, məhsul çeşdini və əlavə xidmətlərini müqayisə etmək.

7. İstənilən maliyyə informasiyasını (valyuta kursu, səhm və dövlətin qiymətli kağızlarının kotirovkası və s.) real vaxt rejimində əldə etmək [2].

Müasir dövrdə internet iqtisadiyyatının daha çox inkişaf etmiş sahəsi elektron biznes sahəsi hesab edilir. Elektron biznes sahəsi iqtisadi fəaliyyətin yüksək templə dəyişdiyi mühit kimi xarakterizə olunur. İnternet biznesinin idarə olunmasının düzgün təşkili rəqiblər üzərində strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla əlaqələrin möhkəmləndirilməsinə, insan və digər ehtiyatlardan optimal istifadəyə şərait yaradır. İnternet biznes Azərbaycanda 2003-cü ildən sonra əsaslı inkişafa başlamışdır. Elektron biznesi standart şəbəkələrdən istifadə edərək informasiya texnologiyalarının tətbiqi ilə informasiyanın, məhsul və xidmətlərin alqı-satqısının sistemi kimi müəyyən etmək olar. Əslində, elektron biznes elektron ticarətin genişləndirilmiş formasıdır. İnternet ticarət internet texnologiyaları əsasında məhsul və xidmətlərin alqı-satqısı, marketinqidir. Elektron biznes informasiyadan istifadə edərək məhsuldarlığı artırır və münasibətlərin daha da təkmilləşdirilməsini təmin edir. Bunun nəticəsində əlavə dəyər yaranır.

Qeyd etmək lazımdır ki, bir çox alim və mütəxəssislər tərəfindən elektron ticarət təksə mal və xidmətlərin elektron satışı deyil, elektron şəkildə informasiyanın ötürülməsi, müəssisələr arasında əlaqələrin yaradılması, bank və maliyyə institutlarının əlaqələndirilməsini də özündə birləşdirir. Belə halda elektron bizneslə elektron ticarət eyniləşir. Buna görə də artıq bir çox ədəbiyyatlarda elektron biznes və elektron ticarət eyni mənada istifadə edilir.

Azərbaycanda elektron biznesin inkişafına mane olan amillər aşağıdakılardan ibarətdir:

1. Web saytların əksəriyyətinin xaotik və həddən artıq yüklənməsi potensial müştərilərin cəlb olunması və saxlanmasına mane olur.

2. Maliyyə razılaşmalarının və şəxsi informasiyaların ötürülməsinin təhlükəsizliyinin təmin olunması da əsas məsələlərdəndir.

3. Reklam və internet marketinqi üzrə mütəxəssislərin kifayət qədər olmaması bu sahədə işlərin keyfiyyətinə mənfi təsir göstərir.

Azərbaycan Respublikasında elektron biznesi inkişaf etdirmək üçün intenet istifadəçilərinin sayını artırmaq, real vaxt rejimində pul ödəmələri problemlərinin tezliklə həll olunması və istifadəçilərə internetdən alış vərdişlərini aşılamaq tələb olunur. Əgər respublikamızda onlayn alış həyata keçirmiş istifadəçilərin sayı hesablanarsa, bu kiçik rəqəmə bərabər olar. Azərbaycanda yalnız son vaxtlarda Qərb ölkələrinin təcrübəsinə uyğun – menecment sisteminə, dəqiq quruluşa, biznes plana və marketinq siyasətinə malik elektron-şirkətlər inkişaf etməyə başlamışdır. Azərbaycanda fəaliyyət göstərən şirkətlər strategiya seçimi zamanı Qərb ölkələrinin sxemlərinə üstünlük verirlər. Amma bazarların təminat səviyyələri arasında fərq nəzərə alınmalıdır. Azərbaycanda elektron biznes üzrə mütəxəssislərin azlığı problemi mövcuddur. Bu problemin həllini peşəkarlar ən əlverişlisi və ucuz başa gələn "internet-inkubatorların" yayılmasında görürlər. Bu, perspektivli ideyaların işlənib hazırlanması məqsədilə marketinq və menecment üzrə mütəxəssislərin bir müəssisə daxilində birləşməsidir (autsorsinq).

Belə fikirlər var ki, internet biznesində uğur qazanmağın ən etibarlı yolu çoxkanallı satışdır. Bu yalnız internetə girdikdə avtomatik olaraq çoxkanallı olan "ənənəvi-onlayn" şirkətlərə deyil, həm də "onlayn" şirkətlərə də şamil olunur. Getdikcə güclənən elektron-rəqabət mühitində bir neçə satış kanalına malik olmaq firmaya müəyyən üstünlüklər verir [3].

Çatdırılma problemlərinin həlli elektron biznesin inkişafını xeyli sürətlədirə bilər. İnternet firmaların apardıqları tədqiqatlar nəticəsində belə qənaətə gəlmişlər ki, kataloqlarda təqdim olunan malların operativ ehtiyatı saxlanılan şəxsi anbarların yaradılması vacib məsələlərdən biridir. Əgər çatdırılma müxtəlif şəhərlərdə və ya Bakı kimi iri aqlomerasiyada həyata keçirilirsə, bu zaman bir iri anbardan əlavə bir neçə zonal anbarların yaradılması daha məqsədəuyğun hesab oluna bilər. İri anbarların mövcudluğu məhsul çeşidini təmin etmiş olar, zonal anbarlar isə logistik məsələlərin dəqiq qurulmasına imkan verər. Bu, müştəriyə sürətli xidmətin təmin olunmasında birinci addım hesab olunur.

Növbəti addım - bu fəaliyyət sahəsini başqa bir kommersiya müəssisəsinə, autsorsinqə ötürmək və ya müəssisə daxilində xüsusi bölmə yaratmaqdan ibarətdir. Bu iri ticarət müəssisələri üçün xarakterikdir. Dövriyyəsi böyük olan şirkətə şəxsi çatdırılma xidməti saxlamaq iqtisadi cəhətdən səmərə vermir. Çünki çatdırılma xidmətinin təşkili çətin və spesifik biznes sahəsi olmaqla, marşrutlaşdırma, sifarişlərin yerinə yetirilməsinə nəzarət, kadrların seçilməsi, onlara peşə biliklərin verilməsi, müsbət imicin yaradılması kimi xüsusi biliklər tələb edir.

Kiçik şirkətlər çatdırılma xidmətindən istifadə zamanı nəzərəçarpacaq güzəştlər əldə edə bilmirlər. Bu isə onların məhsullarının qiymətlərinin rəqabət qabiliyyətini azaldır. Orta ölçüsü, dövriyyəsi o qədər də böyük olmayan müəssisələr çatdırılma xidmətlərində güzəştlər əldə etmək məqsədilə yüzlərlə dükanın yerləşdiyi ticarət mərkəzləri çərçivəsində sifarişlərini birləşdirə bilərlər.

Bu sahədə ən böyük problemlərdən biri də alıcılar, satıcılar və banklar arasında qarşılıqlı etimadın olmamasıdır. Bu problemin həllini mütəxəssislər müxtəlif cür görürlər. Bəziləri hesab edir ki, bu məsələnin həllinə vaxt lazımdır. Onlar bu problemin getdikcə öz-özlüyündə həll olunacağına ümid edirlər. Digərləri isə bu vəziyyətdən çıxış yolunu dövlətin bu sahədə qəbul edəcəyi qanunlar paketində görürlər. Bu sahədə respublikamızda müəyyən qanunvericilik aktları olsa da, bunlar hələ problemləri həll etmək gücündə deyillər. Üçüncü qrup mütəxəssislər bütün yükü bankların çiyninə qoyurlar.

İkincisi, satıcıların və alıcıların bank sisteminə etibarının az olması. Digər tərəfdən bu sahədə oğruluq və dələduzluq hallarının çox olması barədə qeyri-peşəkarların yaydığı şayiələr də həlledici rol oynayır. Ödəmə kart sisteminin inkişaf səviyyəsi də onlayn ödəmələrə ciddi təsir göstərir [4].

Bütün çatışmazlıqlarla yanaşı müasir dövrü və cəmiyyətin inkişafını informasiyasız təsəvvür etmək mümkün olmadığını nəzərə alsaq, internet iqtisadiyyatının tətbiqinin və inkişafının labüd olduğu məlum olacaq. Başqa bir tərəfdən, istənilən müəssisənin inkişafının onun informasiya təminatından birbaşa asılı olmasını da nəzərə alsaq, qeyd olunan fikrin təsdiqini görərik. Bütün qeyd olunanlarla bərabər, nəzərə almaq lazımdır ki, həm elektron biznesin, həm də elektron ticarətin yaranması və inkişafı məhz internetin və internet iqtisadiyyatının məhsuludur. Əslində elektron biznesin prinsipləri ənənəvi biznesin prinsipləri ilə eynidir, lakin internet ona çeviklik və daha yüksək sürət əlavə etmişdir. Bu üstünlüklərə görə hazırda biznesin elektron variantının inkişafı daha perspektivlidir. Bu sahənin inkişfında marketinq tədqiqatlarının mühüm bir vasitə olduğunu daha aydın görmək olar.

***Elmi yeniliyi:*** məqalədə internet iqtisadiyyatın üstün və çatışmayan cəhətlərinə və inkişaf etdirilməsi istiqamətlərinə toxunulmuş, bu sahədə marketinq tədqiqatlarının rolu araşdırılmışdır. və onların həlli yollarının müəyyənləşdirilməsinin zəruriliyi qeyd olunmuşdur.

***Tətbiqi əhəmiyyəti:*** Marketinq tədqiqatları təkcə iri kompaniya və təşkilatlara lazım deyil. Yaradıcı tədqiqatın hazırlanması sayəsində hətta kiçik büdcəli təşkilatlar da marketinq tədqiqatlarının aparılmasından fayda əldə edə bilərlər. İnternet şəbəkəsinin və hər yerdə mövcud olan elektron poçtlarının meydana gəlməsilə marketinq tədqiqatının yeni metod və prinsiplərinin tətbiqi üçün çoxlu yollar açılmışdır. Bütün bunlar internet biznesin inkişafında marketinq tədqiqatlarının rolunun araşdırılmasının çox mühüm vəzifələrdən biri olduğunu göstərir.

**ƏDƏBİYYAT**

1. Burenina T.A. İnternet texnologiyaları əsasında marketinq. Rus dilindən tərcümə. Bakı: İqtisad Universiteti, 2009, 224 s.
2. Kərimov S. Q. İnformasiya sistemləri. Bakı: Elm, 2008, 412 s.
3. Əliyeva T.Ə. İdarəetmənin informasiya texnologiyaları. Bakı: İqtisad Universiteti, 2012, 370 s.
4. Хохлачева Н. В. Электронная коммерция. М.: Эко-Трендз, 2005, 563 с.

**РЕЗЮМЕ**
**РОЛЬ ИНТЕРНЕТ БИЗНЕСА В РАЗВИТИИ МАРКЕТИНГОВЫХ ИССЛЕДОВАНИЙ В АЗЕРБАЙДЖАНЕ**

***Гасымова З.М.***

***Ключевые слова:*** *интернет, маркетинг, экономика, электронный бизнес, инновация, информация, рынок*

В последее время одной из основных развитых отраслей интернет экономики является интернет бизнес. Развитие интернет бизнеса происходит не только в микроэкономике, а также в обновлении и соверштсвовании всех экономических отношении. Рациональная организация маркетинговой деятельности представляет собой как эффективное средство в развитие интернет бизнеса

**SUMMARY**
**THE ROLE OF INTERNET BUSINESS DEVELOPMENT MARKETING RESEARCH IN AZERBAIJAN**

***Qasımova Z.M***

***Keywords:*** *internet, marketing, economy, electron business, innovation, information, market*

Recently internet business is supposed the most developed area of internet economy. The tendency of internet business creation is observed not only in micro economy, but also in reorganization and improvement of economic relations thoroughly. The productive arrangement of marketing as a main field of present-day economy is one of efficient means in development of internet business.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 02.03.2016 |
| | Son variant | 16.03.2017 |

**UOT 334.73**

# AZƏRBAYCANDA AQRAR SAHƏDƏ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**AĞAYEVA SƏYYARƏ ELDAR qızı**
*Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, magistrant*
*e-mail: guler2000@yahoo.com*

***Açar sözlər**: aqrar sahə, idarəetmə, investisiya, ümumi daxili məhsul.*

İqtisadiyyatın əsas tərkib hissələrindən biri aqrar sahədir. Kənd təsərrüfatı Azərbaycanın ənənəvi istehsal sahəsidir və dövlətin mühüm sosial funksiyasını - əhalinin ərzaq məhsulları ilə təminatını yerinə yetirir. Digər tərəfdən bu sektorun strateji əhəmiyyəti təkzibedilməzdir. Aqrar sahənin daha bir əhəmiyyəti ondan ibarətdir ki, bu sahə şəhər həyat tərzindən fərqli olan xüsusi bir həyat tərzi formalaşdırır ki, burada da ənənəvi olaraq respublika əhalisinin böyük hissəsi məşğul olur. Təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş aqrar sahəyə dair dövlət siyasəti onun layiqli varisi olan respublikamızın Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Aqrar sahədə həyata keçirilən uğurlu siyasət və dinamik inkişaf, yeni iş yerlərinin yaradılması ilə əlaqədar görülən genişmiqyaslı və məqsədyönlü tədbirlər kəndin simasının dəyişdirilməsinə, kənd təsərrüfatında daha yüksək göstəricilərə nail olunmasına və ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə təkan verəcəkdir.

Kənd təsərrüfatının inkişafı ilə bağlı müəyyən olunmuş konseptual istiqamətlərin reallaşdırılması məqsədilə cənab Prezident tərəfindən “Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” 16 yanvar 2014-cü il tarixli sərəncam və “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” 16 aprel 2014-cü il tarixli fərman imzalanmışdır. 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsi 2014-cü ildən etibarən Azərbaycanda aqrar islahatların yeni mərhələsinin başlaması ilə bağlı cənab Prezident tərəfindən verilən siyasi qərarların məntiqi davamıdır. Tarixi əhəmiyyətli bu siyasi qərarlarla aqrar sektorun inkişafının prioritet hədəflərinin yeni çağırışlar fonunda müəyyən edilməsi, aqrar sektorda institusional strukturun və idarəetmənin təkmilləşdirilməsi və innovativ dəyişikliklərə təkan verəcək digər tədbirlərin həyata keçirilməsinə göstəriş verilməsi bu sahədə inkişafın keyfiyyətcə yeni mərhələsinə keçid üçün əsas yaratmışdır.

İdarəetmə fəaliyyətinin daima təkmilləşdirilməsinin zərurəti kənd təsərrüfat müəssisə və təşkilatlarının davamlı fəaliyyətini həyata keçirmək üçün imkanların aşkar edilməsini tələb edir. İqtisadiyyatımızın aqrar bölməsində təsərrüfat formalarının müxtəlifliyi, məhsulların bölüşdürülməsinin bazar prinsiplərinə keçilməsi, kənd təsərrüfatı təyinatlı torpaqların dövriyyəsi və ondan istifadə olunması haqqında qanunvericilik bazasının hazırlanması, qəbul edilməsi və zaman keçdikcə dəyişən şəraitə uyğun olaraq təkmilləşdirilməsi, şübhəsiz ki, bu sahədə bütün işlərin yenidən qurulmasına, istehsalın səmərəliliyinin yüksəlməsinə və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına özünün müsbət təsirini göstərəcəkdir.

1995-2015-ci illər ərzində aqrar islahatları tənzimləyən bir çox qanun, fərman, sərəncam, qərar və digər normatıv-hüquqi aktlar qəbul edilməsi ilə əlaqədar olaraq aqrar sferanın bir çox sahələrində yüksəliş müşahidə olunur. Azərbaycanın kənd təsərrüfatının hazırki vəziyyəti, xüsusilə, beynəlxalq ticarət təşkilatı və digər beynəlxalq təşkilatlara üzvlüyü ilə əlaqədar olaraq, aqrar sahənin idarə olunma sisteminin bütünlükdə dövlət səviyyəsindən təsərrüfatdaxili səviyyəyədək modernləşdirilməsini tələb edir. Kənd təsərrüfatının dövlət və bələdiyyə idarəolunması funksiyaları kökündən dəyişilməlidir. Ancaq aqrar sahədə idarəetmə sistemində geniş miqyaslı islahatlar həyata keçirməklə bu sahədə

inkişafa nail olmaq, onun dünya bazarında rəqabət qabiliyyətli olmasının və daxili bazarın ərzaq təhlükəsizliyini təmin etmək mümkündür.

Kənd təsərrüfatınının idarəeilməsi zamanı onun idarəetmə ilə əlaqədar olan aşağıdakı xüsusiyyətləri nəzərə alınmalıdır:

1. Kənd təsərrüfatında torpaq əsas istehsal vasitəsi kimi çıxış edir (torpaqların məhsuldarlığının artırılması üzrə xüsusi tədbirlər tələb edir).

2. Istehsalın ərazi cəhətdən bir yerdə cəmlənməsi idarəetmə orqanlarının ərazi-istehsalat prinsipləri üzrə qurulmasını və ona daha çox operartiv-təsərrüfat sərbəstliyinin verilməsini nəzərdə tutur.

3. Təbii-iqlim şəraitinin müxtəlifliyi, istehsalın mövsümi xarakteri və canlı orqanizmlərlə iş aqrar sahədəki bölmələr və xidmətlər arasında dəqiq uzlaşma, uyğunluq tələb edir.

4. Idarəetmə orqanlarının qurulmasına mülkiyyət formalarının müxtəlifliyi çox təsir edir.

5. Şəhərdə və kənddə həyat tərzinin obyektiv fərqləri bir çox idarəetmə məsələlərinin, o cümlədən sosial sahədəki məsələlərin özünəməxsus həllini tələb edir.

Aqrar sahədə idarəetmənin əsas vəzifələri aşağıdakılardır:

• Aqrar sahənin müxtəlif formalarının inkişafını nəzərə almaqla təşkilatı strukturlarının işlənib hazırlanması;

• məhsulun keyfiyyəti, ətraf mühitin mühafizəsi, təbiətdən istifadənin idarəolunması;

• müxtəlif səviyyələrdə idarəetmənin demokratik əsaslarla inkişafı, aqrar sahənin dövlət, təsərrüfat və ictimai idarəetmə orqanları arasında hüquqların, vəzifələrin və məsuliyyətin elmi əsaslandırılımış bölgüsü;

•idarəetmə əməyinin və onun maddi stimullaşdırılmasının təşkilinin təkmilləşdirilməsi;

• elmin və qabaqcıl təcrübənin nailiyyətlərinin tətbiqinin təkmilləşdirilməsi və s.

Hazırda Azərbaycan iqtisadiyyatının aqrar sektorunun inkişafı kifayət qədər davamlı deyil və bu ölkənin ərzaq təhlükəsizliyi üçün təhlükəlidir, belə ki, kənd təsərrüfatı məhsullarının çox hissəsi xaricdən idxal edilir. Amma statistik məlumatların təhlili göstərir ki, 15 ildə bütün göstəricilər üzrə müsbət meyllər müşahidə olunur [1]. Məsələn: kənd təsərrüfatına qoyulan investisiyalarda 2000-ci ilə nisbətən artım müşahidə oluur (Qrafik 1,2).

***Qrafik 1.*** *Kənd təsərrüfatına investisiyalar (milyon manat)*




Kənd təsərrüfatının ümumi daxili məhsul istehsalı (bütün kateqoriyalar üzrə kənd təsərrüfatının ümumi məhsulunun həcmi 6,5 milyon manatdan 363,9 milyon manatadək) yüksəlmişdir. Bunun çox hissəsi fərdi təsərrüfatların payına düşür (diaqram 1., qrafik 3). Amma sahibkarlıq fəaliyyəti, əsasən, tez gəlir gətirən maldarlıq, qusçuluq, şərabçılıq sahələrini əhatə edir. Digər sahələr üzrə artım bir

qədər aşağıdır. Bu sahələrə diqqəti cəlb etmək üçün investisiyaların artırılması, uzunmüddətli, güzəştli kreditlərin ayrılması tələb olunur.

*Qrafik 2. Kənd təsərrüfatının ümumi məhsulu (milyon manat)*




**Diaqram 1.** *Təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manat (2015-ci il)*




**Qrafik 3.** *Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarının sayı*




Iqtisadi idarəetmə münasibətləri öz funksiyaları vasitəsilə həyata keçirilmək üzrə yaranan münasibətlərdir. Onlar iqtisadi sistemə daxilən xas olan vasitələrlə tənzimlənir. Bazar mexaizminə

daxil olan bütün idarəçilik halqalarının, subyektlərinin qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi üçün lazım olan optimal şərait yaradılmalı, makro və mikromühit formalaşdırılmalıdır.

Aqrar sahənin idarə edilməsi elmi prinsiplərə əsaslanmalıdır. Belə halda ayrı-ayrı sahibkarlıq-təsərrüfatçılıq formalarının inkişafında uyğunluq, qarşılıqlı əlaqədə əməkdaşlıq, kooperasiya halları baş verər, qarşılıqlı ziddiyyətlər, aqrar istehsal və bazarın inkişaf etdirilməsi beynəlxalq bazara çıxmaq kontekstindən tənzimlənər və bu sahədə sabit iqtisadi artıma nail olunardı [2].

## ƏDƏBİYYAT


1. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Bakı: 2015.
2. Alıyev İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı: Elm, 2008, 346 s.


## РЕЗЮМЕ
## УСОВЕРШЕНСТВОВАНИЕ АГРАРНОЙ СФЕРЫ В АЗЕРБАЙДЖАНЕ

***Агаева С.Е.***

***Ключевые слова:*** *аграрный сектор, управление, инвестиции, валовой внутренний продукт*

В статье даются сведения об основных особенностях и задачах управления сельским хозяйством. Анализируются состояние аграрной сферы за последние годы, основные направления усовершенствования управления в Азербайджане. В связи с принятием многих законов, указов, решений и др. нормативно-юридических актов, регулирующих аграрные реформы за последние 10-15 лет, в сельском хозяйстве Азербайджана наблюдаются положительные тенденции. Например, увеличились инвестиции в сельское хозяйство (2000 году – 758,9 миллион ман., 2014 году – 3111 миллион ман.), производство валовой внутренней продукции по всем категориям увеличилось с 6,5 миллион ман. в 2000 году до 363,9 миллион ман. в 2014 году. Основная часть приходится на долю частных собственников.

В настоящее время можно выделить следующие основные направления усовершенствования управления сельским хозяйством – усиление государственной поддержки, развитие малого бизнеса, усиление в управлении институциональным потенциалом, управление по научным принципам, внедрение инноваций.

## SUMMARY
## IMPROVEMENT OF THE AGRARIAN SECTOR IN AZERBAIJAN

***Agayeva S.E.***

***Keywords:*** *agriculture, management, investment, gross domestic product*

The article provides information about the main features and objectives of management of agriculture. The qoal of analization is the state od agrarian field in recent years namely, the key directions of management improventent in Azerbaijan. In connection with the adoption of many laws, decrees, solutions, normative-legal acts regulating the agrarian reforms over the past 10-15 years in the agriculture of Azerbaijan observed positive trends. For insfanee the investments in agrarian sector and production of gross domestic product are increased on all categories from 6,5 million mantas to 363,9 million mantas in the uears of 2000-2014. The general part is under the private owners.

Currently, the following main directions of improvement of agricultural management can be indicated - strengthening of state support, strengthening of the institutional capacity of the management, control on scientific principles, innovations.



| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 26.04.2016 |
| | Son variant | 16.03.2017 |

**UOT 336.47**

# DÖVLƏT BÜDCƏSİ VƏ BÜDCƏDƏNKƏNAR FONDLARIN STATİSTİK QİYMƏTLƏNDİRİLMƏSİ

**[1]SÜLEYMANOVA ŞƏFƏQ SƏRDAR qızı**
**[2]SƏLİMOVA İLAHİYƏ SƏRDAR qızı**
*Sumqayıt Texniki Kolleci, 1,2-müəllim*
*e-mail: Elnare Memmedova @ box.az.*

***Açar sözlər:*** *dövlət büdcəsi,büdcə gəlirləri,büdcə xərcləri,büdcədənkənar fondlar, dövlət maliyyəsi, statistik qiymətləndirmə.*

Dövlət büdcəsi dövlət maliyyəsinin əsas həlqəsidir. Dövlət büdcəsinin statistikastik öyrənilməsi zamanı büdcə fondlarının planauyğun yaradılması və istifadəsi prosesi başa düşülür. Dövlət büdcəsi imkan verir ki, dövlət maliyyə resurslarını iqtisadi və sosial inkişafın həlledici sahələrinə yönəldsin. Dövlət büdcəsinin əsas göstəriciləri iqtisadiyyatın tələbatına və cəmiyyətin inkişafının hər bir tarixi mərhələsində qarşıda duran vəzifələrə uyğun olaraq qurulur. Statistik metodlar dövlət büdcəsinin gəlir və xərcləri üzərində nəzarəti həyata keçirməyə və orada müşahidə edilən mühüm meyilləri aşkar etməyə imkan verir. Sabit və balanslaşdırılmış büdcənin zəruri əsası istehsalın səmərəliliyinin yüksəldilməsi, büdcə xərclərinin quruluşnun səmərəliliyi, səmərəli büdcə mexanizminin tətbiqidir.

Müasir dövrdə dövlət orqanları dövlət maliyyəsinin statistik öyrənilməsi sahəsində beynəlxalq müqayisəliliyi həyata keçirmək üçün dövlət büdcəsinin göstəricilər sisteminin və büdcə təsnifatının təkmilləşdirilməsi üzrə böyük işlər görürlər. Dövlət maliyyəsinin mühüm halqalarindan birini büdcədənkənar fondlar təşkil edir. Büdcədənkənar fondların statistik öyrənilməsi zamanı onların hər birinin sosial-iqtisadi təyinatı ilə əlaqədar fondun pul vəsaitlərinin formalaşması və xərclənməsinin qanunauyğunluqlarını öyrənir.

Ümumiyyətlə, dövlət büdcəsinin və büdcədənkənar fondların statistik öyrənilməsi zamanı qarşıya aşagıdakı vəzifələr qoyulur [2]:

- fəaliyyətdə olan büdcə təsnifatını mövcud beynəlxalq standartlara uyğunlaşdırmaq;
- dövlət büdcəsinin gəlir və xərclərinin həcmini və dinamikasını statistik təhlil etmək;
- dövlət büdcəsinin gəlir mənbələrinin quruluşunu və xərclərin istiqamətini öyrənmək;
- idarəetmənin bütün səviyyələrində dövlət büdcəsinin icrasını statistik təhlil etmək;
- büdcə kəsirinin maliyyələşdirilməsi mənbələrini araşdırmaq;
- dövlətin daxili borcunun həcmini, onun quruluş və dinamikasını tədqiq etmək;
- müxtəlif büdcədənkənar fondların gəlir və xərclərinin həcmini, quruluşunu və dinamikasını öyrənmək;
- büdcədənkənar fondların fəaliyyətinin səmərəliliyini statistik təhlil etmək və s.

Büdcə, təsnifatı əsasında büdcənin tərtibi və icrası həyata keçirilən əsas metodoloji sənəddir. Dövlət büdcəsinin göstəriciləri və təsnifatı dövlət idarəetmə orqanlarının funksiyalarından asılıdır. Dövlət büdcəsinin təsnifləşdirilməsinin statistik öyrənilməsi zamanı dövlət idarəetmə sektorunun əsas əməliyyatlarının qruplşadırılmasını həyata keçirmək və bu orqanların xərclərə, kreditə tələbatını müəyyən etmək üçün analitik bazanı yaratmaqdır. Dövlət büdcəsi dövlət idarəetmə sektorunun gəlir və xərclərini özündə əks etdirir.

Qeyd edək ki, Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsinin gəlirləri 16 822 000,0 min manat, xərcləri 18 495 000,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 16 055

654,5 min manat, yerli gəlirləri 766 345,5 min manat, mərkəzləşdirilmiş xərcləri 16 953 749,0 min manat, yerli xərcləri 1 541 251,0 min manat) məbləğində təsdiq edilmişdir [1].

Dövlət idarəetmə sektoruna aid olan institusional vahidlərin fəaliyyəti (büdcədən maliyyələşən dövlət idarə və təşkilatları, ümumi idarəetmə, maliyyə, iqtisadiyyatın tənzimlənməsi, elmi-tədqiqat, ətraf mühitin qorunması, hüquqların müdafiəsi, habelə təhsil, səhiyyə, mədəniyyət, sosial təminat və s. sahələrində əhaliyə pulsuz və güzəştli xidmət həyata keçirmək) qeyri-bazar (kollektiv) xarakterli xidmətlərin göstərilməsinə, habelə milli sərvətin və gəlirin təkrar bölgüsünə istiqamətlənir. Gəlirlərin təkrar bölgüsü, əsasən, iqtisadiyyatın digər sektorlarının institusional vahidlərindən vergi tutulması, habelə pensiya, yardım və digər sosial ödəmələr vasitəsilə ilə baş verir.

Büdcə təsnifatının ümuimi sxemini aşağıdakı kimi vermək olar (Sxem 1).




***Sxem 1**. Büdcə təsnifatı.*

Bu təsnifatda «büdcənin maliyyələşdirilməsi» və «dövlət borcu» bölməsinin verilməsi aşağıdakı məsələləri həll etməyə imkan verir:

- cəlb edilən borc vəsaitlərinə nəzarət etmək;
- qızıl-valyuta ehtiyatlarının həcminin dəyişməsini izləmək;
- büdcə hesabında vəsait qalığının dəyişməsini izləmək;
- dövlətin ümumi borc öhdəlliklərinin dəyişməsi üzərində nəzarəti həyata keçirmək.

Büdcə gəliri büdcəyə məcburi, qaytarılmayan ödəmələr və daxilolmalardır. Dövlət büdcəsinin gəlirləri cari və kapital gəlirlərinə bölünür. Cari gəlirlərə bütün vergi və qeyri-vergi daxilolmaları aid edilir. Dövlət büdcəsinin statistik öyrənilməsinin mühüm analitik vəzifələrinə- büdcənin maliyyələşdirilməsi mənbələrinin, kəsirin bağlanmasında onların hər birinin rolunun müəyyənləşdirilməsi, büdcənin icra dərəcəsinin öyrənilməsi də daxildir.

Dövlət büdcəsinin reallığını və səmərəliliyini təhlil edərkən onun gəlir və xərc hissəsinin quruluşuna, büdcə göstəricilərinin ölkənin makroiqtisadi vəziyyətini xarakterizə edən amillərlə qarşılıqlı əlaqədə araşdırılmasına xüsusi fikir verilir. Bu zaman korrelyasiya-reqressiya, indeks və s. kimi iqtisadi-statistik metodlardan istifadə edilir.

Büdcədənkənar fondlar bəzi ictimai tələbatları və sosial proqramları maliyyələşdirmək məqsədilə dövlətin cəlb etdiyi maliyyə resurslarının təkrar bölgüsünü və istifadəsini həyata keçirir.

Büdcədənkənar fondlar aşagıdakı məsələləri həll etməyə imkan verir [3]:

- yerli müəssisələri maliyyələşdirmək, subsidiyalaşdırma və kreditləşdirmə vasitəsilə istehsal prosesinə təsir etmək;
- xüsusi mənbələr hesabına təbiəti mühafizə tədbirlərinin maliyyələşdirilməsini təmin etmək;

-təqaüd, yardım ödəniləmsi yolu ilə əhaliyə sosial xidmətlər göstərmək. Bütövlükdə sosial infrastrukturun subsidiyalaşdırmasını və maliyyələşdirilməsini həyata keçirmək;

- xarici dövlətlər də daxil olmaqla, tərəfmüqavillərinə borclar (kreditlər) vermək.

Məqsədli təyinatına uyğun olaraq büdcədənkənar fondlar iqtisadi və sosial idarəetmə səviyəsinə görə isə dövlət və regional fondlara bölünür. Büdcədənkənar fondların statistik öyrənilməsinin vəzifəsi müxtəlif fondların gəlir və xərclərinin həcmini, dinamikasını və quruluşunu, fondların fəaliyyətinin səmərəliliyini öyrənməkdir.

***Elmi yeniliyi:*** milli iqtisadiyyatın inkişaf etdirilməsində, istehsalın stimullaşdırılmasında və həmçinin cəmiyyətin sosial inkişafında dövlət büdcəsi mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, büdcə və büdcədənkənar fondların fəaliyyəti iqtisadi baxımdan əhəmiyyətlidir və bu sahənin öyrənilməsinə ehtiyac duyulur.

***Tətbiqi əhəmiyyəti:*** məqalədə müasir dövrdə büdcənin quruluşu, büdcədənkənar fondların fəaliyyəti statistik baxımdan öyrənilmişdir. Aparılan tədqiqatlar ümumiləşdirilərək Azərbaycan Respublikasında büdcə gəlirlərinin artırılmasının zəruri amilləri göstərilmişdir. Göstərilmiş tövsiyyələrdən dövlət büdcəsinin gələcək illər üzrə gəlir və xərclərinin proqnozlaşdırılmasının statistik qiymətləndirilməsində istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. 2015-2016-cı illər.
2. Aslanov A.M.. Maliyyə və bank statistikası. Bakı: Elm, 2002, 370 s.
3. Салин В.Н. Статистика финансов, Москва- 2002, 560 с.



## РЕЗЮМЕ
## ГОСУДАРСТВЕННЫЙ БЮДЖЕТ И СУЩНОСТЬ ВНЕБЮДЖЕТНЫХ ФОНДОВ, ИХ СТАТИСТИЧЕСКАЯ ОЦЕНКА

***Сулейманова Ш.С. Салимова И.С.***

***Ключевые слова:*** *государственный бюджет, доходы бюджета, бюджетные расходы, внебюджетные фонды, государственные финансы, статистическая оценка .*

Государственный бюджет дает возможность государству направит финансовые ресурсы на решающие отрасли экономического и социального развития. Основные показатели государственного бюджета строится в соответствии предстоящей задачей на каждом историческом этапе экономической потребности и развития общества.



## SUMMARY
## STATE BUDGET AND SUMMARY EXTRA-BUDGETARY FUNDS , THEIR STATISTICAL EVALUATION

***Suleymanova Sh.S Salimova I.S***

***Keywords:*** *state budget, kita na badyet, expenditures badyet, extra-budgetary funds, the sovereign - governmental finance, statistical evaluation.*

State Budget allows the government will direct financial resources for the crucial sector for economic and social development. The main indicators of the state budget is built according to the upcoming task at each historical stage of economic and social development needs.



| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 13.05.2016 |
| | Son variant | 16.03.2017 |

**UOT 911.3 : 63**

# GƏNCƏ-QAZAX İQTISADİ-COĞRAFİ RAYONUNDA TƏBİİ ŞƏRAİTİN KƏND TƏSƏRRÜFATI CƏHƏTDƏN QİYMƏTLƏNDİRİLMƏSİ

**[1]ABDULLAYEVA ZOYA HAMLET qızı**
**[2]QULİYEV İSMAYIL ƏHLİMAN oğlu**
**[3]VƏLİYEV ALLAHVERDİ CAMAL oğlu**
**[4]HÜSEYNOVA LALƏ İSMAYIL qızı**
*Sumqayıt Dövlət Universiteti, 1,2-dosent, 3-baş müəllim, 4-müəllim*
*e-mail: lale_huseynova_1986@mail.ru*

***Açar sözlər:*** *təbii şərait, təbii mühit, iqtisadi-coğrafi rayon, Gəncə-Qazax maili düzənliyi, şabalıdı torpaqlar*

Müasir cəmiyyətin maddi texniki bazasının yaradılması işinin səmərəli şəkildə qurulması üçün ölkənin və onun ayrı-ayrı regionlarının təbii şəraiti və təbii ehtiyatlarının düzgün qiymətləndirilməsi həyata keçirilməlidir. Bu baxımdan respublikanın təbii ehtiyat potensialından səmərəli istifadə edilməsi və onun hər bir elementinin mühafizə olunması çox vacibdir. Əhalinin məskunlaşması və onun təsərrüfat fəaliyyəti üçün təbii şəraiti və ehtiyatların əlverişliliyi əsas şərt hesab olunur.Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda təbii şəraitin kənd təsərrüfatına təsiri imkanlarını nəzərdən keçirək [5, 123-124].

Respublikanın qərbində, əsasən Kiçik Qafqaz dağlarının şimal-şərq yamacında yerləşən Gəncə-Qazax iqtisadi-coğrafi rayonu fiziki-coğrafi baxımdan Kür çökəkliyi təbii vilayətinə aid olan Gəncə-Qazax mailli düzənliyini və Ceyrançöl düzünü əhatə edirdi. Bu iqtisadi-coğrafi rayon xarici ölkələrlə-şimaldan və qərbdən Gürcüstan, cənub–qərbdən Ermənistan Respublikası ilə sərhəddir.

Əlverişli təbii-coğrafi şəraitə, iqtisadi və geosiyasi mövqeyə malik olan iqtisadi rayon çox qədimdən məskunlaşmış ərazi hesab edilir. İndiki Gəncə-Qazax ərazisi vaxtilə mövcud olmuş Gəncə xanlığı, Şəmsəddin – Qazax sultanlığı ərazisini əhatə edir. Qeyd etməliyik ki, Azərbaycan torpaqlarında Rusiyanın Ermənistan dövləti yaratması istəyi, qonşu Göyçə, Karvansara (İcevan), Dilican, Borçalı və s. ərazilərdən yerli türklərin bu ərazilərin itirilməsi ilə yanaşı, mənimsənilmə və əhali məskunlaşmasına mənfi təsir etmişdir. Gəncə-Qazax maili düzənliyinin intensiv mənimsənilməsi və məskunlaşması XIX əsrin axırında xeyli sürətləndi. Beləki bu dövrdə çar hökuməti tərəfindən suvarma işlərinə ilk dəfə mailiyyə vəsaitinin ayrılması nəticəsində suvarma qurğularının çoxalması, pambığa olan tələbat Gəncə-Qazax maili düzənliyinin intensiv mənimsənilməsini və məskunlaşmasını sürətləndirdi. Ərazinin mənimsənilməsində Bakı və Tiflisi birləşdirən dəmiryolu tikintisinin(1883-cü il) də başa çatması əhəmiyyətli rol oynamışdır [3, səh. 411]

Gəncə-Qazax mailli düzənliyi və Ceyrançöl ərazisi iqtisadi-coğrafi rayonun təsərrüfat fəaliyyəti üçün əlverişli şəraitə malik hissəsidir. Orta dağlıq ərazilərdə dəmyə əkinçiliyin inkişafı üçün səmərəli imkanlar mövcuddur. Beləki, rütubətin kifayət qədər olması və yağıntının əsasən bitkilərin vegetasiya dövründə düşməsi, qara və qonur, qəhvəyi torpaqların yayılması dəmyə əkinçiliyin inkişafına imkan verir. Yüksək dağlıq hissələr əhalinin daimi təsərrüfat fəaliyyəti üçün əlverişli deyil [3].

Ceyrançöl düzündə yarğan-qobu şəbəkəsinin geniş yayıldığı ərazilər kənd təsərrüfatının fəaliyyəti üçün yararsız hesab edilir. İqtisadi rayonun cənub hissəsi çay dərələri ilə parçalanmış dağlıq relyefə malikdir. Şahdağ, Murovdağ, Murğuz dağlarının şimal yamacları və bu dağ silsilələrindən ayrılan dağ tirələri, dağarası çökəkliklər relyefə xüsusi rəngarənglik verir və

özünəməxsus təsərrüfat sahələrinin inkişafına zəmin yaradır. Gəncə rayonun iqlim müxtəlifliyi suvarmada müxtəliflik yaradır. Belə ki, Şahdağ və Murovdağ silsilələrindən başlanğıcını alan çoxlu çaylar axıb Kür çayına tökülür. Bu çaylar şəbəkəsi suvarma əkinçiliyində mühüm rol oynayır. Bəzi illərdə yaz aylarında bu çaylarda daşqınlar da baş verir. Yayda quruyan çayların hesabına quraqlıqların qarşısını almaq üçün bu çaylar üzərində süni göllər yaradılması su ehtiyatı yaradır. İqtisadi–coğrafi rayon şirin su ehtiyatları ilə yaxşı təmin olnmuşdur. Burada Kür, Ağstafaçay, Tovuzçay, Şəmkirçay, Zəyəmçay, Gəncəçay, Qoşqarçay, Kürəkçay, Qaraçay və.s. kimi çay şəbəkəsi, Şəmkir, Yenikənd, Ağstafaçay, Coğaz su anbarları, Göygöl, Candargöl, Maralgöl və.s. gölləri, artezian suları əsasən şirin su mənbələridir. Qeyd edilən bu şirin su mənbələri kənd təsərrüfatının suvarma suyuna, əhalinin və sənayenin suya olan tələbatını əsasən təmin edir. Samux və Goranboy rayonunun şirin suya olan tələbatının ödənilməsində Qabırrı çayının və Mingəçevir su anbarının rolu böyükdür. Ən böyük suvarma kanalı Ağstafaçay su anbarından başlanan, uzunluğu 69 km olan, Qazax, Ağstafa, Tovuz, Şəmkir rayonlarının 30 min hektardan çox sahəni suvaran Ağstafaçay çay kanalıdır [3, səh.413]. Gəncə-Qazax çoxlu sayda mineral bulaqlarla zəngindir. Aşağı Daşkəsən, Yuxarı Daşkəsən, Alaxançallı, Qabaqtəpə, Narzan, Gədəbəy, Slavyanka v. s. mineral su mənbələri daha əhəmiyyətli olub tərkibinə və sutkalıq debitinə gorə bir- birindən fərqlənirlər. Bu sular müalicəvi əhəmiyyəti ilə bərabər süfrə suyu kimi də istifadə edilir.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun relyefi, xüsusilə yüksəklik amplitudunun böyüklüyü (3500m-dən çox) əhalinin məskunlaşması və ərazinin mənimsənilməsində müxtəliflik yaradır. Bu iqtisadi-coğrafi rayonda ərazilərin mənimsənilməsi və məskunlaşma şəraitinə görə dörd zona ayrılır.

Kürün sağ sahili və Kiçik Qafqazın şimal şərq ətəkləri arasında yerləşən Gəncə-Qazax maili düzənlikləri əhalinin, iqtisadi potensialın, sosial infrastrukturun əhəmiyyətli hissəsinin cəmləndiyi əsas ərazidir. Bu ərazi üçün düzən relyef, əlverişli torpaq-iqlim şəraiti, xüsusilə bol aqroiqlim ehtiyatları xarakterikdir. Məhsuldar şabalıdı və açıq şabalıdı torpaqların geniş yayılması, qışın yumşaq keçməsi, ayazların çox gec düşməsi burada kənd təsərrüfatının inkişafina böyük imkan yaradır. İsti iqlim rütubət çatışmazlığı suvarma əkinçiliyinə səbəb olmuşdur [3]. Kürün sol sahili ilə Gürcüstanın dövlət sərhədi arasında yerləşən Ceyrançöl təpəli düzənliyinin qışı yumşaq keçən yarmsəhra quru-çöl iqlimi, efemerli–yovşanlı bol yem bazası daimi istifadə olunmayan geniş ərazi potensialı heyvandarlığın inkişafı üçün böyük təbii imkanlar yaradır. Ona görə də Ceyrançöl Azərbaycanın mühüm qış otlaqından birinə çevrilmişdir. Otlaq örüş şəraitində heyvanların - xüsusən də qoyun və keçilərin saxlanmasına şərait yaratmışdır. Gəncə iqtisadi rayonun aran yarımzonasında orta illik temperatur 12,1-13,20C, aktiv temperaturun miqdarı 3860-41670C, yağıntılar 282-451 mm-dir. Dağətəyi və dağlıq yarımzonada orta illik temperatur 10,3-11,80C aktiv temperaturun miqdarı 3200-37000C və yağıntıların miqdarı 346-525mm-dir. Zonanın açıq – şabalıdı və çəmən torpaqlarında birillik və çoxillik bitkilərin becərilməsi, hevandarlığın inkişafı üçün yemçiliyin inkişafı əsas yer tutur. İqtisadi rayonun dağətəyi və alçaq dağlıq zonası düzən ərazilərlə müqayisədə çay dərələri ilə nisbətən çox parçalanmasına və rütubət çatışmazlığına baxmayaraq əkinçilik və heyvandarliq üçün əlverişlidir. Dağlıq ərazilərlə düzən ərazilərin qovşağını əhatə edən bu zona, coğrafi konveyer prinsipi üzrə hər iki hissənin müsbət amillərindən istifadə etməklə, kənd təsərrüfatının intensiv inkişafına zəmin yaradır. Ona görədə burada həm heyvandarlıq, həm də əkinçilik yaxşı inkişaf etmişdır. Orta zona Gəncə və Zəyəm çayları ərazisini əhatə edir. Orta dağlıq ərazilərin relyefi kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün daha əlverişlidir. Regionun dəniz səviyyəsindən 1000 -2000 m mütləq yüksəkliklər arasinda yerləşən orta dağlıq zonasının meyilliyi az olan yamacları dəmyə əkinçiliyi üçün əhəmiyyətlidir. Beləki, ilin isti dövründə 500-600 mm-ə qədər yağıntının düşməsi, onun 70%-nin yazda və yayın əvvəllərində baş verməsi dəmyə əkinçiliyə imkan verir. Ərazidə təbii şəraitin bu xüsusiyyətləri kartofçuluq və yazlıq taxılçılığın daha geniş inkişaf etdirilməsinə şərait yaradır. Daşkəsən, Gədəbəy, Tovuz, qismən Şəmkir rayonlarının yüksək keyfiyətli dəmyə kartof əkini sahələri bu zonada yerləşir [2, səh.120]

Dəniz səviyyəsindən 2000 m-dən yuxarıda yerləşən yüksək dağlıq qurşaqda soyuq iqlim, relyefin kəskin parçalanması və kənd təsərrufatına yararlı torpaq sahələrinin məhdudluluğu burada daimi əhali məskunlaşmasına imkan vermir. Lakin ərazidən əhəmiyyətli şəkildə heyvandarlıq, arıçılıq üçün yaylaq kimi, həm də rekreasiya məqsədi ilə istifadə edilə bilər. İqtisadi rayonun yerləşdiyi əlverişli coğrafi mövqe - təbii iqlim şəraiti, yeraltı və yerüstü sərvətləri, əmək ehtiyatları iqtisadiyyatın güclü inkişaf etməsinə müsbət təsir etmişdir. Mülayim iqlimi, münbit torpaq şəraiti kənd təsərrüfatının bütün sahələrinin inkişaf etməsinə imkan yaradır. Düzənlik ərazilərdə temperaturun yüksəkliyi, günəşli günlərin çoxluğu, qışın mülayim və qısa keçməsi aqrar sahənin inkişaf etdirilməsində əsas rol oynayır. İqtisadi rayon üzrə təbii şəraitin kənd təsərrüfatı üçün əlverişliyi onun dinamik inkişafını təmin edir. Kənd təsərrüfatının ixtisaslaşma sahələri bazar iqtisadiyyatı şəraitinə uyğun inkişaf etdirilir. Bunu aşağıdakı cədvəl üzrə nəzərdən keçirək [7, səh. 12]:

*Cədvəl 1*

*Region üzrə kənd təsərrüfatının texniki-iqtisadi göstəriciləri*

| Əsas bitkiçilik məhsullarının istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə), ton | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|
| Dənli və dənli paxlalılar | 271276 | 237707 | 278470 | 297482 | 322418 | 264765 |
| o cümlədən buğda | 184715 | 149053 | 179444 | 184665 | 201316 | 166801 |
| Pambıq | 3323 | 1677 | 2975 | 2568 | 1472 | 1093 |
| Şəkər çuğunduru | - | 57 | - | 1765 | 7803 | 11346 |
| Dən üçün günəbaxan | 3642 | 6978 | 10839 | 10264 | 9811 | 10730 |
| Kartof | 700853 | 574835 | 540277 | 564551 | 587014 | 453697 |
| Tərəvəz | 184817 | 203180 | 203779 | 201757 | 204067 | 199158 |
| Bostan bitkiləri | 19618 | 28020 | 23161 | 16984 | 19985 | 18636 |
| Meyvə və giləmeyvə | 116296 | 129204 | 131834 | 138403 | 140972 | 134135 |
| Üzüm | 27041 | 45458 | 49515 | 52436 | 53703 | 55652 |
| Mal-qaranın sayı (bütün təsərrüfat kateqoriyaları üzrə), baş | 2005 | 2010 | 2011 2012 | | 2013 | 2014 |
| İri buynuzlu mal-qara | 298883 | 322841 | 325844 | 328581 | 330994 | 329301 |
| o cümlədən inək və camışlar | 141833 | 154303 | 155231 | 156913 | 158176 | 156934 |
| Qoyunlar və keçilər | 1626241 | 1736622 | 1739350 | 1740207 | 1745925 | 1741316 |
| Donuzlar | 1407 | 76 | - | 185 | 643 | 207 |
| Quşlar | 2166833 | 2399809 | 2438828 | 2483108 | 2997419 | 3119063 |
| Heyvandarlıq məhsullarının istehsalı, ton) | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
| Ət (kəsilmiş çəkidə) | 18062 | 22536 | 23312 | 24461 | 26154 | 27564 |
| Süd | 163605 | 222702 | 237700 | 248197 | 259982 | 266862 |
| Yumurta, min ədəd | 79869 | 110680 | 111897 | 113036 | 175470 | 210888 |
| Yun (fiziki çəkidə) | 2701 | 3604 | 3673 | 3725 | 3788 | 3841 |

Cədvəldən göründüyü kimi bu iqtisadi rayonda dənli və paxlalı bitkilər, meyvə və giləmeyvə, üzümün istehsalı artmış, pambıq, kartof və buğda bitkilərinin əkin sahəsi azalmışdır. Şəkər cuğunduru yeni sahə olub geniş inkişaf istiqamətlərinə malikdir. Mal-qara, qoyun və keçilərin sayı artmış, donuzların sayı kəskin azalmışdır.

Ölkəmizdə 2004/2008, 2009/2013, 2014/2018-ci illər üçün təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası nəticəsində regionda aqrar-sənaye kompleksinin fəaliyyəti səmərəli təşkil olunmaqdadır. Aparılmış islahatlar nəticəsində

iqtisadi rayonda azad sahibkarlıq inkişaf etmiş, istehsalın yeni tərkibi formalaşdırılmış və istehsalın artımı prosesi başlanmışdır.

***Elmi yeniliyi*:** Məqalə Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda təbii şəraitin kənd təsərrüfatı cəhətdən qiymətləndirilməsi baxımından elmi əhəmiyyət kəsb edir.

***Tətbiqi əhəmiyyəti*:** Əhalinin məskunlaşması və onun təsərrüfat fəaliyyəti üçün təbii şəraiti və ehtiyatların qiymətləndirilməsi əsas amil hesab edilir. Məqalədə təhlil olunan məsələlər regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlərdən biridir.

## ƏDƏBİYYAT

1. Abbasov C.R. - Azərbaycanın müstəqilliyi şəraitində kənd təsərrüfatında baş verən struktur dəyişiklikləri. BDU xəbərləri. Bakı: Bakı Universiteti, 2002, №1.
2. Abbasov C.R. Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası. Bakı: Bakı Universiteti, 2005, 124 s.
3. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. V.Ə.Əfəndiyevin redaktorluğu ilə, Bakı: Bakı Universiteti 2010, 496 s.
4. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. İqtisadi İnkişaf Nazirliyi, Bakı: 27 fevral 2014.
5. İmrani Z.T., Zeynalova K.Z. Azərbaycanda təsərrüfatın ərazi təşkilinin iqtisadi-coğrafi xüsusiyyətləri. Bakı: Nafta-Press, 2014, 232 s.
6. Əyyubov Ə.C., Hacıyev Q.Ə. Az. SSRİ-nin iqlim ehtiyatları. Bakı: Elm, 1984, 200 s.
7. Azərbaycanın regionları, 2015 ( stat.gov.az)

## РЕЗЮМЕ
## ОЦЕНКИ ПРИРОДНЫХ УСЛОВИЙ ПО СЕЛЬСКОМУ ХОЗЯЙСТВУ ГЯНДЖА-ГАЗАХ ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОГО РАЙОНА

***Абдуллаева З.Г., Кулиев И.А., Велиев А.Дж., Гусейнова Л.И.***

***Кючевые слова:*** *природные условия, естественная среда, экономическо-географический район, Гянджа-Казахская наклонная равнина, каштановые почвы*

В статье рассматриваются природные условия Гянджа-Газахского экономико-географического района. В статье анализируются направления развития сельскохозяйственного растениеводства и животноводства этого экономического района в 2005 и 2016 гг.

## SUMMARY
## GANJA-KAZAKH ECONOMIC-GEOGRAPHIC REGION OF AGRICULTURE ASSESSMENT OF NATURAL CONDITIONS

**Keywords:** natural conditions, natural environment, economic and geographical region, Ganja-Qazax inclined plain, chestnut soils

In the article the natural conditions of the Ganja-Kazakh economic-geographic region are analyzed in the high places, and this naturally is reflected employment. The article analyzes the development trends of agricultural crops and livestock this economic region in 2005 and 2016.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 03.11.2016 |
| | Son variant | 16.03.2017 |

**UOT 394**

# XAQANİ ŞİRVANİ YARADICILIĞINDA AİLƏ-ÖVLAD TƏRBİYƏSİ

**DADAŞZADƏ ƏHLİMAN İBRAHİM oğlu**
*Sumqayıt Dövlət Universiteti, müəllim*
*e-mail: ehliman.@gmail.com*

***Açar sözlər:*** *Xaqani, Azərbaycan, tərbiyə, saray, qayğı, sənətkar, hörmət*

Böyük Azərbaycan şairi Xaqani 1120-ci ildə Şamaxı şəhəri yaxınlığındakı Məlhəm kəndində sənətkar ailəsində anadan olmuşdur. Xaqani şairin ədəbi təxəllüsü, Əfzələddin onun kamillik ləqəbi, adı isə İbrahimdir. Şair babasından tutmuş yaxın qohumlarına qədər bütün ailə üzvlərinə şeir yazmış, onların xarakterinin əsas cizgilərini vermişdir.

Xaqaninin şair kimi yetişməsində, tərbiyəsində əmisi Ömər Osman oğlunun xüsusi rolu olmuşdur. O, Xaqanini övladlığa götürüb doğma balası kimi səbr və təmkinlə onun təlim-tərbiyəsi ilə məşğul olmuş, ona ilahiyyat, nücum, təbabət, fəlsəfə, riyaziyyat elmlərinə dair bilikləri öyrətmişdir. Xaqani ilk şeirləri Həqayiqi (həqiqətləri sevən) təxəllüsü ilə yazmışdır. Bu təxəllüsü ona əmisi vermişdir. Xaqani dərin kədərlə qarşılamış, çoxlu mərsiyələr yazmışdır. Xaqani şeir sənəti sahəsində təkmilləşməsinə müəllimi, Şirvanşahlar sarayının məlum üş-şüərası (şairlər padşahı) Əbü-Əla Gəncəvi güclü təsir göstərmiş, onu şagirdlərindən üstün tutaraq yeganə qızını Xaqaniyə vermiş, Şirvanşahlar sarayına apararaq III Mənuçöhrə tanıtmış, saray şairləri sırasına daxil olmasına şərait yaratmışdır. Ona Xaqani ləqəbini də o vermişdir. III Mənuçöhrün vəfatından sonra hakimiyyətə gələn Axsitanın dövründə Xaqaninin sarayda vəziyyəti xeyli çətinləşmişdir. Xaqaninin səylərinə baxmayaraq, Axsitan ona münasibətini dəyişməmişdir. Ona görə də sarayda Xaqani dərin mənəvi və ruhi iztirablar keçirmişdir. O, həmin illərdə Kəbə hesab etdiyi vətəni Şamaxıdan çıxmağa çalışmışdır. Xaqani 1156-cı ildə 36 yaşında Məkkəyə getmək bəhanəsi ilə Şirvanşahdan çıxmağa icazə ala bilir. Bir ilə qədər çəkmiş səfər zamanı bir çox Şərq ölkələrini, Ərdəbil, Həmədan, Bağdad, Şam, Mosul, İsfahan kimi mədəniyyət mərkəzlərini gəzib görkəmli alimlər və dövlət xadimləri ilə görüşür. O gəzib gördüyü yerlərin iqlimi, coğrafi şəraiti, əhalinin məişəti, əxlaqı, adət-ənənələri ilə tanış olur. Həmin səfərin nəticəsində Xaqani Azərbaycan ədəbiyyatına Sasanilər dövlətinin dəbdəbəsini, keçmiş mədain sarayının zər-zinətini, xərabələrini yüksək poetik bir dillə təsvir edir.

“Töhfət-ül-İraqeyn” adlı məzmun səfərnaməsində isə Xaqani ata və anasından, onlara səmimi münasibətindən, qohumlarından, gəzdiyi ölkələrdən, rast gəldiyi adlı-sanlı adamlarından söhbət açır. Xaqani ikinci dəfə Şamaxıdan çıxmaq istəyərkən tutulub Şabran qalasına salınır. Yeddi aydan sonra Xaqani həbsxanadan buraxılır. Zindandakı ağır günlərini “Həbsiyyə” əsərində təsvir edir. Xaqani Məkkə ziyarəti bəhanəsi ilə Şamaxını tərk edir. Məkkəyə ikinci səfərindən sonra o, Şirvana qayıdır. Onun həyatının son illəri çox kədərli olmuşdur. Bir-birinin ardınca arvadı, qızı, oğlu vəfat edir. Şirvanda həyatı ağır keçdiyindən Xaqani Təbrizə köçür.

Xaqani 1199-cu ildə Təbrizdə vəfat edir. Xaqani elmə, elm öyrənməyə yüksək qiymət vermiş, böyüklərin ağıl və elmindən sağ və sol əli doldurmağı, özünü elm və bilik kölgəsində saxlamağı, dövlətə zəhmətlə, biliklə çatmağı zəruri saymışdır. O, biliyi, etibarı kişinin şərəfi adlandırırdı. Ağıllı insanlar xalq üçün qənimətdir. Ağıllı adamlar ziyan çəksə də, xalq üçün çalışırlar. Loğvalanmayan adamları xalq çox sevər. İnsanlar var-dövləti ilə deyil, hikməti ilə öyünməlidirlər. Xaqani ata qayğısı və ana nəvazişini yüksək qiymətləndirərək uşaqların tərbiyəsində onların xidmətlərini xüsusi qeyd edir. Anasının köməyi sayəsində müdriklik zirvəsinə yüksəldiyini yazır. O, bütün övladlara nəsihətində deyirdi: -“Hər nə etsən, ana haqqını unutma. Ana canını sənə qurban edib”. [1,49]

Xaqani deyirdi ki, olmasaydı ana zəhməti, qazana bilməzdim mən bu şöhrəti [2,59].

Xaqani Şirvani övlad tərbiyəsində ata-ananın roluna yüksək qiymət verərək “Töhfət-ül İraqeyn” adlı əsərində yazırdı: Atam Nəccar Əlidir, o, məni böyüdüb, çörək verəndir. Mənim borcum onun

bütün zəhmətinin əvəzini ödəməkdir. Atam öz ailəsini çox sevirdi, mənim borcum ailəni qoruyub saxlamaqdır, atam mənə toxunub zərər gətirən hər bir şey üçün canını verməyə hazır idi.

*Səhv edib dadsaydım dünyada əgər*
*Canları məhv edən acı bir zəhər.*
*Satardı ən əziz hər nəyi vardı,*
*O, zəhəri məhv edən dərman alardı.*
*O, can sərf edən hər istəyimə,*
*Əgər quş südü də istəsəm, yenə*
*Hansı yolla olsa, tapardı, inan;*
*O, mənə canını edərdi qurban.*
*O bir soltan kimi əmr verərkən,*
*Quş kimi hazırdım qulluğunda mən.* [3,58]

Xaqani onun inkişafına ruh verən ananın tərifinə bir neçə şeir həsr etmişdir. Xaqani yazırdı: "Mənim şeirimin az-çox şöhrət qazanmasının səbəbi anamdır. Anam ismət aləmində çox möhtərəm bir şəxsiyyət idi. O, Züleyxa kimi bir xanım, hüsnündə isə Rum gözəli idi. Anam övladlarına xüsusi qayğı göstərirdi. Atam anama Quranı qəbul etdirmişdir. Anam öz paklığı və ləyaqəti ilə nəinki övladlarına, hətta bütün qadınlara nümunə idi. Bütün şirvanlılar anamdakı yüksək keyfiyyətlərə görə şirvanlı olmaları ilə fəxr edirdilər. Mənim başıma Şirvanda min bəla gəlsə də, hara getsəm, yenə Şirvana qayıtmalı olurdum".

*Onun ruzu ilə xoş olar halım,*
*Onun duası ilə gülər iqbalım.*
*Onun hər sözündən alıram nüvvət;*
*Qəlbini şum etdi, verdi nəsihət,*
*Düşmən tənəsilə kəsilsə yolum,*
*O zəif qarıdan güc alar qohum.*
*Onun duaları olmasaydı, ah!*
*Ömrüm puç olardı, yaqin bir sabah!* [3,59]

Xaqani Şirvanı özünün "gənclərə nəsihət" adlı şeirində bu gün də müasir gənclik üçün böyük əhəmiyyət kəsb edən fikirlər söyləmişdir. Xaqani deyirdi ki, ey cavanlar, fitnə törətməkdən, fitnəkar olmaqdan həmişə uzaq olmağa çalışın. Xaqani daha sonra gənclərə nəsihət edirdi ki, bilin və agah olun ki, hiyləgərlik və oğurluğun əvvəli xoşdursa, sonluğu isə əlin kəsilməsi ilə qurtarır.

Xaqani gənclərə məsləhət görürdü ki, bir kiçik adama nəvaziş etsən, sənin böyüklüyün heç vaxt əlindən getməz. Xaqani daha sonra gəncliyə nəsihət edirdi ki, gördüyü hər kəsi insan zənn etmə, elə insanlar var ki, zatən, onlar şeytandır.

*Boyun böyüklüyü deyildir gərək,*
*Hümmət böyük olsun, bir də ki, ürək...*
*Dünyada ağıl tək bir ustad varmı?*
*O bir qul yanında şagird olarmı?*
*Ədəbdən canına bir tilsim düzəlt,*
*Kəsranın ğacına ədəbdir zinət.*
*Qorun pis adamadan, anla ki, onlar*
*Əqrəb tək kor olar, ilan tək lal, kar.* [3,178]

Xaqani həddən artıq ailəcanlı adam olmuş həyat yoldaşını, uşaqlarını dərin məhəbbətlə sevmişdi. Həyat yoldaşının və oğlunun ölümünə həsr etdiyi şerindən bu daha aydın görünür:

*Var idi mənim vəfalı yarım,*
*Xoş keçdi onunla ruzigarım.*
*Yıxdı evimi də bu bədnəzərlər,*
*Soldu mənim o bağım, baharım*
*Barlı, bərəkətli, bollu süfrəm,*
*Oldu nə yaman bu gün-güzarım.*
*Zövcəm var ikən şirin gülüşlə,*
*Göz yaşları oldu indi yarım.*

*Əsdi nə zaman bu qəm xəzanı,*
*Soldu bu gözəl könül baharım.* [3,191]

Xaqani öz yaradıcılığında sərvət, dövlət dalınca qaçanları, abır və həyasını zəhmətsiz qazanc üçün atmağa hazır olanları ciddi tənqid edərək gəncliyi bu yoldan çəkinməyə çağırırdı.

*Xaqaniyəm, çörək üçün mən abrımı*
*atım niyə?*
*Hərislikdən göz yaşıma, ürək qanı*
*qatım niyə?*
*Haram buğda ucbatından nələr*
*çəkdi Adəm, nələr?*
*Haram çörək axtarma ki,*
*başına min bəla gələr.* [3,195]

Xaqani gəncliyi ağıla, kamala, düzgün yola səsləyir. Zəhmətsiz qazanc hesabına var-dövlət toplayanların axırının min bir bəla ilə qurtaracağını göstərirdi. **Xaqani** gəncliyə müraciətlə deyirdi ki, ağlın pənahında olsan, ağıl tamahın boynunu vurar. **Xaqani üç şeyi: cavanlığı, rahatlığı və xoş güzaranı gözəl sayır,** gəncləri gəncliyin qədrini bilməyə, rahatlıq əldə etmək üçün zəhmətlə məşğul olmağa, xoş güzəran keçirmək üçün qənaətcil olmağa çağırırdı. [4;63]

***Elmi yeniliyi:*** Bu məqalədə ailə-övlad tərbiyəsi münasibətlərinə geniş yer verilmiş, həmin münasıbətlər dövrün ictimai-siyasi tələbləri baxımından şərh edilmişdir.

***Tətbiqi əhəmiyyəti:*** Məqalədən cəmiyyətimizdə xoşbəxt yaşayıb yaradan, ailə quran hər bir gənc örnək kimi istifadə edə bilər. Ali məktəblərdə "Pedaqogika" və "Ailə pedaqogikası" fənnindən mühazirə mətni kimi istifadə oluna bilər.

## ƏDƏBİYYAT

1. Xaqani Şirvani Seçilmiş əsərləri. Bakı: Maarif, 1987, 156 s.
2. Xaqani Şirvani Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 672 s.
3. Xaqani Şirvani Seçilmiş əsərləri. Bakı: Azərbaycan Mədəniyyətinin Dostları fondu, 2005, 327 s.
4. Talıbov Y. və b. Gənclərin mənəvi tərbiyə problemləri. Bakı: Ünsiyyət, 1998, s.13.

## РЕЗЮМЕ
## СЕМЬЯ И ВОСПИТАНИЕ ДЕТЕЙ В ТВОРЧЕСТВЕ ХАГАНИ ШИРВАНИ

***Дадашзаде А.И.***

***Ключевые слова***: *Хагани, Азербайджан, воспитание, дворец, забота, творчество, уважение,*

В статье дана краткая информация о жизни и творчестве Хагани Ширвани. Приведены примеры о воспитании в семье, нравстевенные задачи, поставленные в произведениях великого поэта Востока имеют огромное значение и в наши дни. Такие идеи как честность и правдивость, нравственная чистота, хранение верности, доброта и человеколюбие, являющиеся основной составной частью нравственного воспитания, отмечены золотой линией в произведениях великого поэта нашего народа Х. Ширвани. Это призыв молодёжи к уму, зрелости, правильному пути.

## SUMMARY
## FAMILY AND EDUCATION OF CHILDREN IN THE CREATIVITY OF KHAGANI SHIRVANI

***Dadashzade A.I***

***Keyworsd***: *Khagani, Azerbaijan, education, palace, care, creativity, respect*

The article gives a brief information about the life and work of Khagani Shirvani. Examples are given of education in the family, the moral tasks posed in the works of the great poet of the East are of great importance in our days. Ideas such as honesty and truthfulness, moral purity, keeping loyalty, kindness and philanthropy, which are the main component of moral education, are marked by a golden line in the works of the great poet of our people H. Shirvani. This is the call of the youth to the mind, maturity, the right way.

Daxil olma tarixi: İlkin variant 01.1102016
Son variant 16.03.2017

**UOT 37.046.14**

# RİYAZİYYATIN İBTİDAİ KURSUNUN TƏBİƏT FƏNLƏRİ İLƏ ƏLAQƏLİ TƏDRİSİNİN DİDAKTİK XÜSUSİYYƏTLƏRİ

**[1]HƏSƏNOVA XALİDƏ SİDQƏLİ qızı**
**[2]ƏLİYEVA KÖNÜL HƏMİD qızı**
**[3]BABAYEVA ÜLKƏR RAFİQ qızı**
*Sumqayıt Dövlət Universiteti, 1,2-dosent, 3-assistent*
*e-mail: novreste1982@box.az*

***Açar sözlər:*** *fənlərarası əlaqə, mətnli məsələ, təlim metodu*

Məlumdur ki, həqiqi aləmi tam halda mənimsəmək, təbiət hadisələrini qarşılıqlı dialektik vəhdətdə görmək, təhsil-tərbiyənin nəzəriyyəsi və təcrübəsinə kompleks yanaşmaq üçün tədris fənləri arasındakı obyektiv əlaqələrdən istifadə etmək çox faydalıdır. Orta ümumtəhsil məktəblərində ayrı-ayrı fənlərin tədrisi zamanı fənlərarası əlaqələrin əhəmiyyətindən danışarkən A.V.Usova yazır: "Fənlərarası əlaqənin əhəmiyyətini biz, hər şeydən əvvəl, tədrisin elmi səviyyəsini yüksəltməkdə, şagirdlərin dialektik təfəkkürünü inkişaf etdirməkdə, onlarda elmi dünyagörüşünü formalaşdırmaqda, bilik, bacarıq və vərdişlərin geniş bir surətdə köçürülməsi üçün şərait yaratmaqda görürük". Müəlliflərdən V.N.Fyodorova isə yazır: "Fənlərarası əlaqə təlimin elmiliyi və müvafiqliyinə, şagirdlərin idrak fəaliyyətinin gücləndirilməsinə, məktəblilərin bilik, bacarıq və vərdişlərinin keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir". Belə iqtibasların sayını artırmaq da olar. Bütün bu rəylər onu göstərir ki, bütün dövrlərdə olduğu kimi, tədris fənninin metodologiyası və məzmunu yeniləndikcə, fənlərarası əlaqələrin rolu və tətbiqi imkanları da genişlənir.

Hazırda orta məktəb şagirdlərinin təbiət elimlərinə aid təhsili həyat bilgisi, biologiya, fiziki coğrafiya, fizika, kimya, astronomiya fənlərinin təlimi ilə təmin olunur. Riyaziyyat təhsili də bu tədris fənləri ilə bilavasitə əlaqədardır.

Təbiət elmləri təhsilinin səmərəliliyi aşağıdakı şərtlərlə təmin olunur:

- kiçikyaşlı məktəblilərin tədris fəaliyyətinin ümumi mövzusu ilə - onların anladığı elmi səviyyədə təbiətin dərk edilməsi;
- ibtidai siniflərdə ümumi tədris və tərbiyə məsələlərinin, təbiət - riyaziyyat fənlərinin məzmununun onların proqramları ilə kompleks həyata keçirilməsi;
- bilik, bacarıq və vərdişlərin mənimsənilməsini, elmi dünyagörüşün formalaşmasını və məktəblilərin əmək fəaliyyətinə hazırlanmasını təmin edən şagirdlərin idrak fəaliyyətlərinin fəallaşdırılması sistemi ilə.

Təlim, tərbiyə, təhsil, inkişaf və tətbiq məqsədləri bütün ibtidai sinif fənlərinin məzmununa aid olub, təbiət riyaziyyat elmləri kurslarının həm idrakın vahid mövzusu kimi şərtlənən, həm də səciyyəvi xüsusiyyətləri ilə fərqlənən təlim məsələləri vasitəsilə pedaqoji prosesdə reallaşdırılır.

Riyaziyyatın tədrisi zamanı qarşıda duran əsas məsələlərdən biri canlı və cansız təbiət haqqında müasir elmlərin topladığı biliklərin əsaslarına şagirdlərin müvəffəqiyyətlə yiyələnməsi imkanlarına ilkin şəraitin, bünövrənin yaradılmasından ibarətdir. İbtidai siniflərdə o da nəzərə alınmalıdır ki, təbiət bilikləri zəngin olduğundan orta məktəbdəki təlim müddətində onu tam həcmdə dərk etmək mümkün deyildir. Ona görə, təbiət fənləri üzrə hər bir məktəb fənninin proqramı və dərsliyinin (o cümlədən, ibtidai riyaziyyat kursunun və həyat bilgisi fənninin) məzmunu uyğun elmin yalnız başlıca faktları, anlayışları, nəzəriyyəsi və metodlarını əhatə edir.

İbtidai siniflərdə riyaziyyatın təbiət bilikləri ilə əlaqəli tədrisinin məzmunu təlim prosesinin dinamik və sistemli olmasına, hər bir dərsdə şagirdlərin bütün idrak qabiliyyətləri və emosional hisslərin fəal olmasına imkan verməlidir.

Şagirdlərin həm riyaziyyat, həm də təbiət fənləri üzrə biliklər sisteminə - qarşılıqlı əlaqəli şəkildə yiyələnməsi bir çox cəhətdən müəllim tərəfindən həyata keçirilən təlim metodlarından (öyrətmə metodları), həmçinin şagirdlərin özləri tərəfindən həyata keçirilən və biliklərin mahiyyətinin açılmasına, onların mənimsənilməsinə, tətbiqinə, yeni tədris situasiyasına köçürülməsinə imkan verən öyrənmə metodlarından asılıdır. Riyaziyyatın təbiət fənləri ilə əlaqəli tədrisinin digər məsələsi bunlardan ibarətdir.

Hər iki məsələnin həlli üçün əlverişli şərait vardır. Belə ki, riyaziyyat və həyat bilgisi fənləri məzmununun səciyyəvi xüsusiyyəti müəllim və şagirdlərin əlaqəli fəaliyyətini təmin edən müxtəlif təlim metodlarını tətbiq etməyə imkan verir. Bu fənlər üzrə öyrənmə metodlarının (öyrənilən əşyalar, proseslər və hadisələrin müxtəlif müşahidələri, tədris tapşırıqlarının yerinə yetirilməsi, müxtəlif hesablama və mətnli məsələlərinin həlli, ölçmə və qurma məsələləri, qrafiklərin və cədvəllərin tərtibi və i.a) geniş həyata keçirilmə imkanları vardır. Müşahidələr və müşahidə materiallarının riyazi bacarıqların köməyi ilə ümumiləşdirilməsi hissi idrakı yüksək dərəcədə stimullaşdırır; qrafiklər, riyazi xarakterli məsələ və tapşırıqlar kiçikyaşlı məktəblilərin idrak fəaliyyətinin bütün proseslərini həyəcanlandırır, xüsusən, mücərrəd təfəkkürün gücləndirilməsinə təkan verir.

Riyaziyyatın təbiət fənləri ilə qarşılıqlı əlaqəli təlimi prosesinin səmərələliyi yalnız təlim metodları və məktəblilərin müxtəlif öyrənmə metodları ilə əlaqə vasitəsilə əldə edilmir. Bundan başqa, dərsdə texniki və əyani vasitələrdən istifadə edilməsi zəruridir: pedaqoji prosesə kinofraqmentlər, diafilmlər və diapozitivlər, kompyuter texnologiyası, canlı və cansız təbiətin öyrənilən obyektlərin, proseslərin və hadisələrin təsvirini təmin edən televiziya verilişləri. Dərsin keyfiyyətini yüksəltmək üçün öyrətmə və öyrənmə metodlarını proqramlaşdırılmış təlim elementləri ilə əlaqələndirmək məqsədəuyğundur.

Metodik zənginliyin bütün bu rəngarəngliyini hərəkətə gətirən ibtidai sinif müəllimi kiçikyaşlı məktəblilərin riyaziyyat və təbiət elmlərinə aid biliklərini yalnız genişləndirmir, həm də onların fikri fəallığını müşahidəçiliyini, yaddaşı və təxəyyülünü inkişaf etdirir. Çalışma həlli vasitəsilə şagirdlərin tətbiqi və əməyə hazırlığı da növbəti addımlardandır. Bu işdə təbiət hadisələri ilə əlaqədar olan, respublikamızın təbiəti, coğrafiyası, iqtisadiyyatı, kənd təsərrüfatı, tarixi, elmi nailiyyətləri və s. bağlı olan riyazi məsələlərin imkanları həddindən çoxdur.

Qeyd edək ki, təbiətlə bağlı olan elmlər sənaye və kənd təsərrüfatı istehsalatının müxtəlif sahələri ilə bilavasitə əlaqəli olduğundan, onların elmi prinsiplərini və əmək fəaliyyəti üsullarını təyin etdiyindən riyaziyyatdan mətnli məsələlərin məzmununa təbiət elmləri üzrə anlayışların daxil edilməsi və şagirdlərə öyrədilməsi yuxarı siniflərdə yeniyetmə gənclərin politexnik və əmək hazırlığına təsir göstərməyə istiqamətləndirilmişdir. Belə hazırlığın elementləri sonradan digər fənlərin, o cümlədən biologiya, fiziki coğrafiya, fizika, kimya fənlərinin məzmununa daxil olub, şagirdlərdə eksperimental ölçmə, hesablama, qrafik bacarıq və vərdişlərin formalaşmasına imkan verir.

Təbiət elmləri üzrə məlumatların riyazi məsələlərin məzmunu vasitəsilə ibtidai təhsilə daxil edilməsi nəzərdən keçirilən bu üç məsələ ilə məhdudlaşmır. Həmin məsələlərin, müvəffəqiyyətlə həyata keçirilməsi üçün şagirdlərin əqli müşahidədən başlayaraq onun inkişafının ardıcıllığı, xüsusən, inkişaf etmiş təfəkkürün olması zəruridir. Ona görə şagirdlərdə riyaziyyatdan müxtəlifməzmunlu mətnli məsələlər və təlim metodları vasitəsilə bütövlükdə əqli inkişafın intellektual bacarıq və vərdişlərinin formalaşması təbiət fənləri üzrə ilkin biliklərin ibtidai riyazi təhsil zamanı verilməsinin digər addımını təşkil edir.

Psixoloqlar tərəfindən sübut olunmuşdur ki, şagirdlərin əqli inkişafı yalnız onların fəal tədris fəaliyyəti prosesində mümkündür. Başqa sözlə, sistemləşmiş biliklərin onlar tərəfindən qavranılmasında, biliklərin əqldə yenidən işlənib hazırlanmasında və təlim prosesində müəllim

tərəfindən yaradılan müxtəlif tədris situasiyalarında onların praktik tətbiqlərində mümkündür. Nəticədə şagirdlərdə düzgün elmi təsəvvürlərin və anlayışların əmələ gəlməsini, bütövlükdə təfəkkürün inkişafını təmin edən analiz-sintez, induksiya-deduksiya, müqayisə, analogiya kimi fikri fəlaliyyət priyomları yaranır və inkişaf edir.

Riyaziyyatın ibtidai kursunun tədrisi zamanı təbiət fənləri üzrə ilkin təhsilin növbəti problemi daha çox əhəmiyyətlidir. O, məsələ həlli vasitəsilə təbiət haqqında biliklərin mənimsənilməsi və bu biliklərin sonradan elmi-materialist, mənəvi, vətənpərvər baxışlara və inamlara çevrilməsi prosesində məktəblilərin ardıcıl və fəal tərbiyəsinin həyata keçirilməsinə istiqamətlənmişdir.

Təbiət fənləri üzrə ilkin təhsilin müxtəlif məzmun, forma, öyrətmə və öyrənmə metodları vardır. Ona görə kiçikyaşlı məktəblilərdə elmi dünyagörüşünün dayanıqlı əsaslarının formalaşmasını, vətənpərvərlik hislərinin inkişafını, doğma təbiəti qorumağı və zənginləşdirməyi səmərəli stimullaşdıra bilər. Yəni, sonradan yuxarı siniflərdə biologiya, fiziki coğrafiya, fizika, kimya dərslərində şagirdlər inanırlar ki, bütün mövcud olan təbiət maddidir, belə ki, o müntəzəm hərəkət edən materiyanın müxtəlif formaları kimi özünü göstərir, onun bütün növlərində insanların şüuru və arzularından asılı olmayaraq mövcuddur; fiziki, kimyəvi, bioloji, biokimyəvi, fiziki-kimyəvi və biofiziki proseslərdə o yalnız sonsuz dəyişir. Bütün bu dəyişmələr fəza və zamanla şərtlənən, müxtəlif formalarda özünü biruzə verən təbii obyektiv əlaqələrdir. Onların hamısı üçün xarakterik olan səbəb-nəticə əlaqəlidir. Fizika, kimya, biologiya, coğrafiya alimləri təbiətdə mövcud olan əlaqələr və qanunları dərk edir və onlardan istehsalatda, məişətdə, estetik məqsədlər üçün istifadə edərək təbiəti ram edirlər.

Bütün bu deyilənlər onu da qeyd etməyə imkan verir ki, riyaziyyatın ibtidai kursunun təbiət fənləri ilə əlaqəli tədrisinin, riyazi anlayışların təbiətdə uşaqların gündəlik həyatda qarşılaşdıqları faktlar əsasında izah edilməsi çox böyük həm yaxın, həm də uzaq məqsəd daşıyan tərbiyəvi əhəmiyyət də kəsb edir. Riyaziyyatın müşahidələr əsasında qazanılan təbiət bilikləri üzərində izah edilməsinin yaxın məqsədi müvafiq fənlər üzrə şagirdlərə yalnız bilik, bacarıq və vərdişləri mənimsətməkdən ibarət olmamalıdır. Didaktik alimlərin müəyyən etdiyi kimi, belə təlim, həm də öyrənilən riyazi və təbiət bilikləri vasitəsilə və digər vasitələrlə onları məqsədyönlü şəkildə tərbiyə etməkdən, psixoloji inkişafını təmin etməkdən ibarət olmalıdır. Çünki "psixoloji qüvvələri: diqqəti, hafizəsi, iradəsi, təxəyyülü, təfəkkürü və s. intensiv inkişaf edən şagirdlər təlim və tərbiyə zamanı daha çox uğur qazanırlar".

Psixoloji qüvvələrin intensiv inkişafı həm də strateji (uzaq) məqsədin reallaşmasını təmin edir. Bütün təlim prosesində olduğu kimi, ibtidai siniflərdə riyazi anlayışların təbiət bilikləri ilə əlaqəli tədrisi də təlimin strateji (uzaq) məqsədinə – yəni, milli və ümumbəşəri dəyərləri gənc nəslə məqsədyönlü, planlı və mütəşəkkil aşılamaq yolu ilə respublikamızın ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını, dövlət müstəqilliyini qorumağa qadir olan, ölkə ərazisinin fauna və florasını mükəmməl bilən və onu canından artıq sevən vətəndaş yetişdirməyə xidmət etməlidir. Buna I-IV siniflər üçün yazılmış mövcud riyaziyyat dərsliklərinin məzmunu da imkan verir. Dərsliklərdə 10-luq, 20-lik, 100-lük və 1000-lik dairəsində hesab əməllərinin öyrədilməsi müxtəlif cəbri və həndəsi anlayışlarla, həm də təbiət və gündəlik məişət hadisələri ilə əlaqəli verilir. Məsələn: cəbri anlayışlar kimi ədəd oxu, ədəd oxu üzərində ədədlərin müqayisəsi, toplanması və çıxılması, qrafik məlumatlar (barqraf, teliqraf, piktoqram, cədvəl, Venn diaqramı), sıra sayları, 100-lük kvadratlar koordinat şəbəkəsi, dəyişəni olan ifadələr, tənliklər, kəsrlər, müsbət və mənfi ədədlər və s.; həndəsi anlayışlar kimi kvadrat, düzbucaqlı, üçbucaq və onun növləri, dairə, düz xətt, parça, şüa, sınıq xətt, əyri xətt, bucaq, onun təpəsi və tərəfləri; iti, kor və düz bucaqlar, kub, düzbucaqlı prizma, piramida, silindr, konus, kürə, simmetriya, paralel və kəsişən düz xətlər, çoxbucaqlılar, fəza fiqurlarının modelinin düzəldilməsi, perimetr, sahə, uzunluğun, kütlənin, tutumun ölçülməsi və s.; həyat bilgisi və digər təbiət fənləri üzrə temperatur və onun ölçülməsi, vaxt, kütlə, tutum anlayışları və onların ölçülməsi, ehtimal nəzəriyyəsinin ilkin rüşeymləri, obyektin koordinat şəbəkəsində qeydə alınması, bitkilər,

həşəratlar, heyvanlar və balıqlar, teleskop və s. haqqında məlumatlar riyaziyyat dərsliklərinə daxil edilmişdir. Riyaziyyat dərsliklərinin belə tərtibi onun yalnız təbiət fənləri üzrə müvafiq məlumatlarla əlaqəli tədrisini nəzərdə tutmur.

İbtidai siniflərin riyaziyyat dərslərini təbiət fənləri ilə daha səmərəli əlaqələndirilməsinə imkan verən anlayışlardan biri də kompasdır. Yeri gəlmişkən qeyd edək ki, riyaziyyatın daxili tələblərindən yaranan ən mücərrəd riyazi nəzəriyyələr gec-tez özünün tətbiqlərini tapırlar. Doğrudan da kompas əqrəbinin tarazlığı haqqında Puassonun riyazi nəzəriyyəsi tam 40 il praktik tətbiqlərini tapmamışdır. Bununla yanaşı, kompasın göstərişindəki xətalar nəticəsində gəmilər qəzalara uğramışdır. Yalnız 1862–ci ildə İrlandiya sahillərində kompasın düzgün olmayan göstərişi səbəbindən iki okean gəmisi məhv olduqda alimlər və mütəxəssislər Puasson nəzəriyyəsinə müraciət etmişlər. Bu nəzəriyyə əsasında dəniz kompaslarının göstərişlərindəki xətaların aradan qaldırılmasının praktik üsulları işlənib hazırlanmışdır. Puassonun riyazi nəzəriyyəsi bu qayda ilə dənizçilikdə təhlükəsizliyin yüksəldilməsinə kömək etmişdir.

Hər bir ibtidai sinif müəllimi onu da bilməlidir ki, I sinifdən başlayaraq kiçik yaşlı məktəblilərə riyaziyyatın digər təbiət fənləri ilə qarşılıqlı-əlaqəli öyrədilməsi prosesi hansı mühüm strateji təlim məqsədləri daşıyır və gələcəkdə gəncləri müxtəlif elmlərin hansı sahələrinə aparacaqdır?

Sualı qismən cavablandıraq:

Elmi biliklərin riyaziləşməsi adlanan riyazi metodların başqa elmlərə nüfuz etməsi prosesinin çoxdan başlanmasına baxmayaraq, yalnız elmi-texniki tərəqqi dövründə böyük vüsət almışdır. Elmin riyaziləşməsi əsasən cari prosesin dildə ifadəsi ilə həyata keçirilir. Riyazi dilin digər elmlərin dilindən fərqli xüsusiyyəti ondan ibarətdir ki, özündə heç olmazsa iki dili (cəbri strukturların simvolik dili və həndəsi fiqurlar, qrafiklər, diaqramlar və s. dili) özündə birləşdirir. Nəzəri təbiətşünaslığın inkişafında riyazi dilin əhəmiyyətini nəzərdən keçirən məşhur fizik Nils Bor yazmışdır: "riyaziyyat – dil üstəgəl təfəkkürdür; dil və məntiqin birliyidir".

Təbiətin öyrənilməsində riyaziyyatın əhəmiyyətini yüksək qiymətləndirən Q.Qaliley yazılmışdır ki, təbiət hamı üçün açıq olan nəhəng bir kitabdır; bu kitabı yalnız riyaziyyatı mükəmməl öyrənənlər dərk edə bilərlər. Təbiət elmlərinin öyrədilməsində riyaziyyatın inkarolunmaz əhəmiyyəti bir daha bu fikirlərlə təsdiq olunur.

Təbiət elmləri inkişafının təsirli vasitəsi olan elmlərin riyaziləşməsi müasir dövrün səciyyəvi xüsusiyyətidir. İnsanlar artıq indi dərindən başa düşmüşdür ki, elmi biliklər, o cümlədən, təbiət elmlərinə aid biliklər o zaman təkmil ola bilər ki, onların ifadəsində riyazi modellərdən istifadə etmək mümkün olsun.

Mücərrəd və simvolik riyaziyyatın köməyi ilə fiziklər və bioloqlar materiyanın dərinliyinə nüfuz edə bilirlər. Riyaziyyat alimlərin eksperimental yolla müəyyən edə bilmədikləri obyektləri görmək üçün vasitədir. Riyaziyyat fiziklər üçün təbiətdə yeni hadisələri izah etmək və sonradan eksperimental yolla onun doğruluğunu yoxlamaq üçün bir növ riyazi qələmdir. Buna fizikada pozitron, neytron və başqa hissəciklərin kəşfini misal göstərmək olar. XX əsrin 30-cu illərində Dirakın tərtib etdiyi riyazi tənliyə görə yalnız fiziki hissəciklər olan elektronlar deyil, həmçinin, əks hissəciklər olan – pozitronlar da mövcud idi. Bundan sonra tezliklə eksperimental yolla Anderson pozitronu kəşf etmişdir. Eksperimental yolla pozitronun kəşfindən əvvəl riyazi hesablamalarla onun mövcud olması sübut olunmuşdur. Əlbəttə, belə hesablamalar sürətli kompüter hesablamalarının köməyi sayəsində mümkün olmuşdur.

Müasir fiziologiyada və təbabətdə də riyazi metodlardan daha çox istifadə olunur. İndi artıq təkcə biologiya deyil, təbabətin özü də hadisələri dinamik təsvir etməyə imkan verən riyazi metodları nəzərə almaya bilmir, canlı orqanizmə mürəkkəb dinamik sistem kimi baxılır.

XIX əsrin 70-ci illərində riyaziyyatın biologiyada tətbiqi sıfra bərabər qəbul edilirsə, hazırda bu baxışlar tamamilə dəyişmişdir. Canlı təbiət riyaziyyat və təbiət elmlərinin birgə tətbiq edilməsi sayəsində öyrənilir.

Təbiət fənləri sisteminin mühüm tərkib elementi kimi coğrafiya kursu – Yer kürəsinin forması, ölçüləri, su obyektləri, onu əhatə edən hava, bitki və heyvanat aləmi öyrənilir. Bu zaman əsas vasitə kimi coğrafiya xəritələrindən istifadə olunur. Xəritə - coğrafi obyektlərin və hadisələrin yerləşməsi, birləşməsi və əlaqələrini müxtəlif kartoqrafik işarələrlə göstərilən əyani fəza modelidir. Bu qiyməti idrak vasitələrindən düzgün istifadə etmək bacarığı ibtidai siniflərdən başlayaraq formalaşdırılır ki, bu bacarıqlar da hər bir Azərbaycan vətəndaşının intellektual səviyyəsinin göstəricisidir. Xəritəni başa düşmək, oxumaq – hər hansı ərazinin xüsusiyyətlərinin aşkar edilməsindən ibarət olan prosesdir.

İbtidai riyaziyyat kursunda da fiqurların müstəvi üzərində təsviri, miqyas, oxşar və fırlanma fiqurlarının qurulması, oxşar fiqurların sahələri nisbəti, iki məntəqə arasındakı məsafənin tapılması kimi məsələlər həll olunur.

Ümumtəhsil orta məktəblərin I-IV siniflərində tədris olunan mövcud riyaziyyat kursu əhəmiyyətli dərəcədə nəzəri səviyyənin yüksəldilməsi, tətbiqi istiqamətin gücləndirilməsi ilə xarakterizə olunur. Məzmunu digər təbiət fənləri ilə üzvi əlaqədə qurulan riyaziyyat dərsliklərində tədris materialının elmi – nəzəri səviyyəsinin zənginləşməsi, ona riyaziyyatı elmin müasir problemləri ilə əlaqələndirən yeni bölmələrin (cəbri elementlərin, funksiyalar nəzəriyyəsinin elementlərinin, xətti proqramlaşdırma məsələləri haqqında elementar anlayışların, kompyuter texnologiyası haqqında məlumatların və s.) və praktik tətbiqlər baxımından zəruri mətnli məsələlərin daxil edilməsi ibtidai riyaziyyat kursunun bütövlükdə tətbiqi istiqamətini gücləndirir.

Ən mühüm riyazi anlayışlar və vərdişlər kifayət qədər uzun müddətə formalaşır. Bu da təlimin müxtəlif mərhələlərində şagirdlərə mühüm anlayışları, bacarıq və vərdişləri ardıcıl mənimsəməyə şərait yaradır və proqramın bütövlükdə daha dərindən öyrənilməsinə imkan verir.

İbtidai siniflərdən başlayaraq şagirdlərin təqvim üzərində müxtəlif tarixləri müəyyən etməyi, koordinat şəbəkəsi üzərində koordinat cütlərinə görə əşyanın yerini müəyyən etməyi, məlumatları müxtəlif qrafik formada (teliqraf, barqraf, piktoqram, cədvəl, Venn diaqramı) çəkməyi, qrafik formalarda verilən məlumatları oxumağı və təqdim etməyi, verilən məlumatları araşdırmaqla hadisənin nəticələri haqqında əvvəlcədən fikir söyləməyi, proqnoz verməyi və s. mükəmməl öyrənməsi, yuxarı siniflərdə onları coğrafiya fənnini riyazi metodların köməyi ilə öyrənməyə hazırlamağa kömək edir.

Onu da qeyd etmək lazımdır ki, ibtidai siniflərdə təbiət fənləri üzrə məlumatların verilməsi və həmin məlumatların riyazi anlayışlarla üzvi əlaqədə izah edilməsi həm ibtidai riyaziyyat kursunun elmi səviyyəsinin yüksəldilməsini, alınan nəzəri biliklərin həyata keçirilməsini təmin edir, həm də yuxarı siniflərdə riyazi fənlərin tədrisi zamanı fənlərarası əlaqələrin daha mürəkkəb, lakin vacib variantlarının reallaşdırılması işinin təşkilinə, şagirdlərin belə mürəkkəb təfəkkür əməliyyatlarından uğurla keçmələrinə zəmin yaradır. Ona görə də təhsilin bu aparıcı məsələlərinin müvəffəqiyyətlə həll edilməsində riyaziyyat kursunun təbiət fənləri ilə üzvi əlaqələrinin təmin edilməsi zəruridir.

***Elmi yeniliyi:*** Riyaziyyatın ibtidai kursunun tədrisində təbiət fənlərinin rolu kiçikyaşlı məktəblilərin təlim naliyyətlərinin qiymətləndirilməsində mühüm rol oynayacaqdır.

***Tətbiqi əhəmiyyəti:*** Məqalənin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, ibtidai sinif pilləsində müəllimlər və elmi iş aparan tədqiqatçılar burada toxunulan məsələlərin xüsusiyyətlərini, əhəmiyyətini və rolunu nəzərə alacaqlar.

## ƏDƏBİYYAT


1. Adıgözəlov A.S., Əliyeva T.M. Riyaziyyatın tədrisi prosesində fənlərarası əlaqələrin tətbiqi: Metodik vəsait. Bakı: Maarif, 1993, 166 s.
2. Əliyev İ.İ. İbtidai siniflərdə dərs zamanı şagirdlərin müstəqil işlərinin səmərəlilik şərtləri.Bakı: Mütərcim, 2007, 146 s.
3. Mərdanov M.C. Davamlı inkişaf və təhsil. Bakı: Çaşıoğlu, 2007, 210 s.

4. Orucov Z.N. Şagirdlərin peşə hazırlığında təbiət, riyaziyyat və texniki biliklərinin qarşılıqlı əlaqələrinin təmin edilməsi. Bakı: 1986, 166 s.

**РЕЗЮМЕ**

**ДИДАКТИЧЕСКОЕ КАЧЕСТВО СОВМЕСТНОГО ОБУЧЕНИЯ НАЧАЛЬНОГО КУРСА МАТЕМАТИКИ С ЕСТЕСТВЕННЫМИ НАУКАМИ.**

***Гасанова Х.С., Алиева К.Г., Бабаева У.Р.***

***Ключевые слова:*** *междисциплинарные контакты, текстовый материал, метод обучения*

В статье говорится о преподавании математики, о естественных науках в курсе элементарных математических представлений, с которыми учащиеся сталкиваются в повседневной жизни.

**SUMMARY**

**DIDACTIC QUALITY COEDUCATIONAL ELEMENTARY MATHEMATICS COURSE WITH THE NATURAL SCIENCES.**

***Hasanova Kh.S., Aliyeva K.G., Babayeva U.R.***

***Key words:*** *interdisciplinary contacts, text material, teaching method*

The article on the teaching of mathematics, science courses in elementary mathematical concepts they encounter in everyday life of children in nature is too great to be explained on the basis of the facts, both near and far from the goal of the educational significance.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 01.04.2016 |
| | Son variant | 16.03.2017 |

**UOT 37.04**

# TARİX TƏLİMİNDƏ HEYDƏR ƏLİYEV İRSİNDƏ MƏNƏVİ TƏRBİYƏ MƏSƏLƏLƏRİNİN İZAHI PROBLEMİNİN METODİK ƏDƏBİYYATLARDA QOYULUŞU

**ABDULLAYEV RAVİL FƏRRUX oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, maqistrant*
*e-mail:sdu.elmixeberler@mail.ru*

***Açar sözlər:*** *Ulu öndər, Heydər Əliyev, şəxsiyyət, mənəviyyat, namus, xalq*

Ulu Öndərimiz H.Əliyevin həyatının gənc nəslin mənəvi tərbiyəsinin vasitələrindən biri kimi tətbiq etməzdən öncə belə bir suala cavab tapmaq lazım gəlir: şəxsiyyət kimdir və o digərləri üçün nə zaman nümünəyə çevrilir?

Bu məsələyə aydınlıq gətirmək üçün elmi, elmi kütləvi və dərs vasitələrini nəzərdən keçirdik. İzahlı psixoloji lüğətdə “şəxsiyyət” termini belə açıqlanır: “şəxsiyyət dünyanı dərk edib müəyyən istiqamətdə dəyişən, əmək fəaliyyətinə qabil olan konkret, ictimai varlıq olan insandır” [1,137]

Pedaqoji mənada “şəxsiyyət” dedikdə, hər bir adamın həyatda qazandığı mənəvi kefiyyətlərin məcmusu başa düşülür. Şəxsiyyət haqqında danışarkən adamın öz quruluşu, boy-buxunu, gözünün, saçının rəngi kimi anadangəlmə fiziki kefiyyətləri deyil, onun həyatda qazandığı əxlaqi, estetik və s. mənəvi kefiyyətləri ön plana çəkilir [2,209]. T.Orucov göstərir ki, şəxsiyyətin ən vacib əlaməti mənəvi kefiyyətlərdən və mənəvi cəhətdən əsaslandırılan fəaliyyətdir. O yazır: “Şəxsiyyət o adamlara deyilir ki, onların mahiyyəti hər şeyi əhatə edir. Adam fərdi parlaq xüsusiyyətlərə malik ola bilər, lakin heç də şəxsiyyət ola bilməz. Adamların təkcə istedadı da burada köməyə gəlmir, çünki çoxlu sayda ən istedadlı, ən qeyri-adi adamlar vardır, lakin onlar bununla yanaşı simasızdırlar”.

Ulu Öndərimiz Heydər Əliyev mənəvi təmizliyi, paklığı müstəqil dövlətimizi bir rəhbər olaraq inkişaf etdirməkdə, irəliyə aparmaqda ən düzgün yol hesab edirdi: Ulu Öndərimiz Heydər Əliyevə görə “mənəvi paklıq, saflıq həmişə insanları ucaldıb, həmişə insanlara hörmət gətirib. Baxmayaraq ki, belə insanlar əziyyət, zillət içərisində yaşayıblar. Ola bilər cürbəcür məhrumiyyətlərə məruz qalıblar. Ancaq mənəvi ucalıq onlar üçün hər şeydən qiymətli olmalıdır” [3, 91].

Heydər Əliyev hələ Sov. İKP MK-nin siyasi Bürosunun üzvlüyünə namizəd, Azərbaycan KP MK- nin I katibi vəzifəsində çalışarkən Bakıda keçirilən (25 aprel, 1979-cu ildə) “Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri” mövzusunda keçirilmiş Umumittifaq elmi-praktik konfransda bu cür mənəviyyata zərər vuran qüsurlara toxunmuş, onlara dövrünün reallıqları baxımından yanaşaraq aydınlıq gətirmişdir. Onun həmin konfransdan olan məruzəsindən bəzi məqamlara diqqət yetirək: “Bizim üçün maddi nemətlər son məqsəd deyil, şəxsiyyətin hərtərəfli inkişafı üçün ilkin şərtlərdir. Lakin təcrübənin göstərdiyi kimi hədsiz meşşanlıq, fərdiyyətçilik mikrobları adamların bir hissəsini xüsusi mülkiyətçilik, istehlakçılıq psixologiyası, yığıb artırmaq hərisliyi “əşyabazlıq azarı”na yoluxubdur” [4, 121].

Onun konfransdakı məruzəsindən aşağıdakı məqamlara diqqət yetirək: “Ata-anaların meşşan şöhrətpərəstliyi, uşağa bahalı geyim və zinət şeyləri almaq, onu ev işlərindən azad etmək səyi müftəxor yetişməsinə səbəb olur. Ələbaxımlılıq, özbaşınalıq və xudpəsəndlik psixologiyasının əsasları belə qoyulur [4,131]. Azərbaycan xalqı abırlı, həyalı xalqdır. Bu həyalıq və abırlılığın bir tərəfi dinimizdən gəlirsə, digər tərəfi minilliklərin sınağından, süzgəcindən keçmiş milli mentalitetimizdən irəli gəlir. Son zamanlar peyda olan kazinolar, barlar əsl mənəviyyatsızlıq

yuvasına çevrilmişdir. Belə yerlər ictimayyətin gözü qarşında gənc oğlan və qızları abırsızlaşdırır, onları "Qərbin çılpaq mədəniyyətinə" qovuşdururdu. Bu, namussuzluğa, əqidəsizliyə, milli dəyərlərə hörmətsizliyə sürükləyirdi. Həmişə olduğu kimi, bu dəfə də ulu Öndərimiz Heydər Əliyev öz sözünü dedi. Onun 13 avqust 2001-ci il tarixli bəyanatı bütün cəmiyyəti silkələdi, xalqın bir növ gözünü açdı, onu ayıltdı. Xalqın mənəvi dəyərlərinin qorunmasının tərəfdarı olan ulu öndərimiz Heydər Əliyev haram yolla qazanc məqsədi daşıyanlara qarşı mübarizəni hər bir insanın özünün öz mənəviyyatının qorunması aspektindən yanaşırdı. "Bizim millətimizdə, xalqımızda, azərbaycanlılarda namus, qeyrət həmişə ən yüksək kefiyyət hesab olunmalıdır. Amma namusunu, qeyrətini, şərəfini alçaldan insanlar özlərini uçuruma salırlarsa, artıq başqalarınında mənəviyyatını pozurlar. Biz bunlara dözə bilmərik və xalqımız da dözməməlidir", daha sonra: "Hər bir insan özü öz mənəviyyatını qorusun. Əgər görəndə ki, haradasa mənəviyyat pozulur", onun qarşısını alsın. Onun axarında getməsin" [5,193].

H.Əliyev belə hesab edirdi ki, "gecə barlarında vaxt keçirənlər təbiidir ki, hansısa imkanlı ailələrin adamlarıdır. Kasıb adam, kasıb ailənin uşağı oraya gedə bilməz". Ulu öndərimiz Heydər Əliyev nə qədər imkanlı olursa olsun, nə qədər zəngin olursa olsun valideyinlərdən öz övladlarına düzgün yol göstərərək tərbiyə etməyi tövsiyə edirdi: "Nə qədər imkanlı olursan ol, nə qədər zəngin olursan ol gərək sən övladlarına düzgün yol göstərərsən, düzgün tərbiyə verəsən. Ona gecə barlarında müxtəlif əyləncələr üçün şərait yaratmayasan" [6,333].

22 sentyabr 1993-cu ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri lə görüşündəki nitqində H.Əliyev cəmiyyətdə mövcud olan bu cür mənəvi problemlərə toxunmuş, onların gənclərin mənəviyyatına təsirini aşağıdakı şəkildə açıqlanmışdır: "Yaxşı bilirsiniz ki, sərxoşluğa qurşanmış gənclərdən gələcəkdə sağlam övlad törəyə bilməz, onlar bizim nəslimizin davamçısı da ola bilməz. Narkomaniyaya qurşanmış gənclər əgər ondan müvəqqəti zövq alırlarsa belə düşünməlidirlər ki, onlar öz nəsillərini zəhərləyir, itirirlər" [4,24].

Ulu öndərimiz H.Əliyev adamların fikrini və mənəvi hisslərini oyatmaqda, ən kəskin, aktual məslələrə, gələcək nəsillərin müqəddəratı ilə əlaqədar problemlərə düzgün, inandırıcı cavablar axtarmaqda jurnalistlərin köməklik göstərmələrini mühüm məqamlardan sayırdı. O, xüsusilə ədəbiyyat və incəsənəti insanın mənəvi cəhətdən yüksəldilməsində əxlaqca kamilləşməsində qüdrətli vasitə hesab edirdi. Ulu Öndərimiz özünun qeyd etdiyi kimi, "ədəbiyyat və incəsənət insanpərəstliyi, qabaqcıl ideyaların coşğun təbliğində ifadəsini tapan sənətkar rəşadəti münasibətlərimizi ülviləşdirir və nəcibləşdirir. Bütün bunlar tələb edir ki, ədəbiyyat və incəsənət xadimləri yaradıcılığa, öz əsərlərinin ideya və bədii səviyyəsinə daha ciddi yanaşmalıdırlar" [4,140].

Heydər Əliyev həyatda laqeydliyi,biganəliyi sevmirdi. Bu cür mənəvi kefiyyətləri o, insan mənəviyyatına təsir göstərə biləcək mənfi meyillərin başlanğıcı olaraq görürdü. Digər tərəfdən o, insanı digər bir insanı düz yola çəkməkdən ötrü mənəvi haqqın olmasını vacib amillərdən sayırdı.

**ƏDƏBİYYAT**

1. Məhərrəmov M.C. İzahlı psixoloji lügət. Bakı: Azərnəşr, 1999, 149 s.
2. Azərbaycan milli izahlı enosiklopedik pedaqoji lüğət // N.M.Kazımovun redaktəsi ilə. Bakı: Azərbaycan Dillər İnistutu, 2005, 245 s.
3. Aforizmlər. Bakı: Azərbaycan Universteti, 1997, 368 s.
4. Əliyev H.Ə. Təhsil millətin gələciyidir. Bakı: Təhsil, 2002, 580 s.
5. Xəlilov S.S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı: Azərbaycan universteti, 2002, 232 s.
6. Gələcək gənclərindir / Ə.Qarayevin redaktəsi ilə. Bakı: Azərnəşr, 2004, 496 s.

**РЕЗЮМЕ**

**ПОСТАНОВКА ПРОБЛЕМЫ ВОПРОСОВ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ В ПРЕПОДАВАНИИ ИСТОРИИ НАСЛЕДИЯ ГЕЙДАРА АЛИЕВА И ИХ ОПИСАНИЕ В МЕТОДИЧЕСКОЙ ЛИТЕРАТУРЕ**

***Абдуллаев Р.Ф.***

***Ключевые слова:*** *Общенациональный лидер, Гейдар Алиев, личность, мораль, честь, народ.*

В статье рассматривается жизненный путь Общенационального лидера Гейдара Алиева как пример для нравственного воспитания молодого поколения.Для внесения ясности были исследованы методические, научно-методические пособия и литература, из которых можно сделать выводы, что идеи, выдвинутые Г.Алиевым в направлении восстановления государственной независимости Азербайджана, советы и рекомендации способствуют развитию у молодого поколения патриотизма, политической идеи, высокой убежденности, порядочности и достоинства.

**SUMMARY**

**PUTTING EXPLANATION PROBLEMS OF THE ISSUES OF MORAL UPBRINGING IN THE HERITAGE OF H.ALIYEV IN TEACHING OF HISTORY IN METHODIC LITERATURES**

***Abdullayev R.F.***

***Keywords****: Great Leader, Haydar Aliyev,personality, inwardness, honour, people*

In this article our great leader Haydar Aliyev’s life has been explored as one of the means of bringing up of young generation. For clarifying this problem i looked up scientific, scientific-popular and teaching funds. From methodic literatures which i had researched, it became clear that the ideas, recommendations and advice put forward by H.A.Aliyev to restore the state independence of Azerbaijan shall inculcate the pupils with some moral qualities like patriotism, high faithfulness, political thinking, high-mindedness and dignity.



| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 14.12.2016 |
| | Son variant | 16.03.2017 |

**UOT 528.942**

# MÜASİR FİZİKA DƏRSLƏRİNDƏ FƏNNLƏR ARASINDA ƏLAQƏLƏR VƏ KOMPLEKS TƏLİM ÜSULLARINDAN İSTİFADƏ

**[1]ŞAHSIVAROVA QƏRƏNFİL ƏBDÜL qızı**
**[2]MƏMMƏDOVA RƏSMİYYƏ LƏTİF qızı**
**[3]SADIQOVA SARA RƏŞİD qızı**
**[4]MƏMMƏDOV FUAD ƏZİZ oğlu**
*Sumqayıt Dövlət Universiteti: 1- assent, 2,3,4-dosent*
*e-mail:* Rasmiyya2011@mail.ru

***Açar sözlər:*** *fizika dərsləri, təlim, metod, kompyüter.*

Respublikamızda müstəqillik əldə olunduqdan sonra cəmiyyətimizin bütün sahələrində olduğu kimi təhsil sahəsində də əsaslı dəyişikliklər yaranmışdır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində islahatlar proqramı hazırlanmış və bu gün ölkə təhsilinin inkişafı sahəsində böyük nailiyyətlər əldə edilmişdir. Təhsil haqqında qanunun, ümumi təhsilin konsepsiyasının və digər mühüm dövlət sənədlərinin hazırlanması və qəbulu şəxsiyyətin formalaşması ilə bağlı yeni araşdırmaların aparılmasına zəmin yaratmışdır. Orta ümumtəhsil məktəblərində fizika kursunun tədrisinin təhsil əhəmiyyəti şagirdləri fizika elminin əsaslarına aid müəyyən həcmdə sistematik bilik,bacarıq və vərdişlə silahlandırmaqdan və təlim prosesində onların təfəkkürünün düzgün inkişafını təmin etməkdən ibarətdir[1]. Fizika tədrisi metodikasının vəzifələri: orta məktəbdə fizikanı nə üçün öyrətmək,nəyi öyrətmək və necə öyrətmək suallarına cavab verməlidir. Bu fizika tədrisi metodikasının praktik istiqamətini daha aydın şəkildə göstərir[2]. Müasir texniki vasitələrin fizikanın tədrisində tətbiqi zamanı təlim innovativ təlimə çevrilir. Belə ki, pedaqoq və şagird arasında qarşılıqlı təsirin xarakteri dəyişir,müəllim öz funksiyasının bir hissəsini kopyüterə ötürür. Kopyüter texnikası müəllimə təlimin məqsədini və şagirdlə ünsiyyəti daha adekvat etməyə imkan yaradır və tədrisin motivasiya səviyyəsini qaldırır[3].

Əsas təhsil pilləsindəki, fəaliyyət istiqamətlərini dərinləşdirməklə fəza və zaman təsəvvürlərinin daha da genişləndirilməsi, fiziki qanunauyğunluqlarının və fundamental fiziki qanunların mahiyyəti və onların tətbiqi, fizikanın digər elmlərlə əlaqəsi, canlı materiyanın öyrənilməsində və texnikanın inkişafında onun aparıcı rolu haqqında məlumatların mənimsənilməsi, şagirdlərdə elmi dünyagörüşün formalaşması və tənqidi təfəkkürün inkişafını təmin edir.

Məlumdur ki, şagird fundamental fiziki qanunuları digər fiziki qanunlarla müqayisə etməli, onların fərqli və oxşar cəhətlərini izah etməlidir. Fiziki hadisələrin müəyyən qanunauyğunluqlarla əlaqəsini və tətbiqi yollarını şərh etməli, eksperiment və təcrübələr aparmaqla nəzəri biliklərin praktikada reallaşdırılmasını nümayiş etdirməyi bacarmalıdır.

Aydın məsələdir ki, fizika kursunun tədrisi keyfiyyətini artırmaq üçün hər bir məktəbdə zəngin fizika laboratoriyası müasir avadanlıqla təmin olunmalıdır. Məktəblərin çoxunda ən sadə fizika təcrübələrini göstərmək üçün avadanlıq yoxdur. Ona görə də müəllimlər,əsasən,söz və riyazi metodlardan istifadə edə bilirlər. Təlim metodları dərsdə müəllim-şagird cütünün iş formasına uyğun seçilməli və tətbiq olunmalıdır. Metodların seçilməsində və tətbiq edilməsində didaktik məqsədləri,şagirdlərin idrak fəaliyyətini,bəşəri qabiliyyətlərin dərk olunma xarakteri əsas götürülməlidir. Qanunları tədris etmək üçün müəllim metodları seçərkən ilk növbədə qanunların xarakterini nəzərə alır. Metodları məzmuna görə seçir.Qanunlar öz xarakterinə görə anlayışlardan və kəmiyyətlərdən fərqlənir. Əgər anlayışlar müxtəlif kəmiyyət arasındakı əlaqələrin öyrənilməsi,ümumiləşdirilməsi əsasında yaranırsa,qanunlar anlayışlar arasındakı əlaqələrin

araşdırılması qanunauyğunluqların müəyyən edilməsi,sintez əsasında aşkara çıxarılır. Qanunların öyrənilməsi üçün daha dərin ümumiləşdirmə və müəcərrədləşdirmə tələb olunur. Göründüyü kimi,fizika qanunlarının xarakterini bunların aşkara çıxarılma metodlarını nəzərə almadan onları şagirdlərə mükəmməl öyrətmək mümkün olmaz.

Metodları seçərkən qanunların məzmun xarakteri,şagirdlərin ümumiləşdirmə və mücərrədləşdirmə qabiliyyəti,onların müstəqil axtarışlar apara bilmək bacarığı və hazırlıq səviyyəsi,eksperimental iş üçün mövcud imkanlar nəzərə alınmalıdır. Qanunların tədrisi prosesində əqli və zehni, əməyi fəallaşdırmağa imkan verən, təlimdə geniş tətbiqini tapan texniki vasitlərdən düzgün istifadə böyük əhəmiyyət kəsb edir. Qanunlar tarixi aspektdə şərh olunarkən seçilən faktlar şagirdlərdə dərin maraq doğurmalıdır. Şagirdlərin bütün yaradıcılıq qüvvələri hərəkətə gətirilməlidir. Onlara həqiqəti söyləmək lazımdır ki, təbiətdə baş verən hadisələrin müəyyən qrupunun hamı görür və başa düşür. Lakin hadisələrdə elə forma və ritmlər var ki, onları müşahidəçilərin müəyyən qrupu görə bildiyi halda, bir qrupu heç nə görə bilmir.

Fizika qanunları adlandırılan bu cür forma və ritmləri anlamaq üçün zəhmətə qatlaşmaq,təbiəti dərindən dərk etməyə daim meyl göstərmək,axtarışlar aparmaq lazımdır. Qanunların mənşəyi,kəşf olunma tarixi,yolları və metodları,qanuna tabe olan təbiət mövcüzələri,qanunları kəşf edənlərin zəkasının dərinliyi və bu kimi məsələlər barəsində şagirdlərə yeri gəldikcə məlumat vermək onların qanunları yaxşı dərk edə bilmələri üçün çox əhəmiyyətlidir. Müasir dərs adından göründüyü kimi ənənəvi dərslərdən köklü sürətdə fərqlənir.Qeyd etmək lazımdır ki, dərsdə müxtəlif texniki vasitələrdən və texnologiyalardan xüsusi tələblər qoyulur və onun həyata keçirilməsi sistem şəklində formalaşdırılır. Bu baxımdan aşağıdakı məsələlər ön plana çəkilir.

1. Tədris ilinin əvvəlində fizika müəllimi hər bir sinif üçün müvafiq sənədlər (fizika kursu üzrə proqram,təqvim tematik plan, yoxlayıcı tədbirlərin qrafiki) paketini hazırlamalıdır.
2. Dərsin növü və tipləri əyaniləşdirilməlidir. Burada dərsin məqsəd və həll etdiyi məsələ əyaniləşdirilir. Bunlar kombinə edilmiş dərs, yeni materialı möhkəmləndirən dərs,təkrar ümumiləşdirici dərs və s. ola bilər.
3. Müasir dərsin həll etdiyi məsələ onun məzmununu qısaca olaraq təsirverici, inkişaf etdirici və tərbiyə edici kimi formalaşdırır.
4. Müasir dərsin əlamətləri: bunlar yeni materialı öyrədən, bilikləri möhkəmləndirən, biliklərin kompleks tətbiqini təmin edən, bilikləri ümumiləşdirərək sistemləşdirən, biliklərin korreksiyası və qiymətləndirilməsini təmin edən yoxlama formasında olur.

Müasir dərsin ən başlıca əlamətlərindən biri burada bir sıra təlim metodlarının kompleks tətbiqinin təmin edilməsidir. Bu zaman əsas diqqət idrak fəaliyyətinin inkişaf etdirilməsinə, şagirdlərin müstəqil işlərinin təşkilinə və nəzarət metodlarının effektiv tətbiqinə xüsusi fikir vermək lazımdır.

Fizikadan müasir dərsdə müəllimin qarşısında duran əsas məqsəd şagirdləri düşündürməyə istiqamətləndirmək, obyektin dərk olunmasını təmin etməklə, dərk edilmiş bilik və bacarıqların praktik tətbiq sahəsini şagirdlərə anlatmaqdan müasir texniki vasitələrdən effekti, xüsusilə kompyüter texnikası və internet resurslarından istifadəni təmin etməkdən ibarətdir. Bu məsələlər əməkdaşlıq (ünsiyyət)formasında fəal təlim, layihələşdirmə, rollu oyunlar formalarında həyata keçirilə bilər.

Müasir dərsin qarşıya qoyduğu məqsədin həyata keçirilməsində video materiallardan və multimediya texnologiyasından istifadə xüsusi əhəmiyyət kəsb edir. Müasir fizika dərslərində komyüterdən istifadə indiki anda mövcud proqram təminatı ilə müəyyənləşdirilir. Bu sahədə komyüterdən istifadəni bir neçə istiqamətlərə ayırmaq olar.

1. Fizika dərslərində komyüterin tətbiqi keyfiyyətcə təlimin universal texniki vasitələrini əvəz edir.
2. Fiziki hadisə və proseslərin müstəqil modelləşməsini təmin edir.

3. Fizika kabinetlərində aparılan nümayiş və şagird eksperimentlərində kopyüter ölçü laboratoriyası kimi istifadə olunur.
4. Məktəb fizika kursunun müxtəlif mövzularının öyrədilməsi zamanı məktəblilərin müstəqil işlərini öyrədici proqramlarla təmin edir.
5. Elektron ensiklopediyaların interaktiv uşaq ensiklopediyalarının, informasiya resurslarının müəllim və şagirdlərin tədris-tədqiqat fəaliyyətlərinin təşkilində və lazım olan informasiyaların axtarışında internetdən istifadəni təmin edir.

Təbiət elmi olan fizika fənninin əsasını təşkil hadisə və qanunlarla başqa fənlərin əsasları arasında təbii bağlılıq vardır.Tədris prosesində şagirdlər geniş elmi dünyagörüşünə yiyələnməli, fiziki hadisə və qanunlar arasında ümumi əlaqə olduğunu dərk etməlidirlər. Bu işdə fizika tədrisində fənlər arası əlaqənin təsirli rolu, təlim-tərbiyyəvi əhəmiyyəti xüsusi rol oynayır[1]. Təlim metodlarının müasir fizikanın insan cəmiyyəti həyatındakı rolunun, onun tədqiqat üsullarının və buna əsaslanan müasir texnikanın nailiyyətlərinin aşkara çıxarılmasının şagirdlərin insan və cəmiyyət kursunu yaxşı mənimsəmələri üçün böyük əhəmiyyəti vardır. Fizika kursu ilə içtimai elmlərin möhkəm əlaqələndirilməsi şagirdlərin dünya baxışlarının formalaşması üçün geniş imkanlar açır. Biliyin sistemliliyi bir tərəfdən hər bir fənnin tədrisi ilə, digər tərəfdən bu fənlər arasında möhkəm qarşılıqlı əlaqənin yaradılması ilə təmin edilir. Bu zaman müəllimin biliyi və peşəkarlığı yüksək rol oynayır.Tədris prosesində fənlər arasındakı mövcud əlaqələr aşkara çıxarıldıqca şagirdlər dərindən anlayırlar ki, təbiət elmlərinin hər biri maddi aləmi müxtəlif metodlarla öyrənir. Kainatda baş verən hadisələri və hadisələrin səbəbini aşkara çıxarmaqla elmlərdən biri o birisinin nailiyyətlərindən istifadə edir. Müasir məsələlərdə elmin əsaslarına aid biliklərin kompleks halında tətbiqi get-gedə əməyin ayrılmaz hissəsinə çevrilir. Məktəblərdə təlim tərbiyənin də bütöv bir sistemi olmalıdır ki, orta məktəbi qurtaran hər bir gənc bu cür əməyə hazırlana bilsin. Təlim fənləri arasında əlaqələrin həyata keçirilməsi məhz belə hazırlığın təmin edilməsi üçün zəruri şərtdir.

***Elmi yeniliyi:*** Fizikadan müasir dərsdə müəllimin qarşısında duran əsas məqsəd şagirdləri düşündürməyə istiqamətləndirmək, obyektin dərk olunmasını təmin etməklə, dərk edilmiş bilik və bacarıqların praktik tətbiq sahəsini şagirdlərə anlatmaqdan müasir texniki vasitələrdən effekti xüsusilə kompyüter texnikası və internet resurslarından istifadəni təmin etməkdən ibarətdir.

***Tətbiqi əhəmiyyəti*:** Tədris prosesində fənlər arasında mövcud əlaqələr aşkara çıxarıldıqca şagirdlər dərindən anlayırlar ki, təbiət elmlərinin hər biri maddi aləmi müxtəlif metodlarla öyrənir. Müasir məsələlərdə elmin əsaslarına aid biliklərin kompleks halında tətbiqi get-gedə əməyin ayrılmaz hissəsinə çevrilir.

## ƏDƏBİYYAT


1. Nurullayev Y.Q. Fizika kursunun tədrisi metodikası. Bakı: Elm, 2011, s.39-48.
2. İmanov S. Orta məktəbdə fizika tədrisi metodikası. Bakı: Maarif, 2004, s. 7.
3. Məmmədova R.L., Xəlilov S.X., Məmmədov F.Ə. Orta məktəbdə fizikanın tədrisində kompyüter texnologiyası və internet resurslarının rolu // Fizika riyaziyyat və informatika tədrisi. Bakı: 2015, s. 24-27.

**РЕЗЮМЕ**

**ПРАВИЛА ИСПОЛЬЗОВАНИЯ МЕЖДИСЦИПЛИНАРНЫХ СВЯЗЕЙ И МЕТОДОВ КОМПЛЕКСНОГО ОБУЧЕНИЯ НА СОВРЕМЕННЫХ УРОКАХ ФИЗИКИ**

***Шахсыварова К.А., Мамедова Р. Л., Садыгова С. Р., Мамедов Ф. А.***

***Ключевые слова:*** *уроки физики, обучение, метод, компьютер.*

В статье предоставляется отношение к современным урокам физики после приобретения нашей республикой суверенитета, требования к организации уроков, критерии их эффективного проведения. Основная цель, поставленная перед учителем на современном уроке физики, состоит в том, чтобы направить учеников мыслить, обеспечивая понимание объекта, объяснить ученикам практическую сферу познанных знаний и умений, обеспечить эффективное использование средств современной техники, в особенности компьютерной техники и интернет ресурсов.

**SUMMARY**

**TERMS OF USE INTERDISCIPLINARY CONNECTIONS AND METHODS COMPLEX TRAINING ON MODERN PHYSICS LESSONS**

***Shahsivarova K.A., Mammadova R.L., Sadigova S. R., Mammadov F.A.***

***Keywords:*** *physics lessons, training, method, computer.*

The article is available related to modern physics lessons after the acquisition of our republic suverinitet, requirements for the organization of lessons, criteria for their effective implementation. The main goal set by the teacher in modern physics lesson, is to guide students to think, to provide an understanding of the object, explain to students the practical sphere cognized knowledge and skills to ensure the effective use of modern technology, especially computer technology and internet resources.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | İlkin variant | 01.03.2017 |
| | Son variant | 16.03.2017 |

**Mündəricat Содержание Contents**

***Dilçilik***
*Məhərrəmova M.H.* Müasir dilçilikdə koqnitiv paradiqmaya dair 4
*Гурбанова С.М.* Выбор невесты в аспекте системности лексики свадебной обрядности азербайджанского и чешского языков 9
*Bağirova A.S.* İsa Hüseynovun əsərlərinin antroponimik leksikasında "Kitabi-Dədə Qorqud"un izləri 16
*İbayev N.A.* Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərində birinci növ təyini söz birləşmələri 20

***Ədəbiyyatşünaslıq***
*Valida S. Karimova.* Aesthetic theory in literary criticism (analysis of aesthetic criterion in literary critique) 24
*Şirinov F.İ.* Süleyman Vəliyevin yaradıcılığında XX əsr həqiqətləri 28
*Zeynalova R.H.* Şamil Salmanovun ədəbi-nəzəri görüşlərində ənənə və novatorluq 34
*Aliyeva A.A.* Çingiz Aytmatovun "Əbədi gəlin" romanında qloballaşan dünyada insanlığın faciəsi 38

***Tarix***
*XasayevN.N., Bayramova Ü.M.* Azərbaycanın qədim və ilk orta əsrlər dövrü dövlətçilik tarixinə dair (e.ə. III minilliyin I yarısı – b.e VI əsrinin əvvəlləri) 43
*Əhmədov R.V.* XIX əsrin II yarısında Sibirin iqtisadi vəziyyəti 48
*Əsədova A.V.* II Dünya müharibəsindən sonra Türkiyənin sosial-iqtisadi və siyasi vəziyyəti 52

***İqtisadiyyat***
*Abdullayev L.İ., Quluzadə Ç.Ə.* Xarici ölkələrdə mühasibatlıq fəaliyyəti (ABŞ-ın timsalında) 56
*İbrahimova Ç.İ.* Azərbaycanda sahibkarlığın maliyyə təminatının gücləndirilməsi istiqamətləri 60
*Qasimova Z.M.* Azərbaycanda internet biznesin inkişafında marketinq tədqiqatlarının rolu 65
*Ağayeva S.E.* Azərbaycanda aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi 69
*Süleymanova Ş.S., Səlimova İ.S.* Dövlət büdcəsi və büdcədənkənar fondların statistik qiymətləndirilməsi 73
*Abdullayeva Z.H., Quliyev İ.Ə. , Vəliyev A.C., Hüseynova L.İ.* Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda təbii şəraitin kənd təsərrüfatı cəhətdən qiymətləndirilməsi 76

***Pedaqogika, psixologiya, metodika***
*Dadaşzadə Ə.İ.* Xaqani Şirvani yaradıcılığında ailə-övlad tərbiyəsi 80
*Həsənova X.S., Əliyeva K.H., Babayeva Ü.R.* Riyaziyyatın ibtidai kursunun təbiət fənləri ilə əlaqəli tədrisinin didaktik xüsusiyyətləri 83
*Abdullayev R.F.* Tarix təlimində Heydər Əliyev irsində mənəvi tərbiyə məsələlərinin izahı probleminin metodik ədəbiyyatlarda qoyuluşu 89
*Şahsıvarova Q.Ə., Məmmədova R.L., Sadıqova S.R., Məmmədov F.Ə.* Müasir fizika dərslərində fənnlər arasında əlaqələr və kompleks təlim üsullarından istifadə. 92

| | |
|---|---|
| Kompüter yığımı | *S.Şahverdiyeva* |
| Korrektorlar: | *G.Hüseynova*<br>*E.Əhmədova*<br>*R.Vəliyev* |
| Texniki redactor | *E.Həsrətova* |

Yığılmağa verilmişdir: 05.01.2017- ci il
Çapa imzalanmışdır: 16.03.2017-ci il
Mətbəə kağızı, kağızın formatı: 70*108 ¼
Yüksək çap üsulu
Şərti çap vərəqi 6.
Sifariş 33 .
Tiraj 250 nüsxə.
Qiyməti müqavilə yolu ilə.
Sumqayıt Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.



**Müxbir ünvan:**

Azərbaycan, 5008, Sumqayıt, 43-cü məhəllə
Tel: (0-12) 448-12-74
(0-18) 644-88-10
Faks: (0-18) 642-02-70

**Web: www.sdu.edu.az**
**E-mail: sdu.elmixeberler@mail.ru**